AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№2 (21) * 2007**

1997-ci ilin
oktyabrından çıxır

**BAKI – 2007**

*KBT- 78*
*K 73*

Təsisçi və baş redaktor:
professor **Xəlil İSMAYILOV**

Məsul katib:
**Dosent Knyaz ASLAN**

**REDAKSİYA HEYƏTİ:**

**Professor Abuzər XƏLƏFOV**
**Professor Zöhrab ƏLİYEV**
**Professor Bayram ALLAHVERDİYEV**
**Dosent Rasim KAZIMOV**
**Dosent Əşrəf XƏLƏFOV**
**Dosent Nadir İSMAYILOV**

Buraxılışa məsul :
**Solmaz SADIQOVA**

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2007.-№2.-145 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar: 439-05-47; 439-03-66*

© «**Kitabxanaşünaslıq və biblioqrafiya**», 2007

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКЦУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ
# И
# БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№2 (21) * 2007**

*Выходит*
с 1997 года

**БАКУ-2007**

*ББК-78*
*К 73*

Учредитель и главный редактор:
профессор **Халил ИСМАИЛОВ**

Ответственный секретарь:
**Доцент Княз Аслан**

## РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Ашраф Халафов**
**Доцент Расим Кязимов**
**Доцент Надир Исмаилов**

Ответственный за выпуск:
**Солмаз Садыгова**

**К 73** *Библиотековедение и Библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2007.-№2.- 145 с.*

*Адрес редакции:*

*Аз -1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет,*
*редакция журнала «Библиотековедение и библиография».*
*Тел.: 439-05-47; 439-03-66*

© **«Библиотековедение и библиография», 2007**

## BU NÖMRƏDƏ


### KİTABXANAŞÜNASLIQ

**Elçin Əhmədov, Əsmər Hüseynova.** Qlobal informasiya məkanı və müasir kitabxanaşünaslıqda mütaliənin yeni təzahürləri

**Əli Rüstəmov, Nuriyyə Mustafayeva.** Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması

**Sənubər Mustafayeva.** Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi (məqalə)

**Afət Rzayeva.** Soraq-biblioqrafiya aparatı Oxuculara kitabxana-informasiya xidmətinin əsas bazası kimi

**Elşən Əhmədov.** Müasır şəraitdə oxucu orğularının ödənilməsi sahəsində M.F.Axundov adına azərbaycan Milli Kitabxanasının fəaliyyəti

**Elvira Talıbova**. Kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsi yolları

### BİBLİOQRAFİYAŞÜNASLIQ

**Nadir İsmayılov.** Təbiətşünaslıq, texnika və kənd təsərrüfatı üzrə ədəbiyyatın biblioqrafik təhlilinin bəzi məsələləri

**Raifə Vəzirova.** Elektron biblioqrafik məlumat bazası sbanın əsas tərkib hissəsidir

**Qəmzə Hacıyeva.** Məcburi nüsxə cari milli biblioqrafiyanın əsas bazası kimi

**Xuraman Verdiyeva.** Pedaqogika üzrə retrospektiv elmi köməkçi vəsaitlər

**Əminə Məmmədova.** Azərbaycan tarixçilərinə həsr olunmuş şəxsi biblioqrafik göstəricilər

**Arzu Vəliyeva.** M.F.Axundov adına Milli Kitabxanada Oxuculara biblioqrafik informasiya Xidməti tarixindən (1970-1980)

**KİTABŞÜNASLIQ**

**Şəhla Tahir qızı.** Kitab ticarəti çeşidinin tipoloji modeli

**Ələmdar Bayramov.** Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının yaranması və inkişafı

**Xəzər Qüvvətov.** Müasir azərbaycan poeziyasının üslubu məsələləri

*Elçin ƏHMƏDOV*
*Dosent*
*Əsmər HÜSEYNOVA*
*Magistrant*

# QLOBAL İNFORMASİYA MƏKANI VƏ MÜASİR KİTABXANAŞÜNASLIQDA MÜTALİƏNİN YENİ TƏZAHÜRLƏRİ

Kitabxanalar meydana gəldiyi gündən müasir günə kimi, cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək və əsrlər boyu toplanmış informasiyanı gələcək nəsillərə çatdırmaq funksiyasını yerinə yetirirlər. Cəmiyyətin informasiyalaşmasında, informasiyadan inkişaf resursları kimi istifadə edilməsində, ən əsası isə informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların rolu əvəzsizdir. Bu gün qlobal informasiya məkanında kitabxanalar milli, beynəlxalq, regional informasiya mübadiləsi sisteminin yaradılıb inkişaf etdirilməsində, informasiya və bilik bazarının yaradılmasında, cəmiyyətin peşə və ümumi mədəni, intellektual səviyyəsinin yüksəldilməsində mühüm rol oynayırlar.

Artıq hər birimizə məlumdur ki, dünya alimləri haqlı olaraq XXI əsri «informasiya əsri» adlandırmışlar. Yaşadığımız cəmiyyət isə informasiyalaşdırılmış cəmiyyət adlanır. Azərbaycan milli kitabxanaşünaslığının banisi, əməkdər elm xadimi, professor A.Xələfov informasiyalaşdırılmış cəmiyyəti belə xarakterizə edir: «İnformasiyalaşdırılmış cəmiyyət-işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması ilə məşğul olan cəmiyyətdir.» (1. s.318) Müasir informasiyalaşdırılmış cəmiyyətin bir sıra müsbət keyfiyyət göstəriciləri, üstünlükləri, spesifik xüsusiyyətləri var ki, məhz bu xüsusiyyətlər onu

özündən əvvəlki cəmiyyətlərdən fərqləndirir. Bu spesifik xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- İnformasiyalaşdırılmış cəmiyyət – yeni tipli cəmiyyətdir. Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına (xüsusilə informasiya texnologiyalarına) görə fərqlənir;

- İnformasiyalaşdırılmış cəmiyyət – bilik cəmiyyətidir. Bu cəmiyyət hər bir insanın, cəmiyyətin bilik almasını təmin edir, onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək imkanını yaradır;

- İnformasiyalaşdırılmış cəmiyyət – qlobal cəmiyyətdir. Bu cəmiyyətdə infomrasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var.

Şübhəsiz ki, informasiyalaşdırılmış cəmiyyətin sadaladığımız xüsusiyyətləri ilk olaraq öz əksini kitabxanalarda təcəssüm etdirir. Çünki, məhz kitabxanalar əsrlər boyu zəngin informasiyanı toplayıb mühafizəsini və cəmiyyətin ondan istifadəsini təşkil etmişdir. Əgər kitabxanalar olmasaydı, indi heç bir müasir informasiya cəmiyyətindən söhbət gedə bilməzdi. Lakin, məhz kitabxanaların əsaslı iştirakı ilə müasir informasiya cəmiyyətini formalaşdırmaq mümkün olmuşdur. Buna görə də müasir kitabxanalarda informasiyanın toplanması, saxlanması və yayılması vasitələrinin təkmilləşdirilməsi ilə paralel olaraq informasiyanın axtarışı və informasiyanın işlənməsi vasitələri də modernləşdirilməlidir. Belə ki, informasiyalaşdırma oxucuların informasiya tələbatının operativ və dolğun ödənilməsi üçün, kitabxanaçıların qarşısına qoyulan peşəkar tələblərə, bütün kitabxana proseslərinə o cümlədən oxuculara xidmət işinin təşkili və texnologiyasına köklü dəyişikliklərin edilməsini tələb edir.

İnformasiya əsri kimi qiymətləndirdiyimiz XXI əsr eyni zamanda mütaliənin geniş yayıldığı, kütləvi xarakter daşıdığı əsr kimi də formalaşmışdır. Məhz bu dövrdə mütaliə həyatın ictimai hadisəsinə çevrilmişdir. Buna görə də müasir infomrasiyalaşdırılmış cəmiyyətdə mütaliəyə, onun mahiyyətinə, prinsipinə, məzmun və quruluşuna cəmiyyətin sosial-iqtisadi həyatında gedən proses kimi baxılır. Mütaliənin fərdi psixoloji proses olmasına baxmayaraq, o cəmiyyətin sosial həyatına, mövcud marağın məhsulu olan yeni ideyaların yayılmasına və ictimaiyyətin malına çevrilməsinə imkan yaradır. Müasir informasiyalaşmış cəmiyyətdə mütaliənin rolu xüsusilə əvəzsizdir. Çünki, təbiət, cəmiyyətin inkişaf qanunauyğunluqlarını, elm və texnikada baş verən dəyişiklikləri, bəşəriyyətin əldə etdiyi nailiyyətlərin mahiyyətini dərk edib mənimsəmək üçün mütaliə ən səmərəli vasitədir. Dünyanın qabaqcıl ölkələrində istehsalın yeni texnika ilə silahlanması, yeni elmi kəşflərin, elmi nailiyyətlərin yaranması, dünyada gedən ictimai-siyasi proseslər mütaliəni obyektiv, sosial zərurətə çevirir.

Mütaliənin mahiyyətini açarkən məlum olur ki, mütaliə hər hansı bir mətndə verilmiş məlumatı əxz etməyə yönəlmiş psixoloji proses olub, kommunikasiya-əlaqə fəaliyyətidir.

Mütaliə həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin həyatının bütün sahələrinə bilavasitə təsir edir. Buna görə də mütaliəni bəşəri problem kimi qiymətləndirmək lazımdır. İnformasiyalaşdırılmış cəmiyyətin formalaşması və tərəqqisi mütaliə prosesinin nəticəsidir. Cəmiyyətin bütün inkişaf istiqamətlərini insan təfəkkürü formalaşdırmaqla yanaşı təkmilləşdirir. Mütaliə isə insan təfəkkürünü zənginləşdirir, düşünmə qabiliyyətini artırır.

Cəmiyyətin informasiyalaşdırılması prosesini yüksək səviyyədə təşkil etmək üçün bu işi ilk olaraq kitabxanalardan başlamaq lazımdır. Danılmaz faktdır ki, cəmiyyət informasiyanın ən mühüm vasitəsi olan kitab və kitabxanalarsız keçinə bilməz. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin informasiya müəssisəsinin ən mühüm vasitəsidir.

Müasir informasiyalaşdırılmış cəmiyyətdə elm və texnikanın sürətlə inkişaf etməsi onun bütün fəaliyyət sahələri-

nə tətbiqini tələb edir. Bu baxımdan müasir kitabxanalar da informasiya texnologiyaları olmadan lazımi səviyyədə inkişaf edə bilməz.

İnformasiyalaşdırılmış cəmiyyətdə kitabxanalara yeni informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır, fondun, informasiya ehtiyatlarının mühafizə edilməsi və xidmət işində, oxucuların tələbatının ödənilməsində yaranan problemləri asanlaşdırmağa, onları həll etməyə imkan verir. Müasir kitabxanaşünaslığın təzahür forması kimi yeni texnologiyaların tətbiqi ilə əlaqədar kitabxanalar oxuculara yeni on-line xidmət növünü təklif edirlər ki, intenret bu xidmət növünün həyata keçirilməsində əvəzsiz vasitədir. İnternet həm də kitabxanaların yeni informasiya resursları ilə zənginləşməsini təmin edir. İnternet və on-line xidməti kitabxanalara imkan verir ki, onaların informasiya ehtiyatlarından və məlumat bazalarından ölkədən kənarda da istifadə olunsun. (4. s.5)

Deyilənlərdən aydın olur ki, informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun olaraq dəyişdirilməlidir. Lakin, yaxşı olardı ki, kitabxanadaxili ənənəvi xidmət üsullarının təkmilləşdirilməsinə daha çox üstünlük verilsin. Xüsusilə bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Çünki, uşaq kitabxanalarında texnologiyaların və xidmət işinin tamamilə dəyişdirilməsi yeni müsbət nəticələrin alınmasına deyil, əksinə, bir sıra neqativ halların ortaya çıxmasına səbəb ola bilər. Bu neqativ hallar ilk növbədə öz əksini uşaq mütaliəsinin təşkilində göstərir. Beləliklə hazırda fikrimizcə, uşaq mütaliəsi aşağıdakı problemlərlə üzləşir.

1. Mütaliə böhranı – bu zaman elektron sənəd daşıyıcıları uşaqların tərbiyə sistemini əhatə edə bilmir. Mütaliə prosesi pozulur, uşaqların tələbatı bəsit formada ödənilir. Mütaliəyə rəhbərlik nəzarətdən çıxır. Elektron sənəd daşıyıcılarının texnoloji tətbiqi demək olar ki, informativ xarakter daşıyır və qismən mütaliə böhranına şərait yaranır;

2. Mütaliə azadlığının pozulması – Bu proses mütaliə üçün zaman və məkan tələbinə uyğun gəlmir. Uşaq tərbiyə sistemi, xidmət işinə differensial yanaşma pozulur, mütaliyə meyli olan yeniyetmə istədiyi vaxt və istədiyi yerdə mütaliə edə bilmir. Ənənəvi infomrasiya daşıyıcısı olan kitab, kitabça istənilən vaxt, istənilən məqamda mütaliə edilə bilər.

3. Mütaliə hüququ – bəllidir ki, elektron nəşrlər və onların texnoloji tətbiqi uşaqların informasiya tələbatını tam ödəyə bilmir. Mütaliəyə ehtiyacı olan uşaq oxucusu bu zaman ancaq virtual məkan axtarır bu isə onun mütaliə hüququ ilə uyğun gəlmir. Beləliklə, burada ənənəvi mütaliə sisteminə daha çox ehtiyac duyulur. Çünki, bu uşaqların mütaliə hüququna uyğun gəlir.

Qeyd edək ki, uşaq kitabxanalarında ənənəvi xidmətə və mütaliəyə verilən üstünlük İFLA-nın, uşaq və məktəb kitabxanaları haqqında manifestində də öz əksini tapmışdır. Manifestdə qeyd edilir:

- uşaqlarda mütaliə və təlimə olan maraq və bundan sevinc duymaq qabiliyyətini inkişaf etdirmək və dəstəkləmək;

- informasiya ilə azad müyəssərliyin və zehni azadlığın demokratik prinsiplərinə əsaslanan fəal vətəndaş mövqeyinin tərbiyə edilməsinin vacib şərti olması ideyasının təəssübkeşliyi. (2. s.5-6)

Uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq mütaliəsinin təşkili mühüm kitabxana prosesi kimi ənənəvi metodlara daha çox söykənməlidir. Qeyd edək ki, bu fikirlər xarici ölkə kitabxanaları tərəfindən dəstəklənir. Nyu-York kütləvi kitabxanasının

xidmət üzrə koordinasiyaçısı Juli Kalminz yazır: «Artıq vaxtdır! Kitab uşaq arzu və xəyallarını gerçəkləşdirən sehrli vasitədir. Hələ ömrünün ilk illərindən kitab körpə ilə işləmənin bir hissəsi olmalıdır» (3.s.14).

Mütaliə uşaqların mənəvi aləminin formalaşmasına, fəallaşmasına, yüksək mənəvi keyfiyyətlərin tərbiə edilməsinə mühüm təsir göstərən vasitədir. Daha konkret desək, kitabxanalar uşaq mütaliəsinin təşkilatçısıdır. Müasir kitabxanaşünaslığın yeni təzahür forması kimi kitabxanalara təkcə müxtəlif sənədəlrin əldə olunduğu yer kimi deyil, eyni zamanda uşaqların informasiya ilə təmin olunması prosesinin əsas təşkilatçısı kimi də baxılır. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, və ya istiqamətləndirmək zəruridir. Bu işdə hər şeydən öncə uşaqlarda çoxcəhətli marağın gücünə nail olmaq lazımdır. Həmçinin uşaqlarda yüksək mütaliə mədəniyyətini tərbiyə etmək zəruridir. Mütaliə mədəniyyəti tərbiyəsi sistemi dərin elmi izah tələb edir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyəti tərbiyəsi, formalaşdırılması ilə həm ailədə, həm də pedaqoji qaydada məktəb və kitabxanalarda məşğul olunmalıdır. Çünki, bu günün uşağı gələcəyin informasiya resurslarının istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan olduqca asılıdır. Bu zaman uşaqlara fərqli yanaşmaq vacibdir. Məsələ ondadır ki, onlar kitabxanaçının köməyinə və uşaqlarla işləmə bacarığına dərin ehtiyac hissi duyurlar. Uşaqların mütaliəsinə rəhbərlik edərkən kitab-xanaçı əsasən 3 məsələyə xüsusilə diqqət yetirməlidir:

1. Kitab seçməkdə uşağa kömək etmək;
2. Seçilən kitabın oxunmasına həvəs yaratmaq;



3. Seçilən kitabın səmərəli mütaliəsi üçün səmərəli istiqamət vermək.

Sadaladığımız xüsusiyyətlərə riayət olunarsa uşaqların mütaliəsi ardıcıl inkişaf edərək və gələcəkdə daha da təkmilləşərək daha yaradıcı xarakter dayışır.

Bildiyimiz kimi, müasir kitabxanaşünaslığın yeni təzahür formaları kimi qlobal informasiya məkanında kitabxanalarda kompüter texnologiyalarından olduqca geniş istifadə olunur. Bu çox mühüm əhəmiyyətə malikdir. Çünki, hazırda kompüterlərə uşağın diqqətini cəlb edən vasitə, kitabxanaya gedən yeni bir yol, kitaba olan marağı oyadan vasitə kimi baxılır. Məhz kompüterlərin köməyi ilə toplanmış biblioqrafik informasiya əsasında oxucu növbəti mərhələdə kitab rəfinə müraciət edir. Virtual məkanla real kitabxanalar arasında olan bu özünəməxsus körpü kitabxanaların imicinin formalaşmasına, yeni və ənənəvi informasiya vasitələrinin paralel inkişaf etməsinə, kitabxanaların əsas intellektual məkana çevrilməsinə kömək edir. Məhz kitabxanaşünaslığın nailiyyətidir ki, qlobal informasiya məkanında informasiya texnologiyasının sürətlə inkişaf etməsinə baxmayaraq, kitab nəzərə çarpacaq dərəcədə öz real yerini və əhəmiyyətini qoruyub saxlaya bilmişdir. Belə ki, texnologiya aləminə qarışmış kitab əsl danışıq aləti olub, ağıl, dərrakə və yaradıcılığı birləşdirir. Uşağın inkişaf etməsində bilik hərəkətverici qüvvədir. Bu biliyi uşaq əsasən mütaliə prosesi zamanı qazanır. Yeni texnologiyalardan uşaq kitabxanalarında məhz bu istiqamətdə istifadə olunmalıdır. İFLA-nın fəaliyyət proqramında da uşaq kitabxanaları intellektual azadlığın müdafiəçisi və məqsədyönlü mütaliənin təşkilatçısı rolunda çıxış edir ki, burada elektron informasiya vasitələri ilə yanaşı kitabxananın real fondunun da inkişafını nəzərdə tutur. Müasir dünya kitabxanaşünaslığının yeni təzahür forması olaraq uşaqlara daim, fasiləsiz sürətdə informasiya axtarışı strategiyasını öyrətmək lazımdır. Çünki, uşaq kitabxanaları bu gün uşaqları təhsil, yara-

dıcılıq, təşkilati məsələlərə dair sənəd və biblioqrafik informasiyanın həm ənənəvi, həm də texniki vasitələrlə təmin edən bir mərkəzdir.

Uşaq mütaliəsinin təşkili özündə çoxaspektli, mürəkkəb, kompleks problemləri ehtiva edir. Bu problemləri həll etmək üçün onlara məqsədyönlü şəkildə, sistem nöqteyinəzərindən yanaşmaq lazımdır. Müasir kitabxanaşünaslığın yeni təzahür forması kimi sistemli yanaşma nöqteyinəzərindən uşaq mütaliəsinin təşkili əsasən aşağıdakı hallarda aparıla bilər:

- uşaqların intellektual, mədəni və psixoloji inkişafının göstəricisi kimi (diqqət, yaddaş, obrazlı və məntiqi təfəkkür, nitq və davranış mədəniyyəti və s.);
- uşaq tərbiyə sistemi (mənəvi, əxlaq, peşə, estetik və ideoloji);
- uşaqlarla işləyən kitabxanaların əsas funksiyaları kimi (elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə);
- uşaq oxucularının yaş kateqoriyası kimi (1 məktəbəqədər, 2. I-III sinif kiçik məktəbyaşlılar, 3. IV-VI sinif orta məktəbyaşlılar, 4.IX-XI böyük məktəbyaşlılar);
- kitabxanada iş forması kimi (əyani, şifahi, fərdi, kütləvi, yazılı və s);
- kitabxana şöbələrinin quruluşu kimi (abonement, oxu zalı, sərgi zalı, soraq-biblioqrafiya şöbəsi və s.);
- uşaq mütaliəsinə təsir göstərən digər müəssisələrlə qarşılıqlı fəaliyyət kimi.

Nəzəri materiallarda iş təcrübəsi ilə tanış olduğumuz ABŞ Bruklin uşaq kitabxanası, Çikaqo publisist kitabxanası, Solt Leyk publisist kitabxanasında uşaq mütaliəsinin təşkilində yuxarıda göstərilən müddəalar iş planının tərkib hissəsinə aid edilir. Bruklin uşaq kitabxanasında uşaqların oxucu qrupu yaşa görə fərqlidir. Uşaq oxucuları əsasən üç qrupa (2-7 yaş, 7-12 yaş, 12-17 yaş) bölünür.

Bu kitabxanaların iş təcrübəsində uşaq mütaliəsini təhlil edərkən uşaqların mədəni, intellektual və psixoloji inkişafına daha çox təsir göstərən ədəbiyyat növlərinə, janr və müəlliflərə xüsusi diqqət yetirmək lazımdır. Çünki uşaqlarda mənəvi aləmin formalaşmasında, şəxsi keyfiyyətlərin inkişaf etməsində bədii ədəbiyyatın, nağılların rolu xüsusilə yüksəkdir. Bruno Bettelheym özünün «Füzünkarliğin xeyri» kitabında uşaqların psixoloji inkişafı üçün nağılların nə dərəcədə əhəmiyyətli rola malik olduğunu qeyd edir: «Folklor uşaqlarda psixoloji diskomfort hissini uzaqlaşdırmağa kömək edir, onların fantaziyasına qida verir. Nağıllarda başqa ədəbiyyatlardan fərqli olaraq, uşaqların xarakterinin inkişafı üçün vacib nümunələr göstərilir» (3.s.17) Uşaq ədəbiyyatının mütaliəsi uşaqlarda biliyə həvəsin, müşahidəçiliyin və diqqətin inkişafına əsaslı təsir göstərir, dərketmə prosesini emosianal cəhətdən rəngarəng edir. Uşaqlara mütaliə etmək üçün ilk növbədə daha sadə ədəbiyyatı tövsiyə etmək zəruridir. Eyni zamanda uşaqlarla böyüklərin birgə mütaliə edəcəkləri kitablara da xüsusi diqqət yetirmək vacibdir. Uşaq mütaliəsini təşkil edərkən qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların və ibtidai sinif şagirdlərinin mədəni, intellektual və psixoloji inkişafı əsasən onların özünün inkişafa meyilli olması və ətraf aləmi tanımağa olan tələbatı ödəmək üçün oxunmuş kitablar haqqında söhbətlər, müsabiqələr, ədəbi oyunlar, mühazirələr və s. daxildir. Bruklin uşaq kitabxanasının hamisi Lyusil Tomas yazır: «Uşağın böyüməsində əsas məsələ, onda özünü müsbət qiymətləndirmənin inkişafıdır. Başqa sözlə uşaq özündə şəxsi mənlik hissinin inkişafına böyük ehtiyac duyur ki, bu da onun gələcəkdə xoşbəxtliyinə, effektli yaşamasına və işləməsinə səbəb olur. Özünü pis və köməksiz hiss edən uşaqlar böyüklərin tələblərinə uyğun olmaları və «mənsizlik» olmamaları kimi fikirlərdən əzab çəkirlər. Belə uşaqlar heç vaxt özlərində pozitiv, fərdi və mədəni keyfiyyətləri inkişaf edirə bilmirlər» (3.s.16).

Şübhəsiz ki, suallar və məsəllər sistemi əsasında yazılmış kitablar haqqında söhbətlər çox əhəmiyyətlidir. Belə

kitablar nəinki uşaqların yaddaş və diqqətin nə dərəcədə inkişaf etməsini müəyyənləşdirir, eyni zamanda əsərin ideyasını daha dərindən başa düşməyə, baş verən hadisələri öz təsəvvürləri ilə müqaisə etməyə və real qiymətləndirməyə imkan verir. Bunlardan əlavə söhbətlər zamanı uşağın lüğət bazası zənginləşir, nitqi formalaşır, mütaliə edilmiş ədəbiyyata öz münasibətini bildirir, məntiqi olaraq düşünür. Oxunmuş ədəbiyyatın mütaliədən dərhal sonra və bir neçə müddətdən sonra müqayisə edilməsi uşağın uzunmuddətli və qısamüddətli yaddaşını inkişaf etdirməyə kömək edir. Belə söhbətlərin sistemli olaraq aparılması ona gətirib çıxarır ki, edilən hər bir növbəti mütaliə daha yaradıcı və məqsədyönlü olur.

Kitabxananın ən mühüm funksiyalarından biri informasiya funksiyasıdır. Uşaq mütaliəsinin təşkilinə tətbiq edilən bu kitabxana funksiyasının reallaşmasının əsas istiqaməti uşaqların kitablarla işləməsi üçün rahat, lazımi şəraitin yaradılmasıdır. Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların psixologiyasının inkişafına daha çox rəngarəng, qeyri-adi faktlar və onlara əvvəllər məlum olmayan biliklər güclü təsir göstərir. Uşaqlarda mütaliəyə olan marağın inkişaf etməsi üçün müasir nəşriyyatlar kitabxanaçıların qarşısında geniş imkanlar açır. Əsas şərt odur ki, belə nəşrlər kitabxanaların fondlarında özünə yer tapsın və sərgilərdə nümayiş etdirilsin. Bu kitablarla tanışlıq uşaqların qavrayışını, təxəyyül və yaddaşını inkişaf etdirir. Uşaqlarla işləyərkən onların müxtəlif tipli və janrlı ədəbiyyata olan marağını qoruyub saxlamaq və inkişaf etdirmək zəruridir. Bunu əyani təbliğatın, kitab-illüstrasiya sərgilərinin, tövsiyə siyahılarının köməyi ilə həyata keçirmək olar. Uşaqlarla kitabxana işinin əsas xüsusiyyətlərindən biri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə əsaslanan əyani təbliğatdır. Əyani təbliğatdan məqsədyönlü şəkildə istifadə olunması uşaq kitabxanasında ənənəvi funksiyaların reallaşmasını tələb edir. Bunlardan əksəriyyəti yeni texniki vasitə və imkanların yaradılması ilə



əlaqədar yeni inkişaf istiqamətləri və ciddi dəyişikliklərə uğramışdır. Bu üstün cəhət uşaq kitabxanalarının təhsil, tərbiyə və informasiya funksiyalarının həllində əyani təbliğatdan istifadə etməyin səmərəliliyini əsaslandırmağa və aşkara çaxarmağa imkan verir. Məhz buna görə də uşaq kitabxanalarında əyani təbliğatdan istifadə bütövlükdə uşaqlarda kitabxana işinin effektivliyini təmin etməyə yönəlmiş səylərin əsasını təşkil edir.

Uşaq kitabxanalarında əyani təbliğatdan istifadə müasir dövrdə xüsusilə aktuallıq kəsb edir. Bu iş kitabxanalarda sistemli şəkildə aparılmalıdır. Çünki, sistemli yanaşma əyani təbliğatın tətbiqinin səmərəliliyinin nəzəri əsasını təşkil edir. Uşağa əyani vasitələrlə yanaşmaqla biz onlara olan münasibəti daha səmərəli edirik, onlara bir şəxsiyyət kimi hörmət göstəririk. Nəticədə mütaliə prosesi zamanı oxunan ədəbiyyatın emosional, estetik tərbiyəvi xüsusiyyəti oxucuya daha çox təsir edir. Qeyd edək ki, uşaq kitabxanalarında əyani təbliğatdan istifadə uşaqlarda obrazlı təfəkkürün inkişafına və mütaliə prosesinə estetik yanaşmaya əsaslı təsir göstərir.

Müasir dövrdə əksər uşaqlar virtual vasitələrdən istifadə etməklə informasiya əldə edə bilirlər. Hətta son zamanlar kitabxanalarda kompüter texnologiyasına əsaslanaraq fəaliyyət göstərən şöbələr daha çox üstünlük qazanırlar. Sözsüz ki, kompüterlə gündəlik iş uşaqlara informasiya əldə etməyin spesfik metodlarını öyrənir. Lakin, bu halda uşaq mütaliəsi dərin biliklərin qazanılmasına əsaslanmır. Buna görə də kitabxanaların əsas vəzifəsi uşaqları ənənəvi mütaliə üsullarına yönəltməyə istiqamətləndirib. Kitabxanalar mədəniyyət instinktinin etibarlı saxlanması üçün uşaqları ənənəvi mütaliəyə qaytara bilər. Çünki, məhz mütaliə uşaqların əldə etdikləri biliklərin uzun müddət hafizədə qalması üçün ən etibarlı vasitədir. Eyni zamanda uşaqlara çap əsərlərinin elektron versiyalarından istifadənin təşkili problemi və bu tipli mütaliə mədəniyyətinin formalaşması problemi həllinə

ciddi ehtiyac duyulan problemlərdir. Bu problemlər mütəxəssislərdən xüsusi tədqiqatların aparılmasını tələb edir.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Bakı Universiteti Xəbərləri. Humanitar elmlər seriyası.-2004.-№.3.-S.316.326.*

*2. Xələfov A.A.,Əhmədov E.Y. Məktəb kitabxanaları Azərbaycanın müstəqilliyi şəraitində // Kitabxanaşünaslıq və biblioqrafiya.-2004.-№1. s.3-14.*

*3. Əhmədov E.Y. ABŞ və Rusiya kitabxanalarının iş təcrübəsində uşaq mütaliəsi.-B., Bakı Universiteti Nəşriyyatı, 2005-50 s.*

*4. Xələfov A.A., Mehdiyeva N. Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamtləri // Kitabxanaşünaslıq və biblioqrafiya.-2005.-№1.-S.3-10.*

***Эльчин Ахмедов***
***Асмер Гусейнова***

## ГЛОБАЛЬНЫЕ ИНФОРМАЦИОННОЕ ПРОСТРАНСТВО НОВЫЕ ПРОЯВЛЕНИЯ ЧТЕНИЯ В СОВРЕМЕННОМ БИБЛИОТЕКОВЕДЕНИИ

### *РЕЗЮМЕ*

*В статье анализируется проблема чтениях в глобальным информационном пространстве. Здесь так же рассмотривано проблемы возникающие перед детским чтением в виртуальной среде, определяются пути решения этой проблемы.*

*Əli RÜSTƏMOV*
***Dosent***
*Nuriyyə MUSTAFAYEVA*
***Mühəndis***

## RESPUBLİKA KİTABXANALARINDA ƏSAS PROSESLƏRİN AVTOMATLAŞDIRILMASI

Kitabxana proseslərinin avtomatlaşdırılmasını daxili və xarici proseslərə ayırmaq olar. Daxili proseslər dedikdə kitabxanalarda ümumi halda texnoloji və idarəetmə prosesləri və əməliyyatları başa düşülür. Buraya komplektləşdirmə, kitabişləmə, fondun mühafizəsi, biblioqrafik proseslər, xidmət, statistika, iqtisadi təhlil, mühasibat uçotu, marketinq fəaliyyəti və bunlarla bağlı olan yüzlərlə əməliyyatlar daxildir. 80-ci illərə qədərki dövrdə deyilən proseslərin və onlara aid əməliyyatarın kompleks halda avtomatlaşdırılması nəticəsində bir sıra avtonom kitabxana-informasiya sistemləri yaradılmışdı. İndiki İRBİS sisteminin sələfi olan AS QPNTB-2, AS-QBL (Lenin adına SSRİ Dövlət Kitabxanasının avtomatlaşdırılmış sistemi), AS «Biblioqrafiya» (SSRİ Dövlət Kitab Palatasının avtomatlaşdırılmış sistemi) deyilən sistemlərə misal ola bilər [1]. Belə sistemlər bəzi elmi əsərlərdə inteqral avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri də adlandırılır [2]. Azərbaycan kitabxanalarının daxili proseslərini avtomatlaşdırmaq üçün hazırda İRBİS (Rusiya regional inteqral kitabxana-informasiya ststemi) və Respublika Milli Kitabxanasında ABŞ-ın VTLS (Virginiya Texnikal Library System) korporasiyasının eyni adlı sistemi (VTLS) tətbiq edilir. Hər iki sistem lokal şəbəkə arxitekturuna, çoxlu AİY-lərə, müvafiq olaraq SDS/ISIS və Oracle 7 məlumat bazasının idarəetmə sisteminə malikdir.

İRBİS sistemi MDB ölkələrinin bütün tip kitabxanalarında tətbiq edilmişdir. 2002-ci ilə qədər bu sistemin üç nəsli, versiyası olmuşdur. Həmin ildən başlayaraq siste-

min dördüncü nəsli yəni, İRBİS 6.4 işlənməyə başlamışdır. 2004-cü ildə həmin versiyanın sənaye istismarına başlanmışdır. Bu versiya Azərbaycan kitabxanalarına alınaraq tətbiq edilməkdədir. Əvvəllər İRBİS 32 versiyası tətbiq edilmişdir. Bu sistemə nisbətən yeni versiyanın (İRBİS 64) bir sıra üstünlükləri vardır [3]. Əvvəlki versiyalara nisbətən İRBİS 64-ün texniki və ümumsistem xarakterli oxşarlıqları və fərqləri aşağıdakılardır:

1) hər iki versiyada aşağıdakı AİY-lər vardır: «Komplektləşdirici», «Kataloqlaşdırıcı, «Kitab verilişi», «Oxucu» və «Adminstrator». Bunlarla yanaşı, İRBİS 64-də «Oxucu» AİY-sində məlumat bazasına müraciət üçün veb-şlyüz, «Kataloqlaşdırıcı» AİY-sində isə tam mətnli məlumat bazasına onlayn rejimində müraciət üçün modul işlənib tətbiq edilmişdir.

2) Məlumat bazasının fiziki strukturunda həmin bazanın tutumuna, yazının və axtarış terminlərinin uzunluğuna və s. dair kəmiyyət məhdudiyyətləri aradan qaldırılmışdır. Yeni versiyada terminin işarə uzunluğu 30-dan 255 bayta, yazı uzunluğu 23 Kb-dan 2 Qb-a, məlumat bazasında yazıların miqdarı 16-mln-dan 8 mlr-da çatdırılmışdır. Hər iki versiya məlumat bazası UNİCODE (UNF-8) standartında mühafizə olunur.

3) əvvəlki versiya (İRBİS 32) fayl serveri, son versiya isə klient-server arxitekturasında qurulmuşdur. Burada əsas cəhət əvvəlki arxitekturanın mənfi cəhətləri ilə deyil, klient-server platformasının son illərdə geniş yayılması ilə bağlıdır.

4) hər iki versiyada təsnifləşdirmə avtomatik olaraq icra edilir. Bu istiqamətdə İRBİS 64-də əsas yenilik mətnin məzmun təhlili imkanlarını nəzərə almaqla, tammətnli məlumat bazasının dəstəklənməsidir.

5) İRBİS 64-ün əsas prinsipi kimi həm istifadəçi funksiyaları səviyyəsində, həm də məlumat bazalarının məzmun səviyyəsində İRBİS 32 ilə sələflik saxlanılmışdır. Belə sələflik sistemin əsas ideyasının və informasiya-texnoloji



təminatını saxlamaq deməkdir, yəni məlumat elementlərinin tərkibi və strukturu, daxiletmənin elektron forması, məlumatın təqdimatının çıxış formatları, formal-məntiqi nəzarət alqoritmi və s. dəyişməz qalmışdır. Bu isə öz növbəsində sistemdəki məlumatın monipulyasiyasının əsas dilinin, yəni İRBİS-in formatlaşdırma dilinin sabit saxlanması deməkdir.

İRBİS sisteminin inkişafının əsas istiqaməti kimi 2005-ci ildən mətnin təsnifatı və məna təhlili təmin edilməklə, tammətnli məlumat bazasının dəstəklənməsi problemi işlənmiş və sistemi alan bütün kitabxanalara tətbiq üçün verilmişdir. Bu problem İRBİS-i işləyənlər üçün hazırda əsas, baza konsepsiyası hesab edilir.

Deyildiyi kimi, İRBİS-in əvvəlki versiyalarının da, İRBİS 64 –ün də əsasən beş avtomatlaşdırılmış işçi yeri (AİY) vardır. Bunlardan hələlik respublikanın müxtəlif tip kitabxanalarında tətbiq olunan «Kataloqlaşdırıcı» AİY-dir. Buna görə də bu AİY barədə bir qədər ətraflı danışmalıyıq. «Kataloqlaşdırıcı» AİY-in əsas funksiyası axtarış kataloqunun yaradılması və onun vasitəsilə informasiya təminatının təşkilindən ibarətdir. Bu AİY-in interfeysi üç əsas işçi bölmədən ibarətdir:

1) Axtarış (Poisk)
2) Baxış/Çıxış (Posmotr/Vıxod)
3) Daxiletmə (Vvod)

Hər bir bölmə adına uyğun funksiyaları yerinə yetirir

**Daxiletmə** işçi bölməsi cari daxil olan sənədlərin biblioqrafik yazılarının maşınlaoxunan format əsasında elektron kataloqa əlavə edilməsi, redaktəsi, kataloq kartoçkası formasında çapı, dubletliyin yoxlanması və s. prosesləri təmin edir. Daxiletmə üç altbölmədən (hissədən) ibarətdir:

1) sənədlərin daxili unikal nömrələrinin məlumat bazası (Baza dannıx/MFN);
2) axtarışın nəticələri (Rezultatı poiska);
3) qeydiyyatdan keçənlər (Otmeçennıe)

Sənədlərin daxili universal nömrələrinin məlumat bazası kitabxanaya daxil olmuş yeni sənədlərin universal nömrələrinin sistemə daxil edilməsini, bu nömrələrə uyğun olaraq seçilməsini, elektron kataloqun redaktəsini və çapın ləğv edilməsini təmin edir. İşçi vərəqin daxiletmə sahəsində biblioqrafik yazının elementləri standartla [4] müəyyən edilmiş ardıcıllıqla yazılır. Məlumat bazasında əlaqədar biblioqrafik yazı tipinin (məs: monoqrafik, analitik təsvir və s.) seçilməsindən asılı olaraq sistem müxtəlif daxiletmə ssenarisi təqdim edir.

Yeni daxil olmuş sənədlərin biblioqrafik məlumatlarını məlumat bazasına daxil etmək üçün məlumat bazasının **Daxiletmə** (Vvod) işçi bölməsini açırıq və burada **Yeni** (Noвıy) düyməsini sıxırıq (şəkil 2), sonra biblioqrafik yazı sahələrinə uyğun olan elementləri işçi vərəqin **Parametr** sahəsinə daxil edirik. Əgər daxil edilmiş biblioqrafik yazı tipi biblioqrafik yazı qaydalarına uyğun deyilsə, səhv barədə dialoq pəncərəsi açılır. Əgər edilmiş səhv düzəldilməsə, biblioqrafik yazının növbəti sahələrini daxil etmək prosesi avtomatik oalraq dayanır.

Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasında sənədlər müəyyən nömrə ardıcıllığı ilə fondda mühafizə olunur. Buna görə də yeni daxil olmuş sənədin biblioqrafik məlumatlarının məlumat bazasına daxil edilməsi zamanı hər bir sənədə MFN adlanan daxili unikal nömrə verilir. Bu üsulla həm də istənilən sənədin biblioqrafik yazılarını və əlaqədar sənəddə edilmiş redaktə işlərini yaddaşda saxlamaq üçün eyni adlı əmrdən (Soxranitğ) istifadə edilir. Əgər cari sənədin biblioqrafik təsvirini kataloq kartotekası formasında çap etmək lazımdırsa **Kataloq kartotekası kimi çap** (Peçatğ kak kk) düyməsini sıxmaq və açılan növbəti pəncərədə kartın (əsas, əlavə, sistemli kataloq kartoçkası və s.) tipini müəyyən edib, çap düyməsini sıxmaq lazımdır.

**Əlavə etmək** (Dobavitğ) yaradılmış işçi vərəqdə olmayan məlumat elementlərinin biblioqrafik yazıya daxil edilməsi, **Təmizləmək** (Oçistitğ) cari sənədin məlumat bazasından çıxarılması, **Ləğv etmək** (Otmenitğ) ləğv edilmiş biblioqrafik yazının bərpa edilməsi üçün istifadə edilən düymələrdir. Ləğv etmək (Otmenitğ) sətrindən sonra verilmiş piktoqram cari sənədin surətinin müəyyən məlumat bazasına köçürməyi təmin edir.

Axtarış nəticələri (Rezulğtatı poiska) adlı dialoq pəncərəsi sorğulara uyğun olaraq tapılan sənədləri ekrana çıxarmaq üçündür. İstifadəçinin sorğusu **Sorğu** (Zapros) sahəsinə qeyd edilir və açılan siyahıda yerinə yetirilir.

İRBİS sisteminin **Kataloqlaşdırıcı** (Kataloqizator) AİY-nin əsas texnoloji funksiyaları yuxarıda deyilənlərdən ibarətdir. İndi bu AİY-in respublika səviyyəli bəzi kitabxanalarda və iri müəssisə kitabxanalarında tətbiqinin əsas nəticələrinə baxaq. Əvvəlcə qeyd etməliyik ki, **Kataloqlaşdırıcı** (Kataloqizator) AİY-i əsasən elektron kataloqun yaradılması, dəstəklənməsi, idarə edilməsi və şəbəkə rejimində uzaq məsafədən ona müraciəti təmin etmək üçündür. Bu sahədə aparıcı yeri BDU-nun Elmi Kitabxanası tutduğundan ilk olaraq əlaqədar sahədə həmin kitabxananın fəaliyyətindən danışaq.

Bu kitabxanada elektron kataloqun yaradılması istiqamətində ilk addım QOST 7.1.84-dən maşınla oxunan yazı qaydalarını beynəlxalq miqyasda tətbiq etməyə imkan verən ISBD 2107 standartına keçmək olmuşdur. Burada ilk növbədə UNİMARC (Beynəlxalq MARC) formatından söhbət gedir. Əvvəlcə həmin formatda biblioqrafik təsvirin kitab tipli nəşrlər üçün qaydalar öyrənilmişdir. Bununla paralel olaraq bəzi dərslik və dərs vəsaitlərinin elektron formaya konversiyası həyata keçirilməyə başlamışdır . Məsələn, 2002-ci ildə "Atom fizikası", "Azərbaycanın fiziki coğrafiyası", "Diplomatiya terminləri lüğəti", "Diskret riyaziyyat" və bir sıra digər kitablar buna misal ola bilər. Bütün bu elektron informasiya fondu disklərə yazılmış və kitabxa-

nanın serverində yerləşdirilərək İnternet şəbəkəsində istifadəyə verilmişdir.

Elmi kitabxanada aparılan təcrübi-elmi tədqiqatların vacib hissələrindən biri elektron dövri mətbuat kataloqunun yaradılmasıdır. Azərbaycanda nəşr edilən qəzetlərdən 150 addasının İnternetdə saytı vardır. Həmçinin MDB ölkələrində 300-dən artıq əsas dövlət qəzetlərinin saytları əsasında elektron dövri mətbuat kataloqu (metabazası) yaradılmışdır. Bu kataloq vasitəsilə Azərbaycanın və digər MDB dövlətlərinin qəzetləri istifadə edilə bilər. Kataloq veb texnologiyası əsasında yaradılmışdır. Bu kataloq əsasında Azərbaycan dövri mətuatının elektron sənəd fondu təşkil edilmişdir. Fond İnternet şəbəkəsi vasitəsilə ölkədə və xarici ölkələrdə yaşayan və işləyən soydaşlarımız və digər əlaqədar şəxslər tərəfindən sərbəst istifadə edilə bilər.

Milli dildə və xarici dillərdə nəşr edilmiş və elmi kitabxanaya daxil olmuş kitabların elektron kataloqu 2002-ci ildən işlənməyə başlamışdır. Bu iş indi də davam edir. Birinci göstərilən kataloqda; UOT-a, müəlliflərə, sərlövhəyə, nəşriyyata, nəşr yerinə, nəşr ilinə və s. elementlərə, ikinci göstərilən kataloqda (Opac.-MARC, Şəkil 4) isə yenə də deyilən biblioqrafik elementlər üzrə MARC-SQL sistemi*) əsasında axtarış aparıla bilər.

Deyilən elektron kataloqların yaradılması üçün UNİMARC formatına dair normativ sənədlər, metodiki göstərişlər, təsvir qayda ları və s. öyrənilmiş, ABŞ səfirliyinin Treninq mərkəzi (URTCL) ilə müntəzəm müzakirələr aparılmış və birgə seminarlar keçirilmişdir. Elektron kataloqun tərtibi təcrübələrini və formatla işləməyin təcrübi metodikasını öyrənmək üçün Rusiya, Gürcüstan, Fransa və Baltikayanı ölkələrin təcrübələri öyrənilmişdir.

---

*) MARC-SQL avtomatlaşdırılmış kitabxana-informasiya sistemi Rusiyanın İnform-system firması tərəfindən işlənmişdir. BDU-nun Elmi Kitabxanası 2001-2003-cü illərdə bu sistemi qismən tətbiq etmişdir.



Elmi Kitabxana UNİMARC formatının bütün Azərbaycan kitabxanaları üçün yeni olmasını nəzərə alaraq onun tam mətnini rus dilindən milli dilə tərcümə etmişdir. Maliyyə çətinliyinə görə bu tərcümə nəşr edilməmişdir. Buna görə də qısa və sadə dildə 100 səhifə həcmində «Kitab və dissertasiyalar üçün UNİMARC formatında təsvir qaydaları» adlı metodiki vəsait hazırlanmış və işçi sənədi kimi çoxaldılmışdır [5, S.14-15]. Metodiki vəsaitdə kitabxana proseslərində ən çox istifadə olunan kitab, dissertasiya və dövri mətbuatın kataloqlaşdırılması üçün tələb olunan formatın sahələri və məzmunu izah edilmişdir. Burada həmçinin maşınlaoxunan yazının strukturu, formatın blokları, sahələri, altsahələri, indikatorları haqqında dolğun məlumat verilmişdir. Milli identifikasiya blokuna (9-cu blok) Azərbaycan kitabxana proseslərinə uyğun olaraq ilk dəfə aşağıdakı elementlər əlavə edilmişdir.

Cədvəl 1

| Sahə | Altsahə | Təyinatı |
|---|---|---|
| 900 | a | Makroobyektlər |
| 990 | - | Sifariş haqqında məlumatlar |
| 990 | a | Sifariş müəllifi |
| 990 | b | Sifariş olunub |
| 990 | d | Həyata keçirilmə tarixi |
| 990 | f | Daxilolma tarixi |
| 990 | g | Sifarişin yerləşdirilməsi |
| 990 | j | Kəmiyyət |

Metodiki vəsaitdə bir sıra sahələrin AKİS-lər tərəfindən yaradılma mexanizmi də izah edilmişdir. Məsələn, yazı markeri:

100-ümumi işlənmə sahəsi

105- kodlaşdırılmış məlumatlar sahəsi

Metodiki vəsaitin II fəsli dissertasiya və dövri məlumatın UNİMARC-la kataloqlaşdırılmasına həsr edilmişdir.

Burada da həmin növ sənədlər üçün tələb olunan sahələr, altsahələr izah edilmiş və göstərilmişdir.

Dövri mətbuatın kataloqlaşdırılması zamanı dünya təcrübələrində az təsadüf edilən unikal bir qayda da tətbiq edilmişdir: hər bir jurnalın mündərəcatı da elektron kataloqa daxil edilmişdir. Bu isə istifadəçilərə axtarış zamanı daha dolğun informasiya əldə etməyə imkan verir.

Metodiki vəsaitin əlavələrində bir sıra kodlaşdırılmış informasiya, o cümlədən, ölkələrin, dillərin və s. kodları verilmişdir.

BDU-da yaradılan elektron kataloq təbiət və texniki elmlər zalındadır. Bu kataloqda biblioqrafik yazılar UOT-a görə sistemləşdirilmiş və ISBD qaydalarına görə rəf indeksləri əsasında yerləşdirilmişdir. Elektron kataloqun informasiya bazası MARC-SQL AKİS-inin «Kataloqlaşdırıcı» AİY-də yaradılmışdır. İnformaiya bazası BDU-nun kompüter mərkəzində kitabxana üçün ayrılmış serverdə yerləşdirilmiş və informasiyanın təhlükəsizliyi üçün tədbirlər görülmüşdür (kənar şəxslərin icazəsiz istifadəsinə nəzarət, virusa qarşı mübarizə, güzgülü inikas prinsipi ilə avtomatik ehtiyat surətinin alınması, texniki avadanlıqlara müntəzəm diaqnostika, proflaktika və s.)

Elektron kataloqun fəaliyyəti üçsəviyyəli klient-server arxitekturasına əsaslanır.

Klient səviyyəsi kimi AİY, veb-brauzer (İnternet Explorer, Netscape Navriqator, Opera və s.), server səviyyəsi kimi server əlavəsi, veb-server və s. məlumat bazası götürülür. AİY kimi MARC-SQL AKİS-inin «Kataloqlaşdırıcı» işçi yeri çıxış edir. Veb-brauzer vasitəsilə oxucu öz sorğusunu formalaşdırır və yerinə yetirmək üçün serverə göndərir. Server bu məlumatı təhlil edərək server əlavəsinə ötürür. Server əlavəsi göndərilmiş məlumat əsasında məlumat bazası serverdə axtarış apararaq nəticəni brauzerin qəbul etdiyi formata çevirib veb-serverə, o, isə öz növbəsində oxucunun tanış olması üçün veb-brauzerə göndərir.



Server əlavəsi elektron kataloqun axtarış aparatının fəaliyyətini, informasiyanın təhlükəsizliyini təmin edir.

Server əlavəsi CGI texnologiyası tətbiq edilməklə yaradılmışdır. Bu texnologiyanın əsas üstünlüyü onun proqramm təminatından asılı olmamasıdır. İstənilən versiyalı brauzerlər bu texnologiyanı qəbul edir. Lakin CGI texnologiyası kompüterin sistem resurslarına çox tələbkardır. CGI tipli server əlavəsi kompilyasiya edilmiş proqram müddəalarından ·exe genişləndirilməsinə malik OPAC *server ·exe* faylından ibarətdir.

Məlumat bazası əsasən USMARC formatında*) hazırlanan, bir dəfə təyin edilən, sonra kitabxanaçılar və oxucular tərəfindən eyni zamanda istifadə edilə bilən biblioqrafik yazıların toplusundan ibarətdir. Biblioqrafik yazıları hazırlamaq üçün sahələrin kodları və məlumat bazasında təyinatı deyilən elmi-tədqiqat laboratoriyasının 2005-ci il hesabatında geniş təsvir edilmişdir. Məsələn:

**001-yazı indentifikasiyası.** Sahə hər bir yazı üçün mütləqdir və yazının vahid bir qiymətini təyin edən simvolları əks etdirir. Yazı indentifikatoru olaraq istənilən beynəlxalq kod nömərələrindən (ISBN, ISSN, Milli biblioqrafiya nömrəsi) istifadə edilə bilər.

**020-ISBN** ($ a altsahəsində ISBN nömrəsi, $ e altsahəsində kitabın qiyməti, $ d altsahəsində isə pul vahidi yazılır)

**080-UOT indeksi**

100 müəllif, 700-digər müəlliflər; və s.

«Kitabxana işinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasının mühüm işlərindən biri də mərhum prezidentimiz, görkəmli dövlət xadimi, ümummilli liderimiz H.Ə.Əliyevin 80 illik yubileyi münasibətilə «Heydər Əliyev 80» biblioqrafik məlumat kitabının hazırlanmasıdır. Bu kitabın elektron variantı laboratoriyanın elmi işçiləri

---

*) Бу формат UNIMARC –la əksər sahə və altsahə baxımından uyğunluq təşkil edir.

tərəfindən hazırlanmış və BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof. A.M.Məhərrəmovun redaktəsilə buraxılmışdır. Həmin laboratoriyada dizayn tərtibatı ilə verilən soraq-məlumat nəşrinin üç dildə (Azərbaycan, rus, ingilis) CD diski hazırlanaraq BDU-nun rektoruna təqdim edilmişdir. Diskdən istifadə edən istifadəçilər lazımi məlumatı kitabın mündərəcatı vasitəsilə, nəşr illəri və əlifba qaydası üzrə əldə edə bilərlər.

Disk müasir Veb texnologiyaları-HTML və Visual Basic Script dillərindən istifadə etməklə hazırlanmışdır. Bu cür texnologiya elektron diski gələcəkdə internetdə yerləşdirilməyə imkan verir. Növbəti hesabat ilində (2007) laboratoriyanın əməkdaşları həmin diski internetdə yerləşməyi qarşıya məqsəd qoymuşlar.

Elektron disk aşağıdakı prinsip üzrə işləyir:

1. Disk CD-oxu qurğusuna yerləşdikdə avtomatik olaraq elektron kitabın titul səhifəsi ekranda görünür.

2. İstifadəçi kursoru titul səhifəsinin üzərinə qoyub, siçanın sol düyməsini sıxdıqda elektron kitab açılır.

3. İstifadəçi mündərəcat vasitəsilə konkret paraqraflara baxa bilər. Bunun üçün siçanın sol düyməsini paraqrafın üstünə gətirmək lazımdır. Həmçinin yuxarı paneldə yerləşən əlifba və illər avrdıcıllığı seçməklə konkret ilə görə axtarış aparmaq olar.

4. Video-isnadı seçdikdə isə istifadəçilər H.Əliyevin Prezident kimi ildəki andiçmə mərasiminə və «Əsrin müqaviləsinin» ilk neftin hasil olmasına həsr olunmuş videorolik parçasına baxa bilərlər.

Elektron kitabın hazırlanması çağdaş və gələcək nəsillər üçün böyük əhəmiyyət kəsb edir. H.Əliyev irsi ilə tanış olmaq istəyən hər bir şəxs üçün bu kitab şübhəsiz ki, etibarlı bələdçi rolunu oynaya bilər.

Kitabxanaların daxili proseslərinin avtomatlaşdırılması baxımından nisbətən qabaqcıl mövqe tutan kitabxanalardan biri də AMEA-nın Mərkəzi Elmi Kitabxanasıdır. Bu



kitabxanada «Kitabxana işinin avtomatlaşdırılması» şöbəsi 2002-ci ildən yaradılmış 2003-cü ildən İRBİS-in tətbiqi ilə məşğul olmağa başlamışdır.

İlk növbədə 1990-2003-cü illəri əhatə edən tematik məlumat bazaları yaradılmışdır [6]. Bunlardan «H.Əliyev şəxsiyyəti Rusiya mətbuatında», «Azərbaycan iqtisadiyyatı», «Bakı-Tbilisi-Ceyhan», «Qarabağ müharibəsi», «Azərbaycanda seçkilər», «İlham Əliyev» və s. Şöbə həmçinin insan hüquqlarına dair informasiya ehtiyyatları əsasında məlumat bazası yaranmışdır, atom enerjisi üzrə Beynəlxalq Agentliyin 17 istiqamət üzrə CD-ROM nəşrini komplektləşdirmişdir.

«Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi avtomatlaşdırma ilə bağlı biliklərin təbliğinə dair işlərdə respublika kitabxanaları arasında yeganə kitabxanadır. Bu istiqamətdə icmallardan, sərgilərdən, biblioqrafik siyahılardan istifadə olunur.

Məsələn, 2003-cü ildə «Beynəlxalq nüvə infomrasiya sistemi nədir», «Avtomatlaşdırmanın əsas prinsipləri», «Kitabxana konsorsumu nə deməkdir», «Fandrayzinq və biz», «Yeni əsr kitabxanaları necə görmək istəyir» adlı sərgi və icmalları göstərmək olar.

Şöbə digər şöbələrlə, xüsusilə biblioqrafiya şöbəsilə birlkdə «Zərifə Əliyeva» adlı biblioqrafik göstərici, «AMEA MEK-ə daxil olmuş yeni ədəbiyyat» (rüblər üzrə, informasiya bülletenini, bir sıra tədbirlərin dəvətnamə və proqramlarını hazırlamış, eləcə də kitabxananın elmi əsərlərini və lazım olan uçot sənədlərini çap etdirmişdir [6].

AMEA MEK tətbiq edilmiş bəzi müasir avtomatlaşdırılmış kitabxana-infomrasiya sistemlərini təcrübi olaraq öyrənmək üçün Baltikyanı ölkələrə, Gürcüstana, Rusiyaya ezamiyyətlər təşkil etmişdir. Bu ölkələrdə ALEPH, VTLS, Liber MEDIA, IRBIS və s. sistemlər öyrənilmişdir. Öz sadəliyinə, ucuzluğuna, MDB kitabxanalarında geniş tətbiqi-

nə görə İRBİS sistemi seçilmiş və 2004-cü ildə aşağıdakı komplektdə alınmışdır:

IRBIS-in beş AİY-si (Komplktləşdirici, Kataloqlaşdırıcı, Oxucu və s.), mini IRBIS, www server, Z35.50 protokolu ilə işləməyə imkan verən modul, Z39.50 -nin qiymətі 2800 dollar, www server 1800 dollardır.

İlk növbədə «Kataloqlaşdırıcı» AİY-i tətbiq edilməyə başlamışdır. 2004-cü ildə sistem təcrübi baxımdan öyrənilmiş və 2005-ci ildən AİY tətbiq edilməyə başlanmışdır. Əsasən UNİMARC formatında milli elmi kitabların maşınlaoxunan kataloqu formalaşdırılır.

IRBIS-in deyilən AİY-sinin tətbiqi nəticəsində 2005-ci ildə yeni daxil olmuş ədəbiyyatın və retronəşrlərin bir qisminin maşınlaoxunan kataloqu və respublikada ilk dəfə «Neft ədəbiyatının elektron kitabxanası» yaradılmşıdır.

M.F.Axundov adına Milli Kitabxana respublikada fəaliyyət göstərən humanitar təşkilatların və neyt kompaniyalarının maliyyə dəstəyi ilə müasir kompüter və telerabitə vasitələrilə təchiz edilmişdir. Kitabxana avtomatlaşdırma texnologiyalarının tətbiqi baxımından çox geniş və qlobal başlanğıca malikdir. Belə ki, kitabxanaya çox bahalı (180 min dollar) olan ABŞ-ın VTLS sistemi alınmış, geniş İnternet-zal yaradılmış, yüksək sürətlə və geniş şəkildə cari ədəbiyyatın elektron kataloqu yaradılır.

VTLS sistemi 180-a qədər AİY-i olan çox mürəkkəb kitabxana-infomrasiya sistemidir. Onun tam şəkildə tətbiq etmək üçün Ən azı lokal şəbəkə arxitekturasında şəkildə birləşdirilmiş 150 güclü kompüter, serveri idarə etmək üçün xüsusi kompüter (superkompüter) olmalıdır.

İlk növbədə «Kalaloqlaşdırma» AİY tətbiq edilir, sistemin 5 Mb-lıq təlimat və digər mətn materialları ingilis dilindən milli dilə tərcümə edilmişdir. Milli kitabxanada arxiv şöbəsinin materialları əsasında «Azərabycan kitabı» məlumat bazası yaradılmağa başlamışdır. Buraya monoqrafiyalar, avtoreferatlar, not-musiqi nəşrləri və s. növ sənədlər daxildir. 2005-ci ilin sonlarında həmin məlumat bazasına 4773 adda ədəbiyyat daxil edilmişdir.

Milli kitabxana 2004-cü ildən İ.Qutenberq layihəsi çərçivəsində 55 adda qiymətli kitabın kompüter yaddaşına köçürül-əsilə məşğul olmuşdur. Bu nəşrlər də gələcəkdə elektron kitab-xananın tərkibinə daxil ediləcəkdir.

Yuxarıda deyilənlərdən görünür ki, Azərbaycanın respublika səviyyəli bəzi kitabxanaları avtomatlaşdırma texnologiyaları sahəsində xeyli nəticələr əldə etmişlər. Bir çox kitabxanalarda da bu işə başlanmışdır.

Respublikanın bir sıra iri kitabxanalarında və mərkəzləşdirilmiş kitabxana sistemlərində (MKS) internet xidməti bölmələri yaradılmışdır. Bu bölmələr vasitəsilə məsafədən müraciət rejimində informasiya axtarışı aparılır, elektron poçt xidmətindən, qismən sənədin elektron göndəriş sistemindən istifadə edilir.

## ƏDƏBİYYAT


1. *Комплексные автоматизированные библиотечно-информационные системы, крупных библиотек СССР. Сборн.статей.- М., 1986.-235 с.*

2. *Черный А.И. Интегральные информационные системы: современные состояние и перспективы развития.- М., 1986.-142 с.*

3. *Бродовский А.М., Сбойчиков К.О. Новое поколение автоматизации библиотек ИРБИС-ИРБИС 64 от электронного каталога к полнотекстовым БД// Науч. и техн. библиотеки.- 2005.-№ 7.-С. 107-110.*

4. *ГОСТ 7.83. 2001 Библиографическое описание электронных ресурсов. Общие требования и правила составления. Введ. 01.01.2002.-М.2001.-21 с.*

5. *Руководство по применению коммуникативного формата UNIMARC. Y. c – 4, -М., 1992.*

6. *AMEA MEK-in kitabxana proseslərinin avtomat-laşdırılması şöbəsinin 2003-cü il hesabatı.-43 s.*

7. *M.F.Axundov adına Respublika Milli Kitabxanası-nın 2005-ci il hesabatı.-125 s.*

**Али Рустамов**
**Нурия Мустафаева**

## АВТОМАТИЗАЦИЯ ОСНОВНЫХ ПРОЦЕССОВ БИБЛИОТЕК РЕСПУБЛИКИ

### *РЕЗЮМЕ*

*В статье излагаеться автоматизированная технология каталогизации некоторых библиотек Азербайджанской Республики на основе применения «ИРБИС-64» ГПНТБ России. Раскрывается структура национального блока UNЫMARC. Особое внимание удалено практический деятельности библиотек в области создания сетевого электронного каталога.*

*Sənubər MUSTAFAYEVA*
*Baş müəllim*

# SƏNƏDLƏRİN BİBLİOQRAFİK TƏSVİRİNDƏ MÜASİR TƏSVİR QAYDALARININ TƏTBİQİ (II MƏQALƏ)

Qeyd etmək lazımdır ki, biblioqrafik təsvirin tərtibi metodikası ilə məşğul olan hər bir şəxs bilir ki, 7.1-84 standartı biblioqrafik təsvirə dair standartların üçüncü nəslinə aiddir (7.1-69; 7.1-76; 7.1-84) və bu standart uzunömürlü olaraq 20 ilə yaxın bir dövr ərzində Rusiyanın və eləcə də Azərbaycanın kitabxanalarında tətbiq edilmişdir. QOST 7.1-69 «Biblioqrafiya və informasiya nəşrləri üçün çap əsərlərinin təsviri» standart 7 il, QOST 7.1-76 «Çap əsərlərinin biblioqrafik təsviri» standarta 8 ildən artıq bir dövr ərzində kitabxanalarda tətbiq edilmişdir. Hər bir standarta yenidən nəzər salınması onların Beynəlxalq biblioqrafik təsvir qaydalarına (İSBD) uyğunlaşdırılması ilə əlaqədar idi.7.1-76 standartı Beynəlxalq biblioqrafik təsvir qaydalarına keçid mərhələsini təşkil etsə də ciddi dəyişikliklərə görə ondan fərqlənirdi. QOST 7.1-84 standartı daha çox Beynəlxalq təsvir qaydalarına yaxınlaşdırılsa da burada bəzi prinsipial fərqlərə yer verilmişdi [1,s.23].

Buna görə də yeni bir standartın yaradılması əsas məsələ kimi qarşıda dururdu. Bu məqsədlə 2003-cü ildə Rusiyada Standartlaşdırma, meteriologiya və sertifikatlaşdırma komitəsi tərəfindən QOST 7.1-2003 «Biblioqrafik yazı. Biblioqrafik təsvir» adlı Beynəlxalq Dövlətlərarası Standartı yaranmışdır ki, bunun da əsas məqsədi biblioqrafik yazıların mübadiləsi üçün Rusiya və Beynəlxalq kataloqlaşdırma qaydalarını biri-birinə yaxınlaşdırmaqdan ibarət olmuşdur. Bu məqsədlə əvvəlcədən bir sıra işlər görülmüşdür. Görülən işlərin əsasını QOST 7.80-2000 «Biblioqrafik yazı. Təsvirin

başlığı», «Ümumi tələblər və tərtibi qaydaları» [7] adlı müstəqil standartın tərtibi təşkil etmişdir. Burada təsvirdə biblioqrafik təsvirin başlığının tətbiq edilməsinə xüsusi yer verilmişdir.

Hazırda standartlar kompleksində eyni hüquqlu standartlar mövcuddur: təsvirin başlığına görə, biblioqrafik təsvirin tərtibinə görə. Bu komplekslərin tərkibinə bir standart da daxil edilir ki,o da elektron ehtiyatlar üçün nəzərdə tutulmuşdur – QOST 7.82-2001 «Biblioqrafik yazı. Elektron ehtiyatların biblioqrafik təsviri. Ümumi tələblər və tərtibi qaydaları». Standartın yaradılması zamanın tələbi ilə bağlı olmuşdur. Elektron sənədlərinin küllü miqdarda fondlara daxil olması məhz onların təsvirini tələb edirdi.

7.1-84 dövlət standartının yenidən nəzərdən keçirilməsi məsələsi bir neçə dəfə qaldırılmışdır. Lakin standartı tərtib edənlər yaxşı bilirdilər ki, uzun illərdən bəri bu standart əsasında ənənəvi və elektron kataloqlar yaradılmış, bir çox biblioqrafik təsvirlər həmin standarta əsaslanmışdır. Ona görə də həmin standartın yenidən işlənməsi məsələsini yubandırırdı.

XXI əsrin əvvəllərində İSBD standartları qlobal şəkildə nəzərdən keçirildi və Rusiyadakı mütəxəssislər bu prosesdə aktiv iştirak edərək paralel şəkildə 7.1-84-cü il standartına diqqət yetirmiş və standartdakı nöqsanları aradan qaldırmağa çalışmışlar. Yeni standartın hazırlanmasına dair dövri mətbuatda mülahizələr irəli sürülürdü. Standartın hazırlanmasında – Rusiya Kitab Palatası, Rusiya Dövlət Kitabxanası, Rusiya milli kitabxanası xüsusi rol oynamışdır. Proyektin müzakirəsində bu işdə maraqlı olan idarələrin ekspertləri də iştirak etmişlər. Yeni standart öz həcminə görə böyükdür, ona görə də onun dəqiq öyrənilməsi xeyli vaxt tələb edir.

7.1-2003 dövlət standartı özündən əvvəlki bütün standartların əvəzinə nəşr edilmişdir. Ona görə də bütün nəşr növləri üçün nəzərdə tutularaq universal standart hesab edilir. Belə ki, 1980-cı illərdə yaranmış standartların bir qismi kitab, seriyalı sənədlər, normativ – texniki sənədlər, dərc edilən və dərc edilməyən sənədlər üçün (7.1-84), bir qismi ayrı-ayrı nəşr növlərinin ) not nəşrlərinin təsviri, kartoqrafik nəşrlərin təsviri, audiovizual nəşrlərin təsviri və s.) nəzərdə tutulmuşdu.



Onu da qeyd etmək lazımdır ki, 7.80-2000 və 7.1- 2003 standartları biblioqrafik isnadların təsvirində tətbiq edilmir. Bu biblioqrafik fəaliyyətin ayrıca sahəsini təşkil edir və Beynəlxalq standartlara uyğun ayrıca bir standartın tərtib edilməsini tələb edir.

7.1-2003 standartında biblioqrafik təsvirin ünsürləri 8 sahə daxilində qruplaşdırılmışdır ki, bunlar aşağıdakılardan ibarətdir: [8, s. 22]

Təsvirin başlığı

**1.Sərlövhə və məsul şəxslər haqqında məlumat sahəsi**
**2.Nəşr sahəsi**
**3.Xüsusi məlumatlar sahəsi**
**4.Buraxılış məlumat sahəsi**
**5.Fiziki xarakteristika sahəsi**
**6.Seriya sahəsi**
**7.Qeyd sahəsi**
**8.Standart nömrəsi (və ya onun alternativi) sahəsi və axtarış şərti**

7.1-2003 standartına görə biblioqrafik təsvirin tərtib edilməsi obyektini dərc edilən sənəd növləri və müxtəlif daşıyıcılarda dərc edilməmiş sənədlər – kitablar, seriyalı və digər nəşri davam edən resurslar, not, kartoqrafik, audiovizual sənədlər və s. təşkil edir. Standartda təsvirin quruluşundan asılı olaraq birsəviyyəli və çoxsəviyyəli biblioqrafik təsvirlər müəyyən edilir.

Birsəviyyəli təsvir – birsəviyyədən ibarətdir. Bu təsvir bir hissəli sənədə, tamamlanmış çoxcildli sənədin ayrıca fi-

ziki vahidinə, həmçinin də çoxcildli sənədin bir qrup fiziki vahidinə tərtib edilə bilər.

Çoxsəviyyəli təsvir - iki və daha artıq səviyyədən ibarətdir. Bu təsvir çoxcildli sənədə (çoxcildli və ya komplekt sənədə ümumilikdə,seriyalı və ya digər ardı davam edən resurs ümumilikdə), yaxud ayrıca fiziki vahidə, həmçinin çoxhissəli sənədin bir və ya bir neçə cildinə (buraxılış, nömrə, hissə), komplekt sənədə, seriyalı və ya ardı davam edən resursa tərtib edilə bilər.

Göründüyü kimi standartın terminologiyasında dəyişikliklər edilmişdir. Birsəviyyəli təsvir – əvvəlki standartda monoqrafik təsvir adlandırılırdı.

Çoxsəviyyəli təsvir – əvvəlki standartda toplu təsvir adlandırılırdı.

Biblioqrafik təsvirin sahə və ünsürlərində dəyişiklik edilmişdir.

Əvvəla qeyd etmək lazımdır ki, əsas dəyişiklik təsvirin başlığında aparılmışdır. Burada təsvir Beynəlxalq təsvir qaydalara yaxınlaşdırılmışdır. Bir, iki, üç müəllifli sənədlərin təsvirində yalnız bir müəllif göstərilir [9, s.29].

Biblioqrafik təsvirin sahə və ünsürlərində bəzi dəyişikliklər edilmiş, yeni ünsürlər əlavə edilmişdir. Bu ünsürlər aşağıdakılardır:

Materialın ümumi əlaməti.

Nəşr haqqında paralel məlumatlar.

Nəşr haqqında əlavə məlumatlara dair məsul şəxslər haqqında məlumatlar.

Nəşriyyatçı və nəşri yayanın funksiyaları haqqında məlumatlar.

Materialın spesifik işarəsi

Açar sərlövhə.

Beynəlxalq standart nömrəsi sahəsinə dair əlavə məlumatlar.



Materialın ümumi əlamətində kvadrat mötərizə içərisində materialın növü haqqında məlumat verilir. Məsələn, xəritə, not, səsyazısı, mətn və s.

Mətndə məsul şəxslər haqqında məlumat sahəsində müəlliflərin sayının göstərilməsində də bəzi yeniliklər vardır. Bu yeniliklər Beynəlxalq təsvir qaydalarına əsaslanır. Bir, iki, üç müəllifli sənədlərin təsvirində təsvirin başlığında yalnız bir müəllif göstərilir mətndə isə müəlliflərin hamısı yazılır. Dörd, beş və daha çox müəllifli kitablar sərlövhə üzrə təsvir edilərək məsul şəxslər haqqında məlumat sahəsində yalnız birinci müəllif göstərilir, digər müəlliflər kvadrat mötərizə içərisində [və başq.] sözü altında ixtisar edilir. Əvvəlki standarta görə (7.1-84) dörd müəllifli kitabların təsvirində məsul şəxslər haqqında məlumat sahəsində müəlliflərin dördü də, beş müəlliflidə müəllifdən üçü göstərilirdi, digər müəlliflər və başqaları sözü altında ixtisar edilirdi.

Əvvəlki standartdan (7.1-84) fərqli olaraq 7.1-2003-cü il standartında sənədin nüsxəsi haqqında məlumat beynəlxalq standart nömrəsi sahəsində deyil, qeyd sahəsində göstərilir.

Beləliklə, sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqini öyrəndikdə məlum olur ki, müasir təsvir qaydalarının tətbiqi dövlət standartlarına əsaslanır. 1969-cu ildən etibarən dövlət standartları vaxtaşırı çap edilir, onlar da təkmilləşdirilərək Beynəlxalq biblioqrafik təsvir qaydalarına yaxınlaşdırılır.

## ӘDӘBİYYAT

*1.Бахтурина Т.А. Новый стандарт по библиографическому описанию [Текст]: внедрению ГОСТа 7.1-2003 / Т.А.Бахтурина // Библиография.-2004.-№ 1.-С.23-36.*

*2.Библиотечные каталоги [Текст]:Учебник./Под ред. Г.И.Чинсковой.- Изд. 2-ое.-М.: Книга, 1977.-310 с.*

*3. Həsənov, M. Çap əsərlərinin bibliografik təsvir qaydaları [Mətn] /M.Həsənov, A.Abbasova, A.Əliyev.- B.: BDU nəşr-ı, 1984.-98 s.*

*4.Xələfov A. Kitabxanaşünaslığa giriş [Mətn]: Dərslik: (3 hissədə) : H.1-2. Kitabxanaşünaslığın nəzəriyyəsi.Kitabxana işi haqqında təlim.- B.: BDU nəşr.,2001.- 398 s.*

*5.Xələfov, A. Müasir kitabxanaların sosial funksiyaları / A.Xələfov // Kitabxanaşünaslıq və biblioqrafiya.- 1999.- №2.-S.16-22.*

*6. Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanunu //Azərbaycan.- 1999.- 14 mart.*

*7.Kitabxanaşünaslıq: (Kitabxana kataloqları): Dərs vəsaiti /A.A.Xələfovun red.ilə.-B.: BDU nəşr-ı, 1996.- 210 s.*

*8. ГОСТ 7.1-2000. Библиографическая запись. Заголовок [Текст]: Общие требования и правила составления.- Минск. 2000.-с.- (Система стандартов по информации, библиотечному им издательскому делу).*

*9. ГОСТ 7.1-2003 Библиографическая запись. Библиографическое описание [Текст] Общие требования и правила составления: Изд.офиц.-М.:Изд-во стандартов, 2004.- 48 с.- (Межгосударственный стандарт).*

*10.Леликова, Н.К. Каталогизационная политика и библиографическая практика на современном этапе [Текст] /Н.К.Леликова //Библиография.-2003.- №1.-С.22-29.*

*11.Mustafayeva S. MARC formatının yaranması və tətbiqi [Mətn] / S.Mustafayeva //Kitabxanaşünaslıq və biblioqrafiya.-2004.-№1.-S.75-80.*



*12. Sənədlərin bibliografik təsvir qaydaları haqqında [Mətn]: 7.1-84 dövlət standartı əsasında: Metodik göstəriş / Tərt.ed. M.Həsənov, A.Abbasova.-B.,1988.- 89 s.*

**Sanubar Mustafaeva**

## ПРИМЕНЕНИЕ СОВРЕМЕННЫХ ПРАВИЛ ОПИСАНИЯ В БИБЛИОГРАФИЧЕСКОМ ОПИСАНИИ ДОКУМЕНТА

*РЕЗЮМЕ*

*Статья посвящена проблеме составления современного библиографического описания. Автор изучает тему в двух направлениях:*
*1) Стандартизация библиографического описания;*
*2) Создание новых стандартов по библиографическому описанию.*

*Afət RZAYEVA*
*Aspirant*

# SORAQ-BİBLİOQRAFİYA APARATI OXUCULARA KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN ƏSAS BAZASI KİMİ

Azərbaycan Respublikasının müstəqilliyi şəraitində mühüm funksiyaları yerinə yetirən sosial institutlardan cəmiyyəti yeniləşdirmək xəttini fəal müdafiə etmək, vətəndaşların informasiya tələbatlarını daha tam ödəmək, bütün cəmiyyətin mənəvi cəhətdən zənginləşməsinə qayğı göstərmək, fundamental problemlərin həllini əhalini narahat edən cari məsələlərin həlli ilə əlaqələndirməyi bacarmaq tələb olunur. Bu vəzifələrin müvəffəqiyyətlə həllini təmin etmək üçün kitabxanalar elm, təhsil, mədəniyyət, informasiya və təhsil müəssisələri olmaq etibarilə öz işlərini müasir tələblər səviyyəsində qurmağa çalışırlar.

Elmi-texniki tərəqqinin sürətlə artması ilə əlaqədar olaraq indiki dövrdə oxucuların tələbatlarının daha dolğun, operativ və keyfiyyətlə ödənilməsi məsələsi mühüm problemlərdən biri kimi qarşıda durur.

Müasir dövrdə oxuculara göstərilən müxtəlif istiqamətli kitabxana-informasiya xidmətlərinin səmərəli şəkildə yerinə yetirilməsi üçün kitabxanalarda soraq-biblioqrafiya aparatının daha da təkmilləşdirilməsinə böyük ehtiyac duyulur.

Kitabxanalarda soraq-biblioqrafiya aparatının yaradılması özünəməxsus müəyyən inkişaf dövrü keçmiş, formalaşmış, illər keçdikcə təkmilləşmiş və kitabxana işinin tərkib hissəsinə çevrilmişdir. Məlum olduğu kimi, tipindən və növündən asılı olmayaraq hər bir kitabxana öz soraq-biblioqrafiya aparatını yaradır. Bu isə kitabxana-informasiya və biblioqrafiya xidmətinin səmərəliliyini artırır, onun təşkilinə yaxından köməklik göstərir.



Elmi əsasla təşkil olunmuş soraq-biblioqrafiya aparatı kitabxananın bütün fəaliyyətinin zəruri əsasıdır. Onun köməkliyi ilə oxuculara kitabxana-informasiya, soraq-biblioqrafiya, məlumat-biblioqrafiya və tövsiyə-biblioqrafiya xidməti həyata keçirilir, kitabxana-biblioqrafiya biliyi təbliğ edilir, kitabxanaların işçiləri tərəfindən tərtib olunan biblioqrafik vəsaitlər üçün ədəbiyyat müəyyənləşdirilir.

Soraq-biblioqrafiya aparatının qarşısında qoyulan ən mühüm tələblərdən biri kitabxanaların fondunu tam əks etdirməkdən və onun məzmununu bir çox baxımdan açmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, sovet dövründə kitabxanalar soraq-biblioqrafiya aparatını yaradarkən ilk növbədə kitabxanalarda aparılan kitabxana-biblioqrafiya işini qaydaya salan ilk rəsmi sənədə – 1987-ci il martın 18-də SSRİ Mədəniyyət Nazirliyi yanında Dövlət İdarələrarası Kitabxana Komissiyasının qərarı ilə təsdiq edilmiş «SSRİ-də kitabxanaların biblioqrafik işi haqqında Əsasnamə»yə əsaslanırdı.

Müstəqil dövlətimizdə isə soraq-biblioqrafiya aparatı 1998-ci ildə Milli Məclisdə qəbul edilmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir (1).

Soraq-biblioqrafiya aparatının quruluşu bütün kitabxanalarda eyni şəkildə yaradılır. O, kitabxana-biblioqrafiya işinin təşkili səviyyəsinə uyğunlaşdırılır. Məhz soraq-biblioqrafiya aparatının köməkliyi ilə kitabxanada biblioqrafik fəaliyyətin hər iki istiqaməti -biblioqrafiyalaşdırma və biblioqrafik xidmət həyata keçirilir. Bu onunla əlaqədardır ki, soraq-biblioqrafiya aparatı həm ilkin, həm də ikinci məlumat mənbələrini özündə əks etdirir. Soraq-biblioqrafiya aparatını sadə məlumat mənbələri ilə eyniləşdirmək olmaz. Digər məlumat mənbələrindən soraq-biblioqrafiya aparatı onunla fərqlənir ki, həmin aparatın köməkliyi ilə verilən məlumatlar operativ, kompleks, tam,

həmçinin digər kəmiyyət və keyfiyyət xarakteristikasına malik olur.

Son illər soraq-biblioqrafiya aparatının nəzəri məsələləri və təşkili problemələrinə dair tam və ya qismən nəşr olunmuş materiallar göstərir ki, kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın digər sahələrində olduğu kimi, bu istiqamətdə də axtarışlar aparılır. Məsələn, tədqiqatçı İ.Q.Morqenşteyn göstərir ki, hər bir kitabxanada soraq-biblioqrafiya aparatı soraq-biblioqrafiya işinin bazası və əsas aləti hesab olunur. Arayışların əksəriyyəti, hətta aparatın optimal təşkili zamanı 99%-i soraq-biblioqrafiya aparatının köməkliyi ilə yerinə yetirilir (6).

Məsələyə bu cür yanaşmaq kitabxanalarda soraq-biblioqrafiya aparatının fəaliyyət üstünlüklərini bir daha aydın göstərir.

Soraq-biblioqrafiya aparatının təşkili hər şeydən əvvəl, müasir Azərbaycan cəmiyyətinin daimi məlumat tələbatının ödənilməsi məqsədini daşıyır. Şübhəsiz ki, elmi-metodiki cəhətdən düzgün təşkil olunmuş soraq-biblioqrafiya aparatı olmadan yüksək səviyyəli kitabxana-biblioqrafiya xidmətini həyata keçirmək mümkün deyildir. Soraq-biblioqrafiya aparatının quruluşunun ayrı-ayrı tərkib hissələri sıx qarşılıqlı əlaqəyə malik olmalı və bir-birini tamamlamalıdır. Çünki kitabxananın müxtəlif şöbələri üzrə soraq-biblioqrafiya aparatının hissələrə ayrılması onun vəhdətini pozur və biblioqrafik xidməti çətinləşdirir. Soraq-biblioqrafiya aparatının əsas hissələri bir yerdə, adətən biblioqrafiya şöbəsinin bilavasitə yaxınlığında yerləşdirilir. Sahəvi şöbələrdə profilə müvafiq əlavə məlumat fondu, kataloqlar və kartotekalar yaradılır və bunlar da kitabxananın vahid soraq-məlumat aparatına daxil olur.

Kitabxananın soraq-biblioqraifya aparatı yaradılarkən başqa yerli kitabxanaların (elmi-texniki, ali məktəb, muzey və başqaları) soraq-biblioqrafiya aparatının vəziyyətini nəzərə almaq lazımdır. Universal kitabxana onların soraq-biblioqrafiya aparatını tamamilə təkrar etməməlidir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi M.F.Axundov adına Milli Kitabxana ilə birlikdə soraq-biblioqrafiya aparatına dair dəqiq vəzifə bölgüsü haqqında xüsusi əsasnamə və başqa nizamlayıcı sənədlər işləyib hazırlamalıdır.

Müxtəlif tipli kitabxanalarda soraq-biblioqrafiya aparatının həcmi onun tərkibi və konkret təkmilləşdirilməsi heç də eyni deyil. Belə ki, çoxmilyonlu kitab fonduna, yüz minlərlə oxucuya, mürəkkəb və geniş daxili quruluşa malik mühüm kitabxanaların və kiçik kütləvi (rayon, şəhər, kənd) kitabxanalarının soraq-biblioqrafiya aparatını bir-biri ilə müqayisə etmək olmaz.

Əgər respublika və mərkəzi rayon kitabxanalarının soraq-biblioqrafiya aparatı universal xarakterə malikdirsə, xüsusi kitabxanalarda o, əsas etibarilə müəyyən və ya bir neçə qohum, yaxın olan bilik sahələri üzrə ədəbiyyatı əks etdirir.

MKS şəraitində mərkəzi kitabxananın xidmət etdiyi rayonun profili, xüsusiyyəti və onun oxucu kontingenti soraq-biblioqrafiya aparatının məzmununa və tərkibinə təsir göstərir. Sənaye və kənd təsərrüfatı istehsalının bu və ya digər sahəsinin inkişafı üstünlüyü ölkədə və şəhərdə iri müəssisələrin, elmi və elmi-tədqiqat idarələrinin və təşkilatlarının, ali və orta ixtisas təhsili müəssisələrinin mövcudluğu soraq-biblioqrafiya aparatında əlaqədar mövzular üzrə ədəbiyyatın daha dolğun açılması, xüsusi kartotekalar yaradılması, məlumat fondunun profil üzrə komplektləşdirilməsi zəruriliyini müəyyən edir.

Fondun həcmindən, kitabxanaların tipindən və profilindən asılı olmayaraq onun soraq və biblioqrafiya aparatının tərkibinə aşağıdakı əsas hissələr daxildir:

1. Soraq və biblioqrafik nəşrlər fondu;
2. Kataloq və kartoteka sistemi;

Kitabxananın soraq-biblioqrafiya aparatının soraq-biblioqrafik nəşrlər fondu hissəsinə bunlar daxildir:

1. Əsas və direktiv xarakterli materiallar;
2. Soraq-məlumat və biblioqrafik nəşrlər (5).

Birinci qrupa Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsərləri, müstəqil dövlətimizin rəsmi sənədləri, görkəmli ictimai-siyasi xadimlərin əsərləri aiddir.

Bu baxımdan adları göstərilən əsərlər məlumat fondunda toplanılmalıdır. Ümummilli liderimiz Heydər Əliyevin 10 cildlik «Müstəqillik yollarında» çoxcildliyi, «Müstəqilliyimiz əbədidir» çoxcildliyi, «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı», Heydər Əliyevin əsərlərinin əsas mövzu məcmuələri və s.

Dövlət sənədlərindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi müşavirələrin, iclasların materialları, dövlət sənədlərinin, o cümlədən Milli Məclisin və Nazirlər Kabinetinin əsas mövzu məcmuələri, dövlət sənədlərinin mühüm ümumi və cari nəşrləri məlumat fondunda olmalıdır. Bununla yanaşı, Azərbaycan Demokratik Respublikasının və müstəqil dövlətimizin görkəmli xadimlərinin seçilmiş əsərlərinin, mövzu məcmuələrinin əsas nəşrləri də məlumat fondunda öz əksini tapmalıdır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında soraq-biblioqrafiya aparatının soraq-biblioqrafik nəşrlər fondu hissəsində öz əksini tapmış əsas və direktiv xarakterli materiallar məqsədəuyğun şəkildə qruplaşdırılaraq yerləşdirilmişdir. Belə ki, burada ümummilli liderimiz Heydər Əliyevin 1995-ci ildən etibarən nəşr edilməyə başlamış «Müstəqillik yollarında» və «Müstəqilliyimiz əbədidir» çoxcildlikləri, həmçinin «Heydər Əliyev və Azərbaycan dövlətçiliyi», «Heydər Əliyev və Azərbaycan dili», «Heydər Əliyev və Azərbaycan diplomatiyası», «Heydər Əliyev və Azərbaycan diasporu», «Heydər Əliyevin aforizmləri», «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» və digər əsərlər mühüm yer tutur.



Fondun ikinci hissəsini təşkil edən soraq ədəbiyyatı öz xarakterinə, tipinə və mövzusuna görə olduqca müxtəlifdir. Buraya ensiklopediyalar, ensiklopedik lüğətlər, ümumi və xüsusi məlumat materialları, lüğətlər, ünvan kitabları, təqvimlər və s. daxildir. Məlumat nəşrləri faktiki materiallarla, rəqəm göstəriciləri ilə, statistika məlumatları ilə zəngin olduğuna görə oxucuların faktoqrafik sorğularının ödənilməsində əvəzsiz mənbə rolunu oynayır.

Məsələn, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının məlumat-biblioqrafiya şöbəsi oxucuların kitabla əlaqədar olan bütün sorğularına cavab verir, onları maraqlandıran mövzulara dair ədəbiyyatın seçilməsinə kömək edir. Oxucuların müxtəlif sorğularına cavab vermək üçün şöbənin nəzdində zəngin məlumat-biblioqrafiya aparatı təşkil edilmişdir. Şöbə biblioqrafik göstəricilər tərtib etmək və respublikamızın başqa kitabxanalarına biblioqrafiya sahəsində metodik yardım göstərməklə məşğuldur. Oxucular kitabla əlaqədar olan müxtəlif sorğuları kitabxanaya gəlmədən də telefon vasitəsi ilə və ya kitabxananın İnternetdə açılmış veb-saytı vasitəsi ilə ala bilirlər (7).

Hazırda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin 50 mindən çox müxtəlif biblioqrafik məxəzləri – ensiklopediya, salnamə, lüğət, göstərici və s. kimi nəşrləri əhatə edən xüsusi fondu, Azərbaycan, rus və ingilis dillərində ədəbiyyatı əhatə edən zəngin kartotekaları vardır. Həmin kartotekalar içərisində «Azərbaycanşünaslıq» kartotekası xüsusi yer tutur (7).

Qeyd etmək lazımdır ki, soraq-biblioqrafiya aparatının tərkibinə daxil olan kataloq və kartotekalar sistemi də mühüm əhəmiyyətə malikdir.

Kitabxana kataloqları kitabxananın fondunu ən müxtəlif baxımdan açır, soraq və məlumat-biblioqrafiya işində onlardan geniş istifadə olunur. Kataloqlar istiqamətlərinə (oxucu və xidmət), fondu əhatə etmələrinə (baş, birləşmiş, mərkəzi, fondun ayrı-ayrı hissələri üzrə), materialla-

rın qruplaşdırılmasına (əlifba, sistemli, predmet, nömrələrlə), əks etdirdiyi nəşrlərin növlərinə (kitab, dövri nəşrlər, xəritələr, not əsərləri, standartlar və s.) görə növlərə ayrılır.

Əlifba kataloqları müəyyən müəllifin kitablarını, bu və ya digər təşkilatın buraxdığı çap əsərlərini meydana çıxarmağa və ya başqa əsərin hansı nəşrinin kitabxanada olduğunu müəyyənləşdirməyə imkan verir.

Sistemli kataloqlarda materiallar ədəbiyyatın iyerarxiya təsnifat sistemi əsasında bilik, elm sahələri və elmi fənlər üzrə qruplaşdırılır.

Predmet kataloqları nisbətən dar, xüsusi mövzular və problemlər üzrə ədəbiyyatın tez tapılmasına imkan yaradır.

Birləşmiş kataloqlar oxuculara soraq-biblioqrafiya xidmətinin imkanlarını xeyli genişləndirir. Onlar ölkənin və ya muxtar respublikanın bir neçə kitabxanasının fondunda olan sənədləri əks etdirir.

Kitabxanaların məlumat-biblioqrafiya aparatının mühüm hissəsi qəzet və jurnalların, nəşri davam edən materialların və məcmuələrin məzmununu analitik qaydada açan kartotekalardan ibarətdir.

Kartotekalar öz xarakterlərinə və məzmunlarına görə universal, mövzu, xüsusi və diyarşünaslıq kartotekalarına bölünür. Kitabxananın biblioqrafik kartoteka sistemində məqalələrin universal kartotekası əsas rol oynayır. Burada kitabxananın müxtəlif oxucu kateqoriyalarını maraqlandıran bütün bilik sahələri üzrə dövri mətbuat materialları haqqında məlumat maksimum operativliklə əks olunur.

Kartoteka əvvəllər başlıca olaraq Azərbaycan Dövlət Kitab Palatasının jurnal və qəzet məqalələrinə dair buraxdığı çap kartoçkaları komplektləri əsasında yaradılırdı.

Mövzu kartotekası daha aktual problemlərə və məsələlərə dair çap əsərlərini əks etdirir. Məsələn, bu baxımdan hazırda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının məlumat-biblioqrafiya şöbəsində Azərbaycan Respublikası Prezidentinin yanında keçirilmiş müşavirələrin materialları, xalq təsərrüfatının və sənayenin inkişafına dair proqramlarla bağlı dövlət başçısının müxtəlif fərman və sərəncamları, mədəni-maarif sistemində çalışanlara köməklik və başqa bu kimi məsələlər üzrə mövzu kartotekası yaradılmış və oxucuların istifadəsinə verilmişdir (8).



Məlum olduğu kimi, təkcə kitabxana kataloqlarından, universal və mövzu kartotekalarından istifadə etməklə oxucuların heç də bütün sorğularını ödəmək mümkün deyil. Ona görə də xüsusi biblioqrafik kartotekalar da tərtib edilir ki, onlara da resenziyalar kartotekası, bədii ədəbiyyatın sərlövhə kartotekası, şəxsi kartoteka, xüsusi növ nəşrlərin (çap qrafiklərinin, not əsərlərinin, xəritə materiallarının) kartotekası aiddir.

Şəxsi kartoteka şəxsi rubrikalarda ictimai, dövlət, hərbi xadimlərin, elm, texnika, mədəniyyət, incəsənət xadimlərinin, istehsalat qabaqcıllarının və başqalarının həyat və yaradıcılığı ilə əlaqədar olan çap materiallarını komplektləşdirir.

Diyarşünaslıq kartotekaları ölkənin (rayonun, şəhərin) hərtərəfli öyrənilməsinə, onun sosial, iqtisadi və mədəni inkişafında dövlət və təsərrüfat fəallarına kömək göstərilməsinə xidmət göstərir.

Soraq-biblioqrafiya aparatının mühüm tərkib hissələrindən biri də ödənilmiş arayışlar fondudur. Ödənilmiş arayışlar fondu mütəxəssislər, təşkilatlar və idarələr tərəfindən kitabxanaya daxil olan mürəkkəb mövzu sorğularının yerinə yetirilməsində xüsusi rol oynayır. Belə sorğulara cavablar yazılı şəkildə yerinə yetirilir və çox hallarda ədəbiyyatın geniş mövzu siyahısından ibarət olur.

Ümumiyyətlə, kitabxana-biblioqrafiya biliklərinin təbliği, yəni oxuculara məlumat nəşrlərindən, kataloq və kartotekalardan sərbəst istifadəsinin öyrənilməsi məqsədi daşıyan bütün proseslər soraq-biblioqrafiya aparatı ilə bilavasitə əlaqədardır.

Kitabxana təcrübəsi göstərir ki, yalnız təcrübəli biblioqrafların köməyi ilə soraq-biblioqrafiya aparatı daha əhatəli, səmərəli təşkil olunur və oxucular onlara daha çox müraciət edirlər.

Hazırda biblioqrafik fəaliyyətdə soraq-biblioqrafiya aparatının rolunu yüksəltmək, oxuculara xidmət işinin təşkilində ondan daha səmərəli istifadə etməyin optimal yollarını müəyyənləşdirmək əsas vəzifələrdəndir.

## ƏDƏBİYYAT


*1. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya. – 1999. – №1. –S. 3-18.*

*2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. II hissə. –B.: Bakı Universiteti Nəşriyyatı, 2001. –400 s.*

*3. İsmayılov X.İ. Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri: Dərs vəsaiti. –B., 1995. –96 s.*

*4. Фононов Г.П. Информационную и справочно-библиографическую работу централизованных систем – на новый уровень // Сов. библиография. –1981. –С. 39-52.*

*5. Mərkəzləşdirilmiş kitabxana sistemlərinin təşkili və idarə edilməsi məsələləri: Məqalələr məcmuəsi / M.F.Axundov adına ADK. –B., 1979. –78 s.*

*6.Моргенштейн И.Г. Справочно-библиографический аппарат библиотеки / Сов. библиография. –1982. –№2. –С. 22-32.*

*7. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2005-ci il hesabatı.*

*8. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin sənədlər qovluğu.*




*Афет Рзаева*

## СПРАВОЧНО-БИБЛИОГРАФИЧЕСКИЙ АППАРАТ КАК ОСНОВНАЯ БАЗА ПО БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОМУ ОБСЛУЖИВАНИЮ ЧИТАТЕЛЯМ

### *РЕЗЮМЕ*


*В статье рассматриваются этапы развития и современное состояние справочно-библиографического аппарата библиотеки. Автор статьи доказывает, что справочно-библиографический аппарат библиотеки является необходимой основой всей библиографической деятельности библиотеки, с его помощью осуществляется справочное, информационно-библиографическое и рекомендательно-библиографическое обслуживание читателей.*

**Elşən ƏHMƏDOV**
**Magistr**

# MÜASIR ŞƏRAİTDƏ OXUCU SORĞULARININ ÖDƏNİLMƏSİ SAHƏSİNDƏ M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ FƏALIYYƏTİ

Cəmiyyətdə kitabxanaların rolu və əhəmiyyəti həmişə oxuculara kitabxana xidmətinin təşkili, səviyyəsi, keyfiyyəti və əhatə dairəsi ilə ölçüldüyündən müasir dövrümüzdə oxuculara xidmət işinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, forma və metodlarının elmi şəkildə öyrənilməsi kitabxanaşünaslıq elminin və kitabxanaların mühüm problemlərindən biridir. Kitabxana xidmətinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi isə olduqca mürəkkəb bir proses olub bu və ya digər cəmiyyətin xüsusiyyətləri ilə bağlıdır.

İdeoloji buxovlardan azad olduğumuz, demokratik dəyərlərin və prinsiplərin inkişaf edib möhkəmləndiyi, müstəqil informasiyalaşdırılmış cəmiyyətdə kitabxana və cəmiyyət, kitabxana və mütaliə, kitabxana və oxucu kimi problemlər yeni mahiyyət kəsb etmişdir. Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, tarix elmləri doktoru, professor A.Xələfovun göstərdiyi kimi, bütün bunlar "informasiya azadlığı", "intellektual azadlıq", "mütaliə azadlığı", "kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə mərkəzidir", "kitabxana ictimai mütaliənin təşkilatçısıdır" kimi yeni anlayışların və ifadələrin meydana gəlməsinə səbəb olmuşdur (2).

Kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından biridir. Bu cəmiyyət qarşısına qoyduğu məqsəd və vəzifələrini yerinə yetirmək, cəmiyyətin hər bir üzvünü informasiya ilə təmin etmək və artan sorğuları



operativ şəkildə ödəmək üçün müasir şəraitdə kitabxanalar qarşısında yeni tələblər qoyur. Bu isə ənənəvi kitabxana xidmətlərinin içərisində daha lazımi xidmətləri saxlamaqla yanaşı, yeni xidmətlərdən və texnologiyalardan istifadə etməyə, elektron kataloq və elektron kitabxana yaratmağa, bir sözlə, kitabxanaların müasirləşdirilməsinə əsas yaradır. Söylənilən fikirləri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının timsalında ümumiləşdirmək olar.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sisteminə daxil olan ən böyük şəbəkəyə malik kitabxanaları içərisində universal-elmi ktabxana kimi aparıcı rolu olan kitabxanalardan biri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasıdır.

Müstəqillik illərində dövlətin diqqəti və qayğısı ilə əhatə olunmuş M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası digər müəssisələr kimi keçid dövrünün böyük iqtisadi çətinliklərinin öhdəsindən gəlməyə nail oldu, oxuculara xidmət işini uğurla həyata keçirə bildi, ölkənin baş kitabxanası kimi respublikada bütün kitabxanaların elmi-metodik təminat mərkəzi funksiyasını dayandırmadı. Keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxana 1993-cü ildən başlayaraq dövlət tərəfindən davamlı olaraq maliyyələşdirilir, kitabxanaya ayrılan vəsait ilbəil artırılır. Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, binasının əsaslı təmir edilməsi, xarici dillərdə olan ədəbiyyatla komplektləşdirilməsi, kitabxananın müasir texniki vasitələr və informasiya texnologiyaları ilə təmin olunması oxuculara xidmət işinin keyfiyyətini xeyli yaxşılaşdırmışdır.

Ölkədə keçid dövrünün çətinlikləri ilə əlaqədar şəhərimizin bir çox kitabxanalarının fəaliyyəti zəiflədiyindən, milli kitabxanaya böyük oxucu axını yaranır. Müstəqillik illərində milli kitabxana öz işinin məzmununda və formasında böyük dəyişikliklər etmiş, kitab fondundan heç bir məhdudiyyət olmadan bütün oxucuların istifadə etməsi

üçün əhəmiyyətli işlər görmüşdür. Kitabxana müharibə şəraiti ilə əlaqədar gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinə dair ədəbiyyat təbliğinə xüsusi diqqət yetirmişdir. Bundan başqa, kitabxana oxucuları yeni kitablarla tanış etmiş, müxtəlif elm sahələrinə və mövzulara dair daimi və tematik kitab sərgiləri təşkil etmiş, tarixi və mədəni əhəmiyyət kəsb edən belə sərgilərin kütləvi informasiya vasitələrində təbliğinə fikir vermişdir. Bunların içərisində milli ideologiyaya dair təşkil edilən daimi və tematik kitab sərgiləri oxucuların diqqət mərkəzində olmuş, keçirilən kütləvi tədbirlərdə oxucular həvəslə iştirak etmişlər.

Kitabxana ənənəvi iş üsulları ilə yanaşı yeni iş forma və üsullarına, görkəmli dövlət, ədəbiyyat və incəsənət xadimlərinin əsərlərinin təqdimat mərasimlərinin keçirilməsinə xüsusi diqqət yetirir ki, bu da kitabxananın oxucularla əlaqəsini daha da möhkəmləndirir, yeni ədəbiyyatın təbliği işini xeyli yaxşılaşdırır.

Kitabxananın oxucu sorğularının ödənilməsi sahəsindəki fəaliyyəti son dövrlərdə, xüsusilə də 2006-cı ildə daha da genişlənmişdir. Eyni zamanda kitabxananın tarixində bir çox əlamətdar hadisələr baş vermişdir. Belə ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 12.01.2006-cı il tarixdə kitabxananın yeni strukturu və ştat cədvəli təsdiq edilmişdir ki, bunun da nəticəsi olaraq bir çox şöbə və bölmələrin adları dəyişdirilmiş, bəzi şöbə və bölmələr ləğv edilmiş, yeniləri yaradılmışdır. Hazırda strukturunu 25 şöbə və 50 bölmə təşkil edən kitabxanada 361 nəfər çalışır və onlardan 288 nəfəri kitabxana işçiləridir.

01.01.2007-ci il tarixinə kitabxananın fondunda 4.465.442 nüsxə ədəbiyyat saxlanılır. 2006-cı il ərzində kitabxananın daimi oxucularının sayı 34.083 nəfərə çatmış, oxucu davamiyyəti 225.318 nəfər olmuş, kitab verilişi 783.949 nüsxəyə çatmışdır. 2006-cı ildə kitabxanaya 15.164 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.(3)



İnformasiya texnologiyalarının tətbiqi ilə əlaqədar 2006-cı ilə qədər müxtəlif layihələrin həyata keçirilməsində iştirak edən strukturlar yeni ştat cədvəli ilə müstəqil şöbə və bölmə kimi təsdiq edilmişdir. Bunlardan Elektron resursların yaradılması, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları, Kitabxana işçilərinin təlim və tədrisi şöbələri, həmçinin elektron kitabxananın yaradılması istiqamətində ədəbiyyatın skaner edilməsi zamanı meydana çıxan çatışmazlıqların aradan qaldırılması məqsədilə yaradılmış "Mətnlərin redaktəsi" bölməsini göstərmək olar.

Arxiv və nadir kitablar fondunda oxucular tərəfindən daha çox istifadə olunan 46 nüsxə kitab və 11 qəzet komplekti cari ildə mikrofilmləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

Kitabxananın "Kütləvi işlər" şöbəsi 2006-cı ildə respublikanın həyatında baş verən tarixi və əlamətdar günlərlə, yubileylərlə, bayramlarla əlaqədar tədbirlər-kitab sərgiləri, yeni kitabların təqdimatları və anım günləri keçirmişdir. Milli kitabxanada keçirilən kütləvi tədbirlər, sərgilər, mühazirələr, kitab təqdimatları, yazıçı və elm adamları ilə görüşlər oxuculara xidmət işində və ədəbiyyat təbliğində mühüm rol oynayır. Artıq ənənəyə çevrilmiş VI Bakı Kitab Bayramı 2006-cı ildə də qeyd edilmişdir. Gənc Yazıçılar Birliyi ilə keçirilən bu tədbir kitabxanaçıların, naşirlərin və kitabsevərlərin əsl bayramına çevrilmişdir.

Milli Kitabxananın fəaliyyətinə geniş şəkildə nəzər salsaq görərik ki, kitabxanada oxucu sorğularının ödənilməsi sahəsində həm ənənəvi, həm də elektron informasiya xidmətindən qarşılıqlı şəkildə istifadə edilir.

Bu baxımdan kitabxananın Sorğu-informasiya xidməti şöbəsinin fəaliyyəti olduqca diqqətəlayiqdir. Hazırda şöbə əvvəlki Məlumat-biblioqrafiya şöbəsinin funksiyalarını yerinə yetirir. 2006-cı ildə Sorğu-informasiya xidməti şöbəsi 38.000 ədəbiyyat vermiş və oxucu davamiyyəti 26.500

nəfər olmuşdur. Bu ildə şöbə tərəfindən dövlət orqanlarından, müəssisə və təşkilatlardan, kütləvi informasiya vasitələrindən, təhsil müəssisələrindən və ayrı-ayrı oxuculardan daxil olmuş 31.000 şifahi, 77 yazılı və fərdi sorğu ödənilmişdir. (3)

2006-cı il üçün oxuculardan daxil olmuş şifahi sorğuların əksər hissəsi ictimai və humanitar elmlərin payına düşür. Şöbənin hesabatından göründüyü kimi, bu sorğular əsas etibarilə Azərbaycan Respublikasının qanun, qərar, fərman və sərəncamlarını əhatə edən məsələlər, Dağlıq Qarabağ probleminin həlli, Azərbaycan MDB ölkələri sistemində, Ədliyyə Nazirliyinə və digər dövlət orqanlarına testlə qəbul imtahanlarını əhatə edən suallara dair, habelə xarici ölkələrin tarixi, coğrafiyası və incəsənəti, dünyanın qlobal problemləri ilə bağlı mövzulardan ibarətdir. Bundan başqa, şöbəyə Azərbaycanın memarlıq abidələri və turist regionları, İran folkloru, Bakı sirkinin yaranma tarixi, Azərbaycan diplomatiyası, hərbi-siyasi konfliktlər (1980-2006-cı illər), Azərbaycan nefti Böyük Vətən müharibəsi illərində, Teymurləng haqqında və digər mövzular üzrə rəngarəng sorğular daxil olmuşdur.

Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq biliklərinin təbliği şöbənin daim diqqət mərkəzində olmuşdur. Kitabxanaya yeni yazılan oxuculara kitabxananın məlumat aparatından istifadə etmək qaydalarına dair 33.387, nəzəriyyə və metodikaya dair isə 800 məsləhət verilmişdir.

Hesabat ilində ayrı-ayrı rayon MKS-lərinin biblioqrafiya şöbələrinin müdirləri burada təcrübə mübadiləsində olmuş, Bakı Dövlət Universitetinin, Bakı Mədəni-Maarif Texnikumunun tələbələri, Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının tələbələri, ixtisaslaşdırma kursu dinləyiciləri üçün seminar və praktikumlar keçirilmiş, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə işə qəbulla əlaqədar şöbəyə müraciət etmiş 200 nəfər oxucunun 800



sualı üzrə biblioqrafik axtarış aparılmış və onlar cavablandırılmışdır.

Şöbəyə daxil olan yeni ədəbiyyat üzrə müzakirələr keçirilmiş, oxuculara xidmət zamanı qarşıya çıxan mübahisəli məsələlərə aydınlıq gətirilmişdir.

2006-cı ildə kitabxananın həyatında baş verən ən əlamətdar hadisə onun www.anl.az ünvanlı İNTERNET səhifəsinin və elektron kataloqunun təqdimat mərasiminin keçirilməsi idi. İNTERNET portal Azərbaycan, rus və ingilis dillərində işlənib hazırlanmışdır. Kitabxananın saytı vasitəsilə elektron kataloqda axtarış aparmaq, elektron kitabxanada lazım olan ədəbiyyatı əldə etmək imkanı Azərbaycanın və dünyanın hər bir yerindən İNTERNET-ə çıxışı olan istənilən bir şəxs, hətta respublikanın ucqar yerlərindən olsa belə kitabxananın elektron resurslarından faydalana bilməsi mümkünləşmişdir. Bu isə o deməkdir ki, kitabxananın yerləşdiyi coğrafi məkandan çox uzaqlarda olan hər hansı bir şəxsin sifariş etmək istədiyi ədəbiyyatın kitabxanada olub-olmamasını bilmək üçün onun uzun məsafəni qət edib kitabxanaya gəlməyi zəruri deyil. Lakin belə olan halda kitabxana çalışmalıdır ki, mümkün qədər çoxlu kataloq kartoçkasını və xeyli sayda ədəbiyyatı kompütürə daxil etsin və bununla kitabxananın elektron resurslarından bəhrələnmək istəyən istifadəçilərin sorğularını ödəyə bilsin. Statistikaya nəzər yetirsək görərik ki, 2006-cı il ərzində kitabxananın saytının daimi istifadəçilərinin sayı 773 nəfər, saytdan istifadə edənlərin sayı isə 20.216 nəfər olmuş, 21.000 adda biblioqrafik yazı elektron kataloqa daxil edilmişdir ki, bu da 60.000 nüsxə ədəbiyyatı əhatə edir (3).

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası elektron kataloq vasitəsilə ABŞ-ın Konqress Kitabxanası və Rusiya Dövlət Kitabxanası ilə biblioqrafik yazı mübadilələri aparır. Bu isə oxucuya imkan verir ki, kitabxananın saytı vasitəsilə birbaşa olaraq bu

kitabxanaların elektron kataloqlarında axtarış apara bilsin və onlara sorğu ilə müraciət edərək istədikləri sənəd haqqında məlumat ala bilsin. Buradan göründüyü kimi, kitabxananın saytı nəinki kitabxananın elektron resursları, həmçinin dünyanın ən nəhəng kitabxanalarının fondunda olan ədəbiyyatla tanış olmağa imkan verir. Bununla, oxucular həm vaxtlarının, həm də maliyyə vəsaitlərinin qənaət olunmasına nail olurlar. Bu baxımdan milli kitabxananın Elektron resurslarının yaradılması şöbəsinin fəaliyyəti olduqca diqqətəlayiqdir.

Fəaliyyətə başladığı 2006-cı ildə şöbə ölkə və dünya oxucularına qlobal şəbəkə vasitəsilə kitabxananın fondu haqqında məlumatların çatdırılması üçün elektron kataloqun hazırlanması işinə başlamışdır. Bunun üçün Avrasiya Fondu, Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu və Kitabxanaçıların İnformasiya Resursları Təlim Mərkəzinin xüsusi layihəsi çərçivəsində ABŞ-ın VTLS VİRTUA proqramı alınmış və bu proqram MARC 21 formatında tətbiq edilməyə başlanmışdır. Azərbaycanda kitabxana proseslərini dolğun şəkildə realizə edən və İNTERNET vasitəsilə ölkəyə və dünyaya yayımlanan bu proqram oxucuların kitabxananın elektron resurslarına uzaq məsafədən girişini korporativ şəbəkə ilə həyata keçirir.

Bu gün elektron kitabxanaların əhəmiyyəti olduqca artmaqdadır. Əsası 2002-ci ildə qoyulmuş milli kitabxanamızın elektron kitabxanası da 2006-cı ilin fevral ayından operativ fəaliyyətə başlamışdır. Elektron kitabxana müəllif hüquqlarını qoruyub saxlamaqla, milli ədəbiyyat nümunələrini elektron daşıyıcılara köçürməklə zənginləşir. Eyni zamanda elektron kitabxanaya müəllifin öz arzusu ilə onun təqdim etdiyi əsərin elektron versiyası da daxil edilir. Saytda kitablar həm əlifba sırası üzrə, həm də kitabın aid olduğu elm sahəsi üzrə yerləşdirilir. Elektron kitabxananın yaradılması və genişləndirilməsi işi ilə Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi məşğul olur. Şöbə öz işini Elektron resurslarının yaradılması, Kitabişləmə və Kataloqlaşdırma şöbələrinin işi ilə əlaqələndirir. Belə ki, elektron kitabxanada olan kitabların ünvanları elektron kataloqda da öz əksini tapır.

İnanmaq olar ki, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası gələcək illərdə də xidmət prosesinin modernləşdirilməsi, bütün işlərin avropa standartlarına uyğun olaraq yenidən qurulması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, elektron kataloq və elektron kitabxananın məlumat bazasının genişləndirilməsi istiqamətində öz işlərini davam etdirəcəkdir.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-B.:Azərnəşr, 2006.-312 s.*
2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə.-B.:Bakı Universiteti Nəşriyyatı, 2003.-314 s.*
3. *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2006-cı il hesabatı.*



***Элшан Ахмедов***


**ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМ. М.Ф.АХУНДОВА В СФЕРЕ УДОВЛЕТВОРЕНИЯ ЧИТАТЕЛЬСКИХ ЗАПРОСОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**


***РЕЗЮМЕ***

*В статье освещена деятельность национальной библиотеки в сфере удовлетворения читательских запросов в последние годы, особенно в 2006-ом году, даны сведения об электронной библиотеке и об электронном каталоге, также в отчете библиотеки за 2006-ой год представлены статистические показатели.*

*Elvira TALIBOVA*
*Magistr*

# KİTABXANALARDA ƏMƏK MƏHSULDARLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

Əmək məhsuldarlığı insanın məqsədəuyğun fəaliyyətinin göstəricisidir, başqa cür desək, əmək məhsuldarlığı əmək sərfinin səmərəlilik dərəcəsidir. İnsanın məqsədəuyğun fəaliyyətinin səmərəlilik səviyyəsi və yaxud nəticəsi vaxt vahidi ərzində yaradılmış müəyyən miqdar istehlak dəyərlərinin miqdarında, yaxud məhsul vahidi ilə sərf edilmiş vaxtla ifadə edilir.

Kitabxana işində əmək məhsuldarlığı dedikdə bu sahədə çalışan işçilərin məqsədəuyğun fəaliyyətinin səmərəlilik dərəcəsini təhlil etməklə əhaliyə kitabxana xidmətinin ümumilikdə səmərəliliyinin əsas göstəricilərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Kitabxana iqtisadiyyatı üzrə tanınmış alim Rasim Kazımovun qeyd etdiyi kimi, "Kitabxanalarda əmək məhsuldarlığı hər bir işçi tərəfindən müəyyən iş prosesi və əməyinə sərf olunan əməyin kəmiyyəti və ya vahid norma vaxtı ərzində görülən işlərin həcmi ilə ölçülür. Hər bir kitabxanaçı tərəfindən görülən işlərin müəyyən norma vaxtı ərzində həcm artdıqca, yaxud görülən işlərə sərf edilən vaxt azaldıqca əmək məhsuldarlığı artır" (1 s.33).

Onu da qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində hər bir kitabxananın və ya kitabxana şəbəkəsinin digər kitabxanaya nisbətən üstünlüyü ilk növbədə orada əmək məhsuldarlığının yüksəldilməsi üçün daha geniş imkanların yaradılması ilə ölçülür.

Beləliklə bazar iqtisadiyyatı şəraitində kitabxanalarda əmək məhsuldarlığının göstəriciləri hər hansı bir rayon, şəbəkə və ya bir kitabxana daxilində oxuculara kitabxana-informasiya xidmətinin ümumi səviyyəsi və səmərəliliyi barədə real təsəvvür yaradan mühüm iqtisadi göstəricilərdir.



Qeyd etmək lazımdır ki, əmək məhsuldarlığı anlayışını heç də məhsul istehsal edən əməklə eyniləşdirmək olmaz.

Belə ki, kitabxanaçı öz əməyinin məzmununa görə maddi nemətlər istehsal etmir. Lakin iqtisadi baxımdan məhsuldar işçi kimi fəaliyyət göstərə bilər. Kitabxana işçisi öz əməyinin təbiətinə görə məhsul istehsal edə bilməz, o, ancaq xidmət edə bilər. Lakin bu heç də o demək deyil ki, kitabxanaçı məhsuldar deyildir, o qeyri-istehsal sahəsində çalışan işçidir. Ona görə də "qeyri-istehsal" anlayışı ilə "qeyri - məhsuldar" anlayışını eyniləşdirmək olmaz.

Əmtəə-pul münasibətlərinin əsas amil kimi götürüldüyü bazar iqtisadiyyatı şəraitində kitabxanada əmək məhsuldarlığının yönəldilməsi zərurəti meydana çıxır. Bu isə öz növbəsində kitabxana işində iqtisadi amillərin rolunun güclənməsi ilə əlaqədardır. Prof.A.A.Xələfovun yazdığı kimi "Kitabxana işinin keyfiyyətcə yeni mərhələyə daxil olması, bu işin daha da mürəkkəbləşməsi, kitabxana işinin keyfiyyət göstəriciləri təhlil edilərkən iqtisadi göstəricilərin keyfiyyət göstəricilərinin əsas amil kimi qiymətləndirilməsi ilə əlaqədardır" (3, s.247).

Müasir dövrdə kitabxana işində iqtisadi amillərin aktuallaşdırılması ilk növbədə kitabxanaların əmək məhsuldarlığının artırılması yollarının müəyyənləşdirilməsini tələb edir.

Kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsi onun fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması ilə sıx əlaqədardır. Dos. R.Kazımovun qeyd etdiyi kimi: "Kitabxana işinin iqtisadi səmərəliliyini artırmaq üçün hər bir kitabxanada xeyli daxili ehtiyat mənbələri vardır. Belə ki, kitabxanalarda əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, vaxt itirilməsi hallarının aradan qaldırılması, kollektivlərdə əmək intizamının möhkəmlənməsi, texniki vasitələrin istismarının optimallaşması qənaət rejiminə əməl

edilməsi və s. tədbirlərin həyata keçirilməsi kitabxananın fəaliyyətinin iqtisadi səmərəliliyinə müsbət təsir göstərər" (2, s.57).

Müasir dövrdə kitabxanada əmək məhsuldarlığının yüksəldilməsində informasiya-kommunikasiya texnologiyasının tətbiqi ən başlıca vasitəyə çevrilməkdədir. Kitabxana işinin mühüm texnoloji proseslərinin komplektləşdiirlməsi, oxuculara xidmət işində kompüter və internet vasitələrindən istifadə, CD-ROM, onlayn texnologiyaları, elektron kataloqlar, elektorn göstəricilər, elektron kitablar və s. müasir texnologiyaların tətbiqi kitabxanalarda əməyin təşkili və onun məhsuldarlığında yeni keyfiyyət dəyişikliklərinin meydana gəlməsinə səbəb olur. Bu proses kitabxana daxilində iki istiqamətdə həyata keçirilə bilər:

a) Ənənəvi kitabxana proseslərində texniki və informasiya texnologiyalarının tətbişi;

b) yeni keyfiyyətli informasiya – kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində kitabxananın məhsuldar qüvvələrinin fəaliyyətinin yeniləşdiirlməsinə keyfiyyətcə yeni əmək məhsulunun alınması. (4.s.31)

Nəticədə kitabxana işində oxuculara xidmətin yeni növlərini yaratmaq, insan əməyini yüngülləşdirməklə və ona qənaət etməklə əmək məhsuldarlığını xeyli yüksəltmək olar.

Kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsinin olduqca əhəmiyyətli vasitələrindən biri də əmək intizamının lazımi səviyyədə təşkil edilməsidir. Bu isə heç də yalnız işçilərin işə vaxtında gəlib-getməsi deyildir.

Bu proses eyni zamanda kitabxananın hər bir şöbəsində əmək normalarının riayət edilməsini, əməyin elmi təşkilini əməkdə fərqlənənlər üçün güzəştlər və imtiyazların tətbiq edilməsini nəzərdə tutur. Bu işdə mənəvi və maddi-həvəsləndirmə metodlarından da geniş istifadə edilməlidir.

Müasir dövrdə kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsinə xidmət edən amillər içərisində kollektivlərdə sağlam psixoloji iqlimin yaradılması da mühüm amil kimi nəzərdən keçirilməlidir.



Nəhayət kitabxanaçılıq fəaliyyətində əmək məhsuldarlığının yüksəldilməsində ən önəmli amillərdən biri və bəlkə də birincisi kadrların peşə səviyyəsinin sistemli sürətdə artırılması, onların düzgün yüksəldilməsi və səmərəli istifadə edilməsidir.

Təəssüflə qeyd etməliyik ki, kitabxana işində son vaxtlar müasir informasiya texnologiyalarının tətbiqinin ildən- ilə inkişaf etməsinə baxmayaraq bu işdə hələ də primitiv, texniki əl əməyinin həddindən artıq çox olması müşahidə edilir. Bu isə öz növbəsində bir çox kitabxana əməyinin icrasını darıxdırıcı edir və işçilərin tez yorulmasına, nəticədə isə əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olur.

Bu baxımdan kitabxana işində fiziki, primitiv texniki əl əməyinin zehni əməklə əvəz edilməsi çox mühüm sosial və elmi problem kimi meydana çıxır.

## ƏDƏBİYYAT


*1. Kazımov.R. Kitabxana işinin iqtisadiyyatı. Dərs vəsaiti. B. 2004, 88 s.*

*2. Kazımov R. Kitabxanalarda əmək məhsuldarlığı// Kitabxanaşünaslıq və biblioqrafiya. 2001, №2.-s.40-49.*

*3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik . I-II hissə.-B., 2001, -452 s.*

*4. Проблемы экономической деятельности библиотек.- М., 1998.-331 с.*

*Эльвира Талыбова*

# ПУТИ ПОВЫШЕНИЯ ПРОИЗВОДИТЕЛЬНОСТИ ТРУДА В БИБЛИОТЕКАХ

*РЕЗЮМЕ*

*В статье вкратке рассмотрений важнейшие аспекты организации труда библиотечных работников, пути повышения проводителств труда в библиотеках в условиях рынычной экономики.*

***Nadir İSMAYILOV***
***Dosent***

## TƏBİƏTŞÜNASLIQ, TEXNİKA VƏ KƏND TƏSƏRRÜFATI ÜZRƏ ƏDƏBİYYATIN BİBLIOQRAFIK TƏHLİLİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Biblioqrafiyaşünaslığın inkişaf etmiş sahələrindən biri də biblioqrafiyanın metodikasıdır. Biblioqrafiyalaşdırmanın metodikası iki: ümumi və xüsusi səviyyədə öyrənilir. Xüsusi metodikanın tədqiq edilib öyrənilməsi sahəsində xeyli təcrübə toplanmışdır (1, 2, 3, 4, 5, 6, 7). Ümumiyyətlə biblioqrafiyalaşdırma prosesində ən mühüm problemlərdən biri sənədin düzgün biblioqrafik təhlilidir.

Biblioqrafiyalaşdırma zamanı ilkin sənədlərin mətninin məzmunu onlarda olan ən mühüm məlumatları meydana çıxarmaq və onları ardıcıl şəkildə, bitkin formada ümumiləşdirmək məqsədilə təhlil olunur. Analitik adlanan bu mərhələ aşağıdakı üç müstəqil əməliyyatdan ibarətdir: 1.Biblioqrafik təsvirin tərtibi; 2.Annotasiyalaşdırma və referatlaşdırma;3.Sistemləşdirmə.

Təbiətşünaslıq, texnika və kənd təsərrüfatı ədəbiyyatının bibloqrafiyalaşdırması zamanı həmin prosseslərin spesifik cəhəti müvafiq sahələr üzrə ədəbiyyatın məzmunu və həmin sahələr üzrə məlumat tələbatının xarakteri ilə şərtlənir. Bəhs edilən sahə ədəbiyyatının tərkibinə həm çox cəhətli, həm də dar mövzular üzrə əsərlər daxil olunur ki,bunlar da eyni beynəlxalq dillər vasitəsilə çoxlu miqyasda faktiki məlumatları əks etdirir. Müvafiq sahələr üzrə mütəxəssislər üçün daha çox yeni tədqiqatların perspektiv istiqamətlərini nəzəri cəhətdən ümümiləşdirən əsərlərin məz-

mununu biblioqrafik cəhətdən təhlil etmək, ayrı-ayrı sənədlər arasında əlaqəni müəyyən etmək mühüm məsələdir.

Biblioqrafiyalaşdırma zamanı məlumat tələbatının çoxcəhətliliyi, hadisə və obyektlərin hər hansı əlaməti üzrə sorğuların yaranmasının mümkünlüyünü nəzərə almaq lazımdır.

Eyni zamanda, elmi-köməkçi biblioqrafik mənbələr üçün hazırlanan məlumatlar elmi sənədlərin məzmunu, onların seçilməsi və öyrənilməsi ardıcıllığına təsir göstərir.

Elmi təbii, texniki və kənd təsərrüfatı mövzuları üzrə tövsiyə vəsaitləri üçün seçilən ədəbiyyatın təhlili elmi dünyagörüşünün formalaşmasına, oxucuların yeni ədəbiyyatı asan başa düşməsinə kömək edir.

Sənədlərin təhlili prosesi üç mərhələdən ibarətdir:

1.Sənədin məlumat əhəmiyyətinin qiymətləndirilməsi və biblioqrafik xarakteristika növünün seçilməsi.

2.Daha əhəmiyyətli məlumatların meydana çıxarılması məqsədilə sənədin məzmununun təhlili.

3.İkinci dərəcəli sənədi tərtib etmək üçün daha əhəmiyyətli məlumatların ümumiləşdirilməsi.

Birinci mərhələdə sənədin məlumat əhəmiyyəti qiymətləndirilir, onda hifz olunan məlumatlarin xarakteri, həcmi müəyyən olunur. Bu, sənədin mövzusunun aktuallığı, məzmunun orijinallığı, dəqiqliyi və dolğunluğu ilə əlaqədardir.

Beləliklə,birinci mərhələdə hər hansı bir sənədin bu və ya digər biblioqrafik vəsaitə daxil edilməsinin məqsədəuyğunluğu, məlumatın müqayisəsinin tam dərinliyi, adekvat biblioqrafik xarakteristika növü müəyyən olunur.

Biblioqrafik təhlilin ikinci mərhələsinin məqsədi əhəmiyyətli informasiyaların üzə çıxarılmasından və onun əhəmiyyətsiz məlumatlardan ayrılmasından ibarətdir. Bu zaman yeni məlumatlara, prinsipial vəziyyətlərə, daha maraqlı elmi konsepsiyalara, təklif və tövsiyə olunan yeni metodikaya xüsusi diqqət yetirmək lazımdır. Bu da ondan



irəli gəlir ki, ən yeni informasiyalar həqiqətən də minimum məhdudlaşdırmaya malik olur. Yəni həmin məlumatlar olduğu kimi referatın mətninə daxil edilir və o, annotasıyalaşdırma və biblioqrafik sistemləşdirmə zamanı əsas və başlıca obyekt hesab olunur.Yeni məlumatların oxucular tərəfindən daha asan dərk olunması üçün referata və ya annotasiyaya bir sıra məlum, tanış informasiya daxil edilir. Bu da yeni informasiya ilə əvvəlki, yəni məlum informasiyanı üzvi şəkildə birləşdirir. Sənədin təhlili zamanı təkrar sənəd mənbələrindən heç birinin vəsaitə daxil edilməsinə əsas verən elementlərin üzə çixarılması və aydınlaşdırılması da az əhəmiyyət kəsb etmir. Məsələn: təkrar sənəddə əks etdirilmiş nümunələr, mövzuya müraciət motivləri bu qəbildəndir.

Biblioqraf, yalnız əhəmiyyətli və əhəmiyyətsiz informasiyaları qarşılıqlı qaydada müəyyənləşdirdikdən sonra sənədin biblioqrafik xarakteristikasında mətnin hansı elementlərinin əks etdirilməsini qərarlaşdırır.

Qeyd etmək lazımdır ki, ən əhəmiyyətli məlumatlar sənədin məzmun elementlərinin və ilkin sənəd formaları elementlərinin hərtərəfli təhlili nəticəsində üzə çıxarıla bılər.

Forma elementləri dedikdə, sənədi sərbəst, müstəqil obyekt kimi xarakterizə edən sənədin xarici elementləri başa düşülür. Forma elementlərinə aşağıdakılar aiddir: müəllifin familiyası,sənəd obyektinin adı(sərlövhəsi), sənədin nəşr ili, nəşr yeri və s. Məzmun elementləri dedikdə isə aparılmış tədqiqatı xarakterizə edən obyektiv əlamətlər, elmi işləmələr, müəyyən obyektin istehsalı və ya elmi nəzəri fəaliyyətinin digər növləri , həmçinin müəllifin çap olunmuş (əlbəttə mövzu ilə bağlı) əsərləri və s. başa düşülür. Sənədin ən əhəmiyyətli məzmun elementləri təbiətşünaslıq, texnika və kənd təsərrüfatının hər hansı bir sahəsi üçün ümumi elementlər kimi nəzərdən keçirilə bilər. Məsələn, bütün sahələr üçün ümumi hesab edilən elementlərə tədqiqatın obyekti və ya sahəsi; obyektin xüsusiyyəti və ya tədqiqatın

xarakteri: fəaliyyətin müvəqqəti əlamətləri; obyektin yayılma əlamətləri; tədqiqatın məqsədi və işlənilməsi; tədqiqatın metodu və elmi işləmələri aiddir. Sənədin məzmunun bir elementinin mövcud olmamasına görə,sənəd özünün inandırıcılığını itirmir və tam dərk olunan formada qalır. Məsələn, tədqiqatın işlənməsi yeri belə element hesab olunur. iki elementin olmaması şəraitində sənəd öz əhəmiyyətini qismən itirir. Nəzarət və ya eksperiment vaxtı tədqiqat metodları həmin elementlərə aiddir. Üç məzmun elementi olmadısa sənəd-məlumat tamamilə başa düşülməz olur. Məsələn, tədqiqatın məqsədi olmadıqda bu mülahizə olunur. Bunlar ilkin sənədin təhlili prosesində mütləq nəzərə alınmalıdır. Müsbət təşəbbüs kimi son illər məzmun təhlili prosseslərini yüngülləşdirmək və normallaşdırmaq üçün formallaşdırılmış metodlar tədbiq olunmağa başlanılmışdır. O cümlədən də poaspekt (anket),faset və kontent-təhlil metodları bu qəbildəndir.

Poaspekt (anket) təhlil metodunun əsas mahiyyəti ondan ibarətdir ki, konkret mətnlər anket formasında təqdim olunan, qabaqcadan verilmiş suallar siyahısına uyğun olaraq işlənir. Təbiətşünaslıq,texnika və kənd təsərrüfatının müxtəlif sahələrində konkret obyektlər, proseslər və hadisələr üçün həm ümumi,bununla yanaşı həm də ixtisaslaşdırılmış anketlər işlənib hazırlanır. Anket metodundan istifadə olunması yalnız sənədin aspektini (cəhəti) aydınlaşdırmağa imkan verir, lakin onun daha geniş təfsilatı ilə açılması üçün imkan vermir.

Son illərdə təbii-elmi, texnika və kənd təsərrüfatı ədəbiyyatının sənədin biblioqrafik vasaitə daxil edilməsi məqsədilə təhlilində faset təhlil metodu daha geniş yayılmışdır. Faset termini iki nöqtəli təsnifatın əsasını qoymuş Ş.R.Ranqanatan tərəfindən təklif edilmişdir. O, mətnin əsas cəhətlərini ifadə edir. Bu nöqteyi-nəzərdən predmet müəyyən bilik sahəsinin daxilində nəzərdən keçirilə bilər. Ş.R.Ranqanatan bu termini (anlayışı) çox geniş mənada



istifadə edirdi. Bu termin həm də yalnız sənədin kateqoriyasını deyil, əsas şöbələri (sinifləri), kateqoriya daxilində təsnifatın əsasını ifadə edən vahid anlayışdır. İki nöqtəli təsnifata faset -«vahid məzmunca birləşmiş iyerarxik anlayışlar sırası» təsnifatı da deyilir.

Faset metodunun üstünlükləri aşağıdakılardan ibarətdir: müəyyən kateqoriya (faset üzrə) üzrə mətnin dəqiq ardıcıllıqla təhlili; sənədin məzmununun qısa ldılmış formada verilməsi zamanı təhlilin son dərəcədə dəqiq olması.

Anket və faset metodlarının istifadə olunması istər annotasiyalaşdırma,istərsə də referalatlaşdırma və həmçininin sistemləşdirmə prosesində sənədin məzmun təhlilini daha da əhəmiyyətli şəkildə zəngilləşdirir.

Kantent-təhlil isə nəzarətdə mühüm rol oynayan bəzi elementlərin üzə çıxarılması əsasında çoxsaylı mətnlər kütləsinin formalaşdırılmış seçilməsi yolu ilə həyata keçirlir. Həmin elementlərin statistik üsulla öyrənilməsi və alınmış məlumatların sistemləşdirilməsi nəticəsində onlar kəmiyyət xarekteristikasına çevrilir ki, bu da tutuşdurmaq və dərk etmək üçün real imkan yaradır. Onların şərh olunması bir sıra qanunauyğunluqları, ənənələri, ayrı-ayrı məlumatları (məsələn,elmi kollektivin və ya fərdi tədqiqatının problemin öyrənilməsindəki xidməti, mözunun dərinliyi və işlənilməsi mərhələsi və s.) müəyyən etməyə imkan verir. Məhz bunu da yalnız digər sənədlərin məzmun fonunda üzə çıxarmaq mümkündür.

Təhlilin ikinci mərhələsində tətbiq olunan formallaşdırılmış metodlar obyektiv biblioqrafik xarakteristikanın sonrakı təhlili üçün sənədin məzmununun öyrənilməsinin daha da dərinləşdirilməsinə istiqamətləndirilir.

Üçüncü mərhələdə təkrar sənədin tərtibi üçün daha əhəmiyyətli məlumatların ümumiləşdirilməsi həyata keçirilir. Bu zaman qəbul olunan metodiki qərar tamamilə məlumatın məhdudlaşdırılmasının müəyyən səviyəsinə

müvafiq biblioqrafik xarakteristikanın seçilmiş növündən aslıdır. Məhdudlaşdırmanın birinci səviyyəsində üzə çıxarılmış forma elementlərinin normalaşdırılmış düzülüşü həyata keçirilir ki,nəticədə də biblioqrafik təsvir olunur. Nəhayət, üçüncü səviyyədə sənədin axtarış obrazı yaradılır.

Biblioqrafik təsvir biblioqrafik qeydin mühüm tərkib hissəsi hesab olunur. Onun əhəmiyyəti siqnal ədəbiyyat göstəricilərinin hazırlanması ilə daha da artır. Bu da hər şeydən əvvəl, məlumatvermənin operativliyini yüksəltmək məqsədilə əks etdirilən materialların annotasiya və referata daxil edilməsi ilə bağlıdır. Elmi-təbii, texniki və kənd təsərrüfatı ədəbiyyatının biblioqrafik təsviri bir çox hallarda yalnız sənədin məzmunu haqqında deyil, həm də müəyyən oxucu dairəsi üçün əhəmiyyəti haqqında fikir yürütməyə imkan yaradır. Təsvirin məlumatlılıq baxımından daha mühüm elementləri sırasına sərlövhə və sərlövhəaltı məlumatlar daxildir. Onlar sənədin sahəvi mənsubiyyətini, onun tematikasını (prosesin təsviri və ya hadisə, avadanlıq və s.), janr xüsusiyyətlərini (baş məqalə, resenziya, xülasə və i.a.) xarakterizə olunur. Təbiətşünaslığa dair çap olunmuş və çap olunmamış materialların sərlövhə və sərlövhəaltı məlumat kütləsi, digər elm sahələrinə dair sənədlərin sərlövhəsi ilə müqayisədə daha əhəmiyyətlidir. Mətnlərdə xüsusi terminologiya və simvolların sərlövhələrinin geniş istifadə olunması ilkin sənədin məzmununun verilməsi imkanlarını yüksəldir, işin adının xarici dillərdə mənasını dərk etməyi yüngülləşdirir. Məzmun haqqında təsdiq olunmanın sərtləşdirilməsi müəllif və yaradıcı-təşkilat haqqında məlumat əldə etməyə imkan verir. Əgər, müvafiq sahənin oxucuları üçün fəaliyyəti daha çox maraq doğuran tədqiqat idarələri və alimlər qrupu üçün məlumdursa, adlarını çəkdiyimiz təsvir elementləri ədəbiyyatı onun məlumat qiyməti baxımından xarakterizə edə bilər.

İlkin sənədin (məsələn, hesabat, patent, standart) növü haqqında biblioqrafik təsvirdən alınan məlumatın



onun nəşri vaxtı haqqında məlumatla (və ya kəşfə, ixtiraya sifariş verilməsi) uyğunlaşdırılması müəyyən dərəcədə təqdim olunan informasiyanın aktuallığı haqqında mühakimə yürütməyə imkan verir. Jurnalın və ya məcmuənin sərlövhəsi (adı) məqaləyə verilirsə, bir çox hallarda onun məqsəd və oxucu istiqaməti haqqında fikir söyləməyə şərait yaradır. Təbiətşünaslığa dair vətən və xarici elmi – köməkçi göstəricilərin hazırlanması zamanı qəbul olunmuş sənədlərin bütün müəllifləri haqqında məlumatın təsvirə daxil edilməsi işin səviyyəsini əhəmiyyətli dərəcədə xarakterizə edir. Lakin, ədəbiyyatın yalnız müvafiq biblioqrafik təsvir əsasında üzə çıxarılması, bir çox hallarda, onun əhəmiyyətli hissəsi qeyri-relevant mahiyyət kəsb edir. İlkin sənədin məzmununu açan annotasiya və referatlar biblioqrafik qeydin məlumatlılığını əhəmiyyətli şəkildə yüksəldir.(6)

Annotasiyalaşdırma və referatlaşdırma prosesləri ilkin sənədin məzmununun açılması dərinliyinə görə fərqlənir. Nəticədə sahə ədəbiyyatının annotasiyalaşdırılması – nəşrin mövzusunu, onun struktur quruluşunu, məqsəd və ideya istiqamətini açan qısa və ümumiləşdirilmiş xarakteristikasının tərkibindən ibarətdir. Referatlaşdırma prosesində isə ilkin sənədin məzmununun qısa şərtini özündə əks etdirən geniş xarakteristikası tərtib olunur.(3)

Annotasiya və referatın tərtibi metodikası biblioqrafik vəsaitin məqsəd və oxucu istiqamətindən asılıdır. Elmi-köməkçi göstəricilər üçün müxtəlif tipli annotasiya və referat tərtib olunur. Belə ki, nəşr olunmuş və çap olunmamış materialların məzmununu tam və dəqiq əks etdirən annotasiya və referatlar tərtib edilir. Təkrar sənədin tamlığı dedikdə, mətnin daha əhəmiyyətli elementlərinin (nəzəri fikirlər, faktik material) hamısının orada əks etdirilməsi başa düşülür. Təkrar sənədin dəqiqliyi dedikdə isə, ilkin sənəddə nəzərdən keçirilən ayrı-ayrı məsələlərin mühümlüyü və onun işıqlandırılması dərəcəsi nəzərə alınmaqla, ilkin

sənədin məzmununun adekvat formada tələbatçıya çatdırılması başa düşülür.

Göstərdiyimiz vəzifələrin yerinə yetirilməsi anket metodunun tətbiqi yolu ilə ilkin sənədin təhlili prosesinin formallaşdırılmasına imkan yaradır. Ümumi anketlər müvafiq elmlərin hər hansı sahəsində istifadə olunur. Lakin bu işdə bəzi çatışmazlıqlar var ki, onlar da müxtəlif sahələrin spesifik xüsusiyyətlərini nəzərə almır. İxtisaslaşdırılmış anketlər daha geniş və konkret olur və buna görə də xidmət olunan mütəxəssislərin tələbatı ətraflı əks etdirilir. Bunu aşağıdakı nümunədən daha aydın görmək mümkündür.

Materialın təsviri ilə sənədin məzmununun təhlili üçün tərtib olunan ümumi anket «materialın adı», «quruluşu», «xüsusiyyəti» və i.a. kimi cəhətləri özündə əks etdirir. Bununla yanaşı qeyri-üzvi kimya üçün işlənib hazırlanmış yaddaşda (suallar) göstərdiyimiz cəhətlər başqa formada verilir. Məsələn: «maddənin adı və formulu», «spektrın tipi», «molekulun tipi», «maddənin aqreqat vəziyyəti», «fiziki xüsusiyyətlər», «kimyəvi xüsusiyyətləri» və s.

İlkin sənədin məzmununun təhlili planı kimi yaddaş əhəmiyyətli məlumatları nəzərdən qaçırmamağa imkan verir. O, mətnin üzə çıxarılmış elementlərinin təkrar sənədə daxil edilməsi tamlığını ümumiləşdirən vasitə kimi çıxış edir. Bu zaman tərtibatçı anketin elə cəhətlərinə diqqəti cəlb edə bilər ki, onlar xarakterizə olunan iş üçün əsas hesab olunur. Həm də annotasiya və ya referatı bu məsələ və ya cəhətin xarakteristikası ilə başlamaq lazımdır.

Təkrar sənədlərdə yalnız ilkin sənədlərin məzmunun əlamətləri deyil, onun janr xüsusiyyətləri (məsələn: nəzəri və ya eksperimental tədqiqat, sınaq, tətbiq və s.) əks etdirilir. Eyni zamanda cədvəllərin, qrafiklərin, layihələrin, şəkillərin, xəritələrin də məzmununu xarakterizə edir. Üzə çıxarılmış məlumatların tələbatçılara çatdırılması tamlığı hər şeydən əvvəl təkrar sənədin xarakterindən asılıdır.



Məsələn, annotasiya funksional məqsədinə görə məlumat və referativ annotasiyalara bölünür.

Məlumat annotasiyası anket suallarına verilən ən yığcam cavabların məzmunundan ibarətdir. Yəni, ilkin mənbədə nəzərdən keçirilən problemlərin, onların işıqlandırma dərəcəsini göstərməklə siyahısını, ilkin sənədin məqsəd istiqaməti, onun janrı və quruluşu haqqında məlumatları əks etdirir. Məlumat annotasiyası olduqca yığcam olmalıdır. Biblioqrafik təsvirə münasibətə dair dəqiqləşdirmə funksiyasını yerinə yetirən anotasiya sənədə geniş münasibəti, tənqidi fikri tələb etmir. Məlumat annotasiyası xüsusilə ümumi və elmi-köməkçi biblioqrafik göstəricilərdə daha geniş tətbiq olunur. Tövsiyə göstəricilərinin tərtibi zamanı isə məlumat annotasiyası əsas etibarilə məlumat nəşrlərinin, tədris-metodiki ədəbiyyatın, biblioqrafik vəsaitlərin, əsasnamələrin və digər sənədlərin xarakteristikası məqsədilə tətbiq olunur.

Referativ annotasiya məlumat annotasiyasının bütün sistemlərini özündə əks etdirməklə yanaşı, əsas faktik məlumatlar haqqında daha müfəssəl məlumat verir.

İnformasiya xarakterli referatlarda çap olunmamış işlərdə və nəşr olunmuş materiallarda nəzərdən keçirilən proseslər və ya hadisələrin mahiyyəti ətraflı şərh olunur. Anketin suallarına uyğun olaraq onlarda (informasiya referatlarında) müəllifin arqumenti, nəticələri və tövsiyələri verilir, istifadə olunmuş metodika, avadanlıq və materialın xüsusiyyəti xarakterizə olunur, alınan nəticələrin tətbiqi sahəsi göstərilir. Genişləndirilmiş referat ilkin mənbənin mətnini özündə əks etdirir. Lakin, ikinci dərəcəli detallar, izahedici məlumatlar, həmçinin illustrasiya elementləri ilkin mənbənin mətnindən çıxarıldıqdan sonra referata daxil edilir.

Bu və ya digər məlumatın müfəssəl, yaxud yığcam şəkildə əks etdirilməsi dərəcəsi yalnız təkrar sənədin növündən deyil, həmçinin bu məlumatların özlərinin

əhəmiyyətindən asılıdır. Müvafiq sahə ədəbiyyatına dair məlumat və referativ annotasiyalara, həmçinin referatlara, yeni ideyalar haqqında informasiyaların, ilk dəfə alınmış eksperimental məlumatların, yeni metodikanın daxil edilməsi çox zəruri və mütləqdir.

Bu materialları (nəzarət və ya eksperiment üçün istifadə olunan əsas faktik məlumatlar, ənənəvi metodika, məlum avadanlıq və s.) açan, illüstrasiya edən məlumatlar məlumat və referativ annotasiyalara daxil edildikdə əhəmiyyətli dərəcədə ixtisara məruz qalır. Nümunələr, qabaqcıl təcrübənin xülasəsi, müvafiq tədqiqatın zəruriliyi motivləri və ya işləməsi təkrar sənədə ya tamamilə daxil edilmir, və yaxud da ancaq yada salınır.

Mütəxəssislərin məlumat tələbatının differensasiyasının sürətli inkişafı obyekt və hadisələrin (məsələn, yalnız tədqiqat metodları üzrə və ya yalnız nəticələrdən praktiki istifadə imkanları üzrə) nəzərdən keçirilən ayrı-ayrı cəhətləri və sair problemləri üzrə ədəbiyyatın təqdim olunması zəruriliyini irəli sürür. Bir sıra hallarda isə sənədin tam xarakteristikasını deyil, onun müəyyən bir hissəsinin xarakteristikasını tələb edir.

Buna əsaslanaraq demək lazımdır ki, sənədin xarakteristikası üsuluna görə annotasiya – ümumi, analitik və qrup halında annotasiyalara bölünür.

Sənədin bir hissəsi haqqında məlumat verən məhz analitik annotasiyadır. Analitik annotasiya sənədin yalnız bir hissəsini açır və annotasiyalaşdırılan əsər biblioqrafik vəsaitin mövzusuna tamamilə deyil müəyyən mənada aid olduqda tətbiq olunur. Analitik annotasiyanın başlıca vəzifəsi annotasiyalaşdırılan sənədin hansı hissəsi və cəhəti biblioqrafik vəsaitin bu və ya digər bölməsinə uyğun gəlməsini göstərməkdən ibarətdir. Analitik annotasiyanın iki əsas cəhəti fərqləndirilir. Bunlardan birincisi annotasiyalaşdırılan əsərin müəyyən cəhətini açır. İkincisi, əsərin müəyyən hissəsini ayırmağa xidmət edir.



Belə olan halda təhlil nəticəsində sənədin bölməsi və ya cəhəti üzə çıxarılır. Sənədin mətninin qalan hissəsi isə biblioqrafik göstəricinin məzmun istiqamətinə uyğun gəlmədiyi üçün təkrar sənədə daxil edilmir. Bu metodla tərtib olunan təkrar sənəd ixtisaslaşdırılmış vəsait adlandırılır.

Təkrar sənədin ixtisaslaşdırılmış xarakteristikası zamanı, annotasiya və ya referatın əvvəlində həmin problemin ilkin mənbənin mətnində nə dərəcədə müfəssəl işıqlandırılması, həmin problemin işin əsas mövzusu səviyyəsində və ya başqa məsələlərlə əlaqədə nəzərdən keçirilməsi mütləq qeyd olunmalıdır.

Annotasiya və referatlarda məlumatın təqdim olunmasının ənənəvi forması əlaqə mətni hesab olunur. Lakin bəhs edilən sahələrə dair təkrar sənədlərin əyaniliyinə cəhd göstərilməsi onun yeni formalarını meydana gətirmişdir. Bunlar cədvəl və qrafik formalardan ibarətdir.

Məlumatların təqdim olunmasının cədvəl forması çox sayda faktik məlumatların verilməsi zəruriliyi ortaya çıxdıqda tətbiq olunur. Annotasiya və referatlarda tətbiq olunan qrafik forma isə kimya üzrə ədəbiyyat göstəricilərində geniş yayılmışdır. Belə ki, kimya sahəsinə dair referatlara əsas birləşmələrin formulaları və ayrı-ayrı reaksiyalar daxil edilir. Bununla yanaşı təkrar sənədə böyük olmayan mətn hissə də daxil olunur.

Bu cür referatlar VİNİTİ-nin hazırladığı «Ftor» avtomatlaşdırılmış məlumat axtarış sistemində və amerika göstəricilərində tərtib olunur. Həmin referatlar standart formaya malikdir və hər bir məzmun elementi ciddi surətdə müəyyən olunmuş yerdə durur. Annotasiya və referatlarda məlumatın təqdim olunmasının qrafik üsulu biblioqrafik ədəbiyyat göstəricisinin nəzərdən keçirilməsi vaxtını əhəmiyyətli dərəcədə azaldır.

Son illərdə tətbiq olunan maşınla tərtib etmə metodu (avtomatlaşdırılmış referatlaşdırma) ilkin mənbənin mətnin-

dən çıxarış edilmiş ayrı-ayrı anlayışların, söz birləşmələrinin, əlavələrin siyahısını özündə əks etdirən təkrar sənədlərin yaranmasına gətirib çıxarır. Bu məzmunlu hissələrin əhəmiyyəti onların bir-birilə əlaqəsi ilə, mətndə yerləşdirildiyi yerlə, onların təkrarlanmasının təhlili yolu ilə müəyyən olunur. Maşınla xarakterizə olunmanın şübhəsiz üstünlüyü ondan ibarətdir ki, o, əllə tətbiq olunan metodlarla müqayisədə operativdir və onun hazırlanması üçün xərc də az çəkilir. Lakin maşınla hazırlanmış xarakteristika ilkin sənədin məzmununu dərindən və tam əks etdirə bilmir. Ona görə də bu cür xarakteristikalar mütəxəssis tərəfindən hazırlanmış referatı qətiyyən əvəz edə bilmir. Bununla yanaşı qeyd etməliyik ki, avtomatlaşdırılmış referatlaşdırmanın nəzəri əsaslarının və metodlarının işlənilməsi mütəxəssislərin diqqətini özünə cəlb etmiş və bundan sonra da cəlb edəcəyinə heç bir şübhə ola bilməz.

Yuxarıda göstərdik ki, məlumat annotasiyalarının növlərindən biri də tövsiyə annotasiyasıdır.Tövsiyə annotasiyası müvafiq biblioqrafik vəsaitin ünvanlandırıldığı oxucu qrupunun tələbatına, hazırlıq səviyyəsinə, yaşına və digər xüsusiyyətlərinə uyğun olaraq sənədi qiymətləndirir və xarakterizə edir. Tövsiyə annotasiyasının əsas məqsədi ən yaxşı ədəbiyyatı təbliğ etmək, tövsiyə olunan ədəbiyyata tələbatçının diqqətini cəlb etmək, onu maraqlandırmaqdan və s. ibarətdir. Tövsiyə annotasiyalaşdırması məqsədyönlü, sistemli mütaliənin düzgün təşkilinə köməklik göstərməli, ədəbiyyatın öyrənilməsinə təsir etməlidir. Ona görə də tövsiyə annotasiyasında elementlər, müxtəlif xarakterli metodiki məsləhətlər və tövsiyələr əhəmiyyətli yer tutur.

Biblioqrafik sənədi qiymətləndirərkən əsasən tənqidi məqalələrə, xülasələrə, resenziyalara, elmi müzakirə materiallarına, soraq ədəbiyyatına, əvvəllər nəşr olunmuş biblioqrafik vəsaitlərə (mövzu ilə əlaqədar) və digər müvafiq mənbələrə əsaslanır. Bununla yanaşı, bir çox hallarda annotasiyalaşdırılan ədəbiyyata biblioqrafın şəxsi münasibəti,



onun hazırlıq dərəcəsi, şəxsi qabiliyyəti, təhsili həll edici rol oynayır.

Onu da qeyd etmək lazımdır ki, tövsiyə annotasiyası şəxsi təhsil, kütləvi-maarifçilik məqsədi daşıyan vəsaitlərdə tərtib olunur. Həmçinin tövsiyə annotasiyası bəzi hallarda elmi-köməkçi vəsaitlər üçün də hazırlanır. Bu o hallarda olur ki, ilkin sənədin elmi nöqteyi-nəzərdən daha əhəmiyyətli və qiymətli cəhətləri xarakterizə edilir. Bu da hər şeydən əvvəl məlumat annotasiyasından fərqli olaraq tövsiyə annotasiyasının biblioqrafik informasiyanı qiymətləndirmə funksiyasından irəli gəlir.

Oxucunun elmi görüş dairəsini genişləndirməyə kömək göstərən biblioqrafik vəsait üçün tövsiyə annotasiyasının tərtibi prosesi, elmi-köməkçi ədəbiyyat göstəriciləri üçün annotasiyanın tərtibi prosesindən bir qədər fərqlənir. Belə ki, məqsədyönlü təbliğat ədəbiyyatın qiymətini müəyyənləşdirməyə imkan verir. Yuxarıda göstərdiyimiz kimi tövsiyə annotasiyası üçün sənədi qiymətləndirə bilən məlumatlar, nəşrin mürəkkəbliyini göstərən faktlar və cəhətlər daha xarakterikdir və onlar mütləq annotasiyada öz əksini tapmalıdır. Elmi-köməkçi biblioqrafik vəsaitlər üçün isə bu göstərdiyimiz cəhətlər xarakterik hesab olunmur.

Tövsiyə annotasiyalaşdırması prosesində təhlilin anket metodu da tətbiq edilə bilər. Sənədin tövsiyə annotasiyasında əks etdirilən əsas cəhətləri aşağıdakılardır: nəşrin (sənədin) müəllifi haqqında məlumat; nəzərdən keçirilən məsələnin və ya problemin mahiyyəti; əsərin elmi qiyməti və aktuallığı, elmi dünyagörüşünün formalaşması üçün onun əhəmiyyəti, əsas ideyaların və müəllifin gəldiyi nəticələrin orijinallığı; oxucu istiqaməti, çap əsərinin dərk olunması üçün münasib olması.

Tövsiyə annotasiyası elmi-kütləvi ədəbiyyat sistemində, canlı və dərk oluna biləcək bir dildə yayılmalıdır. Hazır olan tövsiyə annotasiyası son anda məlumat annotasiyasından bir o qədər də fərqlənmir. Bu da annotasiyada

elementlərin düzülüşündən asılı olur. Tövsiyə annotasiyasında elementlərin düzülüş ardıcıllığı, bu məlumatlardan hansının tərtibatçı üçün daha əhəmiyyətli və maraqlı olmasından asılıdır. Tövsiyə annotasiyasının quruluşundakı vahidlik hətta bir biblioqrafik vəsaitin daxilində məcburi deyil. Belə ki, eyni vəsaitin daxilində tövsiyə annotasiyaları müxtəlif quruluşda ola bilər.

Tövsiyə annotasiyasının müxtəlif formada tərtibi, nəhayət onun üç əsas formasını yaratmışdır. Bu da hər şeydən əvvəl sənədin xarakteristikasından asılı olur. Bunlar ümumi, analitik və qrup halında tərtib olunan tövsiyə annotasiyalarından ibarətdir. Ümumi annotasiya sənədi (əsəri) bütünlükdə xarakterizə edirsə, analitik annotasiya əsərin bir hissəsini, cəhətini xarakterizə edir. Qrup halında annotasiya isə məzmun etibarilə bir-birinə yaxın olan bir neçə sənədi birgə xarakterizə edir.

Tövsiyə-analitik annotasiya iki formada – a) əsərin müəyyən aspektini açan; b) əsərin müəyyən hissəsini ayıran; tövsiyə-qrup annotasiyası üç formada – a) bir neçə əsərin ümumi tövsiyəsi; b) əsərləri məcmuəsinin ümumi xarakteristikası; c) annotasiyanın mətnində başqa əsərin xarakteristikası zamanı tərtib olunur.

Çap əsərinin məzmununun sistemləşdirilməsi hər hansı təsnifat sxeminin müvafiq bölmələrinə uyğunlaşdırılır. Bununla da sənədin yeri müəyyən olunur, onun başqa materiallarla əlaqəsi üzə çıxarılır. Nə qədər ki,bu cür əlaqə müxtəlif planlıdır (ümumi mövzusu, müəllif kollektivi, janr xüsusiyyətləri və s.) sistemləşdirmə prosesində sənədin çox cəhətli əksinə çalışılır. Məhz bu da yalnız sənədin məzmununu deyil, həmçinin əsərin yarandığı vaxtı və yeri, onun janr xüsusiyyətini və s. xarakterizə edən çoxkomponentli, mürəkkəb axtarış obrazının tərkibinə gətirib çıxarır. Sənədin sahəvi mənsubiyyəti və mövzusu, yəni özünə məxsus məzmun əlamətləri təsnifat sxemlərində, predmet rubrikalarında və ya açar sözlərdə indekslərlə əks etdirilir.



Əgər, təbiətşünaslığa dair biblioqrafik vəsait predmet prinsipi əsasında qurulursa, bu zaman predmet rubrikaları tətbiq olunur. Ədəbiyyatın sistemli düzülüşü hallarında isə sistemli qruplaşdırma zamanı əsas götürülən təsnifat sxemində qəbul olunmuş bölmə və yarımbölmələrin indeksləri göstərilir. Predmet düzülüşündə köməkçi açarın düzülüş üsulu axtarış obrazı kimi təsnifatın indeksinə və predmet rubrikasına daxil olur. Axtarış əlamətlərindən çoxu (məsələn: müəllifin inisialı, təşkilatın və firmanın adı, ixtiraların və standartları təsvir nömrəsi və sinfi) formal hesab olunur və mətndən sitat gətirilən zaman fikirləşmək tələb etmir. Həmin axtarış əlamətlərini əvvəlcədən yaradılmış sözlüklərlə (təsnifatla, predmet rubrikalarının siyahısı və s.) eyniləşdirmək, uyğunlaşdırmaq olmaz.

Belə ki, həmin axtarış əlamətləri sinonimlərin kənarlaşdırılmasına və ya yaradılmasına ehtiyac duymurlar. Ona görə də formal əlamət üzrə qruplaşdırma və sistemləşdirməni daha asan avtomatlaşdırmaq mümkündür.

Məzmun əlamətləri əksər hallarda hər hansı sözlüklə əlaqələnir. Belə bir proses məzmun indeksləri ilə nizama salınan proses hesab olunur. Leksikanın sonrakı normallaşdırılması olmadan sənədin (əsərin) mətnindən daha əhəmiyyətli sözlərin (açar sözlərin) üzə çıxarılması yolu ilə axtarış obrazının tərtibi indekslə nizama salınmayan proses hesab edilir. Məzmun indeksləşdirilməsi nizamlama prinsipinin həyata keçirildiyi nəşrlərə misal olaraq referativ jurnalları göstərə bilərik. İndeksləşdirmə ilə nizamlanmayan proses isə ABŞ-da permutasion göstəricilərin hazırlanması zamanı istifadə olunur.

Göstərmək lazımdır ki, hazırda açar sözlərin üzə çıxarılması və qruplaşdırılması çox asanlıqla avtomatlaşdırılır. Buna görədir ki, permutasion göstəricilər operativ surətdə və az vəsait sərf etməklə hazırlanır. Lakin açar sözlərlə indeksləşdirmə (sistemləşdirmə) müəyyən mənada istənilən nəticəni əldə etməməyə də səbəb ola bilər. Bu, bir

tərəfdən, axtarış zamanı çoxlu vaxt itkisi ilə əlaqədardırsa, digər tərəfdən qeyri-relevant informasiyanın verilməsi ilə bağlıdır. Məhz bu səbəblərdən də açar sözlərlə sistemləşdirmənin geniş yayılma imkanları məhdudlaşır.

Təbiətşünaslıq, texnika və kənd təsərrüfatı ədəbiyyatı üçün nəzarət olunan məzmun indeksləşdirməsi keyfiyyətində hər şeydən əvvəl sistemli (cari göstəricilərin tərtibi üçün) və mövzu və ya problem-mövzu (retrospektiv göstəricilərin tərtibi məqsədilə) sistemləşdirilməsi istifadə olunur. Buna əsasən də ədəbiyyat göstəricisinin (cari və ya retrospektiv) rubrikalarının əsas sırası yaranmış olur.

Predmetləşdirmə, həmçinin formal əlamətlərdən istifadə olunması hər hansı biblioqrafik vəsaitə çoxlu sayda köməkçi açarın (aparatın) tərtib olunmasına imkan verir. Kombinasiya edilmiş müxtəlif növ sistemləşdirmənin məcmusu sənədin məzmununu çoxcəhətli əks etdirməyə real imkan verir.

Yalnız biblioqrafik təsvirin bazası əsasında sistemləşdirmə sənədin məzmununun bütün dəqiqliyi isə açılmasını təmin etmir. Bununla yanaşı tam mətn üzrə sistemləşdirmə son dərəcə çox vaxt və zəhmət tələb edir. Ona görə də hazırda biblioqrafik təsvir, annotasiya və referat əsasında axtarış obrazının (köməkçi aparatın) tərtibi daha geniş yayılmışdır.

Nəhayət, qeyd etməliyik ki, biblioqrafik təhlilin haqqında bəhs etdiyimiz bütün proseslər qarşılıqlı əlaqədardır və ilkin sənədə uyğun olaraq tələb olunan həqiqi informasiyaları əks etdirir.

## ƏDƏBİYYAT


*1. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının bəzi metodik məsələləri// Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası/ Azərbaycan Dövlət Universiteti.- 1978. -№1- S.26-38.*

*2. İsmayılov N. Vəzirova R. Biblioqrafik tərtibatın metodikası.-B.:Mütərcim, 2004.-52s.*

***

*3.Библиография естественнонаучной литературы.- М.: «Книга», 1983.-С.134-146*

*4.Библиографическая работа в библиотеке: организация и методика. Учебник.-М.: «Книжная палата», 1990.- 254с.*

*5.Библиография техники. Ч. Ы.-М., 1975.-С.174-219.*

*6.Леонов В.П. Рефарирование и аннотирование научно-технической литературы.-Новосибирск, 1986.-С.12*

*7.Справочник библиографа/ науч.ред.: А.Н.Ванеев, В.А.Минкина.-СПБ.: Професcия, 2002.- 528с.*



***Надир Исмаилов***


## НЕКОТОРЫЕ ВОПРОСЫ БИБЛИОГРАФИЧЕСКОГО АНАЛИЗА ЕСТЕСТВЕННО, ТЕХНИЧЕСКОЙ И СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ЛИТЕРАТУРЫ

### РЕЗЮМЕ


*В статье излагается научно-теоретической уровни библиографического анализа естественнонаучной, технической и сельскохозяйственной литературы в контексте традиционной методики библиографирование источников информации.*

*Raifə VƏZİROVA*
*Baş müəllim*

## ELEKTRON BİBLİOQRAFİK MƏLUMAT BAZASI SBA-NIN ƏSAS TƏRKİB HİSSƏSİDİR

İnformasiyalı cəmiyyətin yaradılmasında və təkmilləşdirilməsində informasiya ehtiyatlarını toplayan, gələcək nəslə ötürən, informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxananın rolu əvəzedilməzdir.

Artıq müasir informasiyalı cəmiyyətdə kitabxananın kommunikasiya sistemində əhəmiyyəti o qədər artmışdır ki, kitabxanasız cəmiyyətin informasiya təminatını ödəmək mümkün deyil. Kitabxana cəmiyyətdə elmin və mədəniyyətin inkişafında təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir (5. s.4). Hər bir şəxsin, qrupun, kollektivin inkişafı mövcud informasiyaları axtarmaq və istifadə etmək bacarığından asılıdır. Bu şagirddən tutmuş alimə qədər bütün insanlara həm gündəlik, həm də gələcək fəaliyyətini daha səmərəli qurmaq üçün lazımdır. Müəyyən tarixi dövrdə yaradılmış informasiyaların toplanması, mühafizəsi və sonradan istifadəsi məhz kitabxana vasitəsilə mümkündür. İnformasiyalı cəmiyyətdə əsas diqqət informasiya ehtiyatlarına yönəlir.

İnformasiya ehtiyatları insanlar tərəfindən sosial istifadə üçün yaradılmış və müxtəlif maddi daşıyıcılara köçürülmüş, yazılmış biliklərdir.

İnformasiya xidməti istifadəçiyə verilən informasiya məhsullarıdır. İnformasiya xidməti ancaq məlumat bazalarının ənənəvi və ya kompüterləşdirilmiş xidmət formalarında icra edilir. Məlumat bazası informasiya xidmətini həyata keçirmək üçün əsas mənbədir.



İnformasiya məhsulları və xidmətlərinin istifadəsi baxımından məlumat bazaları biblioqrafik və qeyri-biblioqrafik bazalara bölünür. (8)

Biblioqrafik məlumat bazaları referat və annotasiyalar da daxil olmaqla, sənədlərə dair ikinci növ informasiyaları mühafizə edir. Qeyri-biblioqrafik məlumat bazaları bir çox növlərdən ibarətdir. onlardan soraq-xarakterli məlumat bazaları (ünvanlar, hərəkət cədvəli, mağaza telefonları və s); tam mətnli məlumat bazaları. Belə bazalar əsasən İnternetin məlumat bazaları Web saytlar kitabxana və arxiv fondlarıdır; maliyyə məlumat bazaları-firmalara, banklara, birjalara və obyektlərə dair informasiyalardır:

Hər bir kitabxananın biblioqrafik məlumat bazası onun SBA-da cəmləşir.

Soraq-biblioqrafiya aparatı bütün tip kitabxanaların biblioqrafik fəaliyyətinin zəruri əsası olmaqla oxuculara biblioqrafik informasiya, soraq-biblioqrafiya xidmətini, tövsiyə biblioqrafiya fəaliyyətini həyata keçirməyə imkan verir. Onun vasitəsilə biblioqrafik vəsaitlərin tərtibi üçün lazım olan ədəbiyyat meydana çıxarılır və biblioqrafik biliklər təbliğ edilir. SBA-nın təşkilində əsas məqsəd kitabxana fondunun məzmununu tam, həm də müxtəlif aspektlərdə analitik şəkildə açmaqdan ibarətdir. SBA özündə adətən çap əsərləri və ya kataloq kartoçkası formasında ikinci sənədlər kütləsinin məcmuunu əks etdirir. Bu hər şeydən əvvəl həmin sənədlərin əhəmiyyəti və onlarda qiymətli biblioqrafik məlumatların olması ilə xarakterizə olunur. Beləliklə, SBA-nın şərhini aşağıdakı kimi ümumiləşdirmək olar. SBA sənədli məlumat axtarış sistemi olub biblioqrafik, kitabxana və faktoqrafik məlumatın təbliği, axtarışı və verilməsinin optimallaşdırılması məqsədi daşıyır. (12)

SBA-nın tərkibi və həcmi kitabxananın məlumat ehtiyatlarının inkişaf dərəcəsi və kitabxana biblioqrafiya xidmətinin həyata keçirilməsi xüsusiyyətləri ilə xarakterizə olunur. SBA-nın təşkili hər şeydən əvvəl cəmiyyətin daimi mə-

lumat tələbatının ödənilməsi məqsədini daşıyır. Şübhəsiz ki, elmi-metodiki cəhətdən düzgün təşkil edilmiş SBA olmadan yüksək səviyyəli kitabxana-biblioqrafiya xidmətini həyata keçirmək mümkün deyil.

SBA-nın quruluşu nəzəri ədəbiyyatda təcrübi nöqteyi-nəzərdən xarakterizə edilərək onun 2 tərkib hissəsi olduğu göstərilir.

1. Soraq və biblioqrafik nəşrlər fondu;
2. Kataloq və kartoteka sistemi (12.s.44)

Qeyd etmək lazımdır ki, belə bölgü aparılması müəyyən üstünlüyə malikdir. O əyani surətdə SBA-nın təşkilinin özünəməxsus xüsusiyyətini əks etdirir. SBA-nın bu hissələrindən hər biri qanunauyğun şəkildə yaranmış və onlar, biri-digərini tamamlayır və birlikdə sistem yaradırlar.

1980-cı illərdə SBA-nın tərkib hissəsi nəzəri ədəbiyyatda üç hissədən ibarət olduğu qeyd edilirdi.

1. Soraq və biblioqrafik nəşrlər fondu;
2. Kataloq və kartoteka sistemi;
3. Ödənilmiş arayışlar fondu. (13)

Lakin, 1990-cı ildə çapdan çıxmış Kitabxanalarda biblioqrafiya işinin təşkili və metodikası adlı rus dilində olan dərslikdə (12) SBA-nın iki tərkib hissəsi olduğu qeyd edilir. Artıq burada ödənilmiş arayışlar fondu soraq-biblioqrafik nəşrlər fondunun dördüncü tərkib hissəsi kimi verilir.

SBA-nın bugünkü tərkibi uzun illər davam edən tarixi inkişafın nəticəsidir. Əvvəllər SBA kitabxana fondunun məzmun və tərkibini açan kataloqlardan ibarət idi. Daha sonralar SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, eləcə də kitabxanada tərtib olunan kartotekalar, daha sonralar isə əvvəllər yerinə yetirilmiş yazılı arayışlar da daxil edilir. SBA-nın funksiyaları çox müxtəlifdir və kitabxana fəaliyyətinin bütün istiqamətlərində ondan istifadə olunur.

Bu onu göstərir ki, SBA yarandığı gündən bu günə kimi onun təşkili daima dəyişmiş və təkmilləşmişdir. Bu



proses bu gün də davam edir. Belə ki, müasir texnologiyanın xüsusilə kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi kitabxananın SBA-na müsbət təsir göstərir.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında yeni texnologiyaların tətbiq edilməsi kitabxanada ənənəvi kataloq və kartotekaların elektron formaya keçirilməsinə imkan yaradır və nəticədə biblioqrafların apardıqları axtarış zamanı ənənəvi informasiya mənbələri və texnologiyalardan tədricən elektron mənbəyə keçirlər.

Avtomatlaşdırılmış kitabxanalar ilk növbədə elektron kataloqun yaradılmasından başlayırlar. Ənənəvi kataloq və kartoçkalardan fərqli olaraq biblioqrafik axtarış burada bir çox ünsürlərlə aparılır; müəllif, sərlövhə, tərtibçi, redaktor, tərcüməçi, nəşr ili və s. Bütün bunlardan başqa elektron kataloqda real vaxt rejimində informasiyanı görmək imkanı yaranır. Ümumiyyətlə, informasiya cəmiyyəti fərdi biliklərin internetin köməyi ilə ictimailəşməsi üçün misilsiz imkanlar yaradır.

İstifadəçilərin mütəmadi informasiya təminatı informasiya cəmiyyətində çox vacib olan elektron bazaların qurulmasına kömək edir.

İnformasiya cəmiyyətinin əsas tələblərindən biri biblioqrafik məlumat bazalarını yalnız ənənəvi formada deyil, həm də elektron formada istifadəçilərə təqdim etməkdir. Ənənəvi çap məhsulunu elektron formada hazırlamaq, qorumaq və düzgün istiqamətləndirəmk üçün hazırda insan fəaliyyətinin bütün sahələrində İnformasiya-Kommunikasiya Texnologiyalarından (İKT) geniş şəkildə istifadə olunur.

Məhz İKT-nın kitabxanalarda tətbiqi qlobal İnternet şəbəkəsinə çıxışı kitabxanalara öz fondlarını elektron formada dünyaya təqdim etməyə imkan verir.

Müasir texnologiyanın biblioqrafik əməliyyatların yerinə yetirilməsinə, tətbiq olunması kitabxananın SBA-nın

tərkibini daha da təkmilləşdirir və yeni-yeni xidmət metodlarının yaranmasına səbəb olur.

Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında qanunda (Maddə 2) informasiya texnologiyalarına belə tərif verilir.

«İnformasiya texnologiyaları-informasiya prosesləri zamanı, o cümlədən hesablama və təşkilat texnologiyasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemidir». (4) Deməli, kitabxanada icra edilən ənənəvi kitabxana informasiya prosesləri də informasiya texnologiyalarının tərkibinə daxildir.

Respublikamızda biblioqrafik proseslərinin avtomatlaşdırılması və kompüter texnologiyasının tətbiqi sahəsində AMEA MEK-nın fəaliyyəti nəzər-diqqəti daha çox cəlb edir. MEK-nın 2002-ci ildə yaradılmış «Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsi kitabxana-informasiya işi sahəsində avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqini həyata keçirir. Şöbə kitabxanada iş proseslərinin avtomatlaşdırılmasını Rusiya istehsalı olan «İRBİS - 64» avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəilə reallaşdırılır. Artıq 3 ildir ki, kitabxananın İnternetə qoşulmaq imkanı var. Əsas modemi «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsində yerləşdirilən İnternet və İntranet qoşulmaları ümumilikdə kitabxananın kommunikasiya infrastrukturunu təşkil edir.

2006-cı ildə İnformasiya Texnologiyaları İnstitutu tərəfindən AMEA-nın bütün elmi tədqiqat müəssisələrinin vahid şəbəkədə birləşdirilməsi işləri başa çatdırılmışdır. Bu proses öz növbəsində şəbəkə kitabxanalarının da İnternetlə tam təmin olunmasına şərait yaratmışdır. Bu isə «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi tərəfindən AMEA şəbəkə kitabxanası ilə MEK arasında İnteqral kitabxana-İnformasiya şəbəkəsini qorumağa, onların fəaliyyətini bütövlükdə avtomatlaşdırmağa, toplu elektron kataloq yaratmağa real imkanlar vermişdir.



Son 2 ildə kitabxanada şöbələrin fəaliyyəti 3 istiqamətdə avtomatlaşdırılır. Birinci mərhələdə avtomatlaşdırılması daha çox zəruri olan «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi. «Ədəbiyyatın elmi kompüterləşdirilməsi» şöbəsi, «Xidmət» şöbəsi, «Biblioqrafiya» şöbəsi, nəzərdə tutulur.

İkinci mərhələdə nisbətən zəruri olan şöbələr avtomatlaşdırılacaq. Buraya aşağıdakılar daxildir:

1. Qərbi Avropa ədəbiyyatı şöbəsi;
2. Şərq ədəbiyyatı şöbəsi;
3. Milli ədəbiyyat şöbəsi;
4. Elmi kataloqlaşdırma şöbəsi;
5. Kitabxanaşünaslıq şöbəsi.

Üçüncü mərhələdə isə avtomatlaşdırmağa qismən ehtiyacı olan şöbələr «Fondun təşkili, mühafizəsi və istifadəsi» şöbəsi və «Sənədlərin konservasiyası, bərpası və surətçıxarma» şöbəsi informasiya texnologiyaları ilə təmin olunacaq.

2005-ci ildə MEK-da birinci istiqamət üzrə işlər yekunlaşmışdı. (10. s.2)

Hal-hazırda MEK-da aşağıdakı proseslər avtomatlaşdırılmış şəkildə həyata keçirilir.

Oxucu sorğularının öyrənilməsi: informasiyanın alınması, mühafizə olunması və paylanması.

Şöbələrarası əlaqələr;

Beynəlxalq və daxili yazışmalar;

Sənəd dövriyyəsi;

Xarici informasiya mənbələrinə çıxış.

2003-cü ildə MEK-da iş prosesləri 20, 2004-cü ildə 30, 2005-ci ildə 40, 2006-cı ildə isə 50 faiz avtomatlaşdırılıb. (10. s.3) Bu göstəricilər dünya standartları ilə qənaətbəxş hesab olunmasa da respublika kitabxanaları üçün hələlik optimal variantdır.

Mərkəzi Elmi Kitabxanada elektronlaşdırma işləri 2 ildir ki, davam edir. 2006-cı ildə elektron kataloq, elektron kitabxana, elektron məlumat bazaları, elektron biblioqrafik göstəricilərin hazırlanması istiqamətində bir sıra işlər görülmüşdür:

İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sisteminin köməyi ilə elektron kataloqun yaradılması davam etdirilmiş, 2006-cı ildə 2290 adda ədəbiyyatın elektron kataloqu yaradılmışdır. Hazırda kitabxananın elektron kataloq sistemində 4 əsas baza mövcuddur.

a) nadir nəşrlər bazası;

b) Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanasının bazası;

c) Cari ədəbiyyat bazası;

d) «Azərbaycanşünaslıq bazası»

2006-cı ildə «Nadir nəşrlər» bazasına 540, «Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanası»nın bazasına 300, «Cari ədəbiyyat» bazasına 1200, «Azərbaycanşünaslıq» bazasına isə 250 adda kitab daxil edilmişdir.

Neft ədəbiyyatının elektron kataloqunun yaradılması üzrə də işlər görülmüşdür. «Biblioqrafiya» şöbəsi tərəfindən təqdim olunan 1500 adda ədəbiyyatın kartoçkası maşınla oxunan formata keçirilərək elektron kataloqa daxil edilmək üçün hazır vəziyyətə gətirilmişdir. Hazırda bunun üçün kitabxananın elektron kataloq sistemində 5-ci baza – «Azərbaycanda neft» bazası formalaşdırılır. 2006-cı ildə 3 cilddə «Azərbaycan Milli Elmlər Akademiyasının alimləri, 1-ci hissə Humanitar və sosial elmlər» adlı elektron biblioqrafik göstərici hazırlanmışdır. Buraya alimlərin tərcümeyi-halı, elmi fəaliyyəti, elmi dərəcəsi, iş yeri, əsərləri, məqalələrinin adları və nailiyyətləri daxil edilmişdir. Perspektivdə həmin göstəricinin materiallarından istiadə etməklə elektron kataloq sistemində 6-cı bazanın - «Azərbaycan alimləri» adlı bazası yaradılması nəzərdə tutulmuşdur. Artıq elektron göstəricilərdə 90-dan artıq alim haqqında məlumat yerləşdirilmişdir.

2006-cı ildə elektron məlumat bazası genişləndirilmiş, elektron kitabxanaya yeni nəşrlər daxil edilmişdir. «Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsi vasitəsilə» kitabxanaya AMEA-nın bir sıra nəşrləri həm də elektron variantda toplanmışdır. Həmin nəşrlər şöbədə toplanmış və vahid formatda işlənmişdir. Buraya AMEA-nın «Xəbərlər»i (2001-2006 bütün nömrələri), «Yer elmləri» (2005-2006), «Azərbaycan kimya jurnalı» (2001-2006), «Məruzələr» (2004-2005), «Hesabatlar» (2003-2005), «Biologiya jurnalı» (2005-1006), «İnformasiya texnologiyaları problemləri» (2005-2006) jurnalının elektron variantları daxildir. 2006-cı ildə Mərkəzi Elmi Kitabxanaya elektron formada 36 dissertasiya və avtoreferat daxil olmuşdur. (10. s.5)

«Mərkəzi Elmi Kitabxananın nəşrləri», «Elmi əsərlər», «Mərkəzi Elmi Kitabxananın hesabatları» (2003-2006), «Konfranslar, tədbirlər, görüşlər 2002-2006, «Azərbaycan nefti; dünən, bu gün, sabah» adlı kompakt disklər hazırlanmışdır.

«Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi tərəfindən kitabxanaşünaslığın nəzəri və təcrübi məsələləri sahəsində tədqiqatların nəticələri üzrə, eləcə də digər səpgidə aşağıdakı çap məhsullarının nəşrə hazırlanması işi başa çatdırılmışdır.

1. Mərkəzi Elmi Kitabxananın «Elmi əsərləri»nin VII buraxılışı;

2. «XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri»;

3. «Biblioqrafiya» II cild (Kütləvi İnformasiya vasitələri İnternetdə);

4. «Azərbaycan Milli Elmlər Akademiyasının alimləri» (I hissə. Humanitar və ictimai elmlər);

5. «Molla Nəsrəddin» jurnalının tədqiqinin biblioqrafik göstəriciləri;

6. «Azərbaycan folkloru» biblioqarfik göstəricisi;
7. Mərkəzi Elmi Kitabxanaya 2006-cı ildə yeni daxil olan kitablar. İnformasiya bülleteni, 1, 2, 3-cü buraxılış;
8. Dövri və nəşri davam edən ədəbiyyat;
9. AMEA nəşrlərinin biblioqrafiyası: İllik. 1985

2006-cı ildə Mərkəzi Elmi Kitabxananın İnternet səhifəsi təkmilləşdirilmiş, səhifənin rus və ingilis variantları hazırlanmışdır, indi artıq kitabxananın saytındakı səhifələr 765-ə qədər çoxalmışdır. «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsinin əməkdaşları tərəfindən sayta «Azərabycan və Ukrayna kitabxanaları arasında elektron informasiya mübadiləsi» adlı səhifə əlavə etmişdir. Burada hər iki ölkənin kitabxanalarından toplanmış elektron nəşrlər yer almışdır. İnternet səhifəsinə «Xəbərlər» və «Elektron kitabxana» bölmələri əlavə olunmuşdur.

2006-cı il ərzində Mərkəzi Elmi Kitabxananın İnternet səhifəsinə 21030 istifadəçi müraciət etmişdir. Onlar ümumilikdə sayta 59594 dəfə baxmışlar. (10)

2006-cı ildə sayta dünyanın 53 ölkəsindən müraciət olunmuşdur. Sifarişçilərin 31 faizi Azərbaycandan, 22 faizi Rusiya Federasiyasından, 11 faizi Türkiyədən, 10 faizi Ukraynadan, 7 faizi isə Belarusdan, qalan 19 faizi isə digər ölkələrdən olmuşdur.

Hazırda saytın alman və fransız dillərində olan variantları üzərində iş gedir və yaxın gələcəkdə sayt 5 dildə fəaliyyətini davam etdirəcəkdir.

Mərkəzi Elmi Kitabxana cari ildə Azərbaycanın informasiya agentlikləri ilə əlaqəni genişləndirmiş, kitabxananın saytında dərc olunan məlumatlar AzərTac, Trend, APA kimi agentliklərin informasiya bloklarına əlavə olunmağa başlamışdır.

2004-cü ildə MEK Azərbaycan Kitabxana-İnformasiya Konsorsiumuna daxil olmuş, EBSCO elektron məlumat bazasından 40000 adda xarici tammətinli elmi jurnaldan İnternet vasitəsilə istifadə etmək imkanı əldə etmişdir. (10)



Bütün bu qeyd olunan nəzəri məsələlərin və AMEA MEK-nın iş təcrübəsinin qısa şərhindən aydın olur ki, müasir dövrdə İKT-nin kitabxana işinə tətbiqi aktual problem kimi bu gün də qalmaqdadır.

## ƏDƏBİYYAT

*1. Əliyev Z. Ümumi biblioqrafiyaşunaslıq: Dərs vəsaiti.B.: 2001.-145 s.*

*2. Əliyev Z. Məmmədov Ə. Biblioqrafik işin kompüterləşdirilməsinin nəzəri və praktiki əhəmiyyəti// Kitabxanaşünaslıq və biblioqrafiya/Elmi-nəzəri və təcrübi jurnal. №1-2003.*

*3. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri//Respublika.-17 aprel.-2002.*

*4. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu//Azərb Respub qanunvericilik toplusu. 1998.-№ 6.-s.1214-1222.*

*5. İnformasiya cəmiyyəti və kitabxanaların vəzifələri//İnformasiya-kommunikasiya texnologiyaları.-2005.-№6 (21)-s.4*

*6. Kitabxana işi haqqında Azərbaycan respublikasının qanunu// Xalq qəzeti.- 1999, 14 mart.*

*7. Mərkəzi Elmi Kitabxana/ Bələdçi. AMEA-60. B., 2005.- 56 s*

*8. Rüstəmov Ə. İnformatika./Dərslik.-B.-2002*

*9. Rüstəmov Ə., Mustafayeva N. Kitabxanalarda elektron sənədlərlə xidmət işinin təşkili// Kitabxanaşünaslıq və biblioqrafiya/Elmi-nəzəri, metodik və təcrübi jurnal. 2007.-№1 (20).-s.16-23.*

*10. MEK-nın «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsinin 2002-2006-cı il hesabatı.*

**Rus dilində**

12. Библиографическая работа в библиотеке. организация и методика.М.-1990.-256 с.

13.Библиография: Общий курс.-М., 1981.-513 с.

14. Стандарты по библиотечному делу и библиографии.-М., -1985.-280 с.

**Раифа Везирова**

## ЭЛЕКТРОННАЯ БИБЛИОГРАФИЧЕСКАЯ ИНФОРМАЦИОННАЯ БАЗА ГЛАВНАЯ ЧАСТЬ СОСТАВА СБА

***РЕЗЮМЕ***

*В статье говориться о широкой использовании Информационной Коммуникационной Технологии во всех сферах человеческого деятельство для составления, хранения и для правильного направления электронной формы традиционной печатной продукции. Рассказывается о том как применение Информационной Коммуникационной Технологии дает возможность для представления своих фондов в электронной форме, для выхода на глобальный сеть Интернета.*

Qəmzə HACIYEVA
*Baş müəllim*

# MƏCBURİ NÜSXƏ CARİ MİLLİ BİBLİOQRAFİYANIN ƏSAS BAZASI KİMİ

Milli məlumat sisteminin mühüm tərkib hissələrindən olan milli bibliqrafiya ayrı-ayrı ölkələrdə müxtəlif qaydalarda təşkil olunsa da, onun başlıca vəzifəsi cəmiyyətin biblioqrafik informasiya tələbatının ödənilməsinə xidmət etməkdir. Beynəlxalq biblioqrafiyanın müasir inkişaf səviyyəsi bütün ölkələrdə milli bilioqrafik xidmət sisteminin yaradılmasını və onun daha da təkmilləşdirilməsini tələb edir. Hər bir ölkədə çap edilən nəşrlərin və digər sənədlərin tam və dəqiq qeydi aparılmalıdır. Çünki bunsuz biblioqrafik məlumat mübadiləsi sistemini təşkil etmək mümkün deyildir.

Qarşıya qoyulan bu məqsədə nail olmaq üçün milli biblioqrafiya ilə əlaqədar bir sıra mürəkkəb problemləri həll edib, həyata keçirmək lazımdır. Belə problemlərdən biri məcburi nüsxə haqqında qanunun mövcud olmasıdır. Qeyd edk ki, belə bir qanun ilk dəfə Fransada 1537-ci ildə I Frantisk tərəfindən qəbul edilmişdir. Həmin qanuna əsasən, ölkənin bütün naşirləri çap etdikləri kitablardan bir nüsxə Kral kitabxanasına təqdim etməli idilər (3,S.43). Zaman keçdikcə bu qanun daha da təkmilləşmiş və kitablarla yanaşı çap məhsulunun digər növlərini də əhatə etmişdir. Artıq müasir dövrdə yalnız çap məhsulu məcburi nüsxə haqqında qanunun yeganə obyekti ola bilməz. Buraya poliqrafik, audiovizual və elektron komponentləri olan müxtəlif informasiya daşıyıcılarında hazırlanmış bütün sənədlər daxildir.

Məcburi nüsxələr sistemi ölkənin milli arxivinin yaradılması üçün baza rolunu oynayır. Bu məcburi nüsxələr eyni zamanda kitabxana fondlarının tamamlanmasında, zənginləşməsində, habelə milli biblioqrafiyanın inkişafında

əsas mənbə kimi böyük əhəmiyyətə malikdir. Lakin heç də bütün dövlətlərin müvafiq qanunları ölkədə milli biblioqrafiyanın baza rolunu təmin etmir. Məcburi nüsxə haqqında qanunçuluğun üç forması mövcuddur.:

1) Müəlliflik hüququnun mühafizəsi;

2) Milli biblioqrafiya orqanlarında verilən məlumatların dəqiqliyinin təmin edilməsi;

3) Ölkədə nəşr edilən sənədlərin məcburi olaraq nüsxəsinin qeyd olunmaq üçün xüsusi dövlət idarələrinə təqdim edilməsi.

Məcburi nüsxə haqqında qanun ayrı-ayrı ölkələrdə olduqca müxtəlifdir və onlar bir-birindən fərqlənirlər. Məsələn, materialın seçilmə prinsipi, məcburi nüsxələrin miqdarı; onların təqdim edilməsindəki operativlik, qanuna əməl edilməsinə nəzarət metodları və s. ayrı-ayrı ölkələrin məcburi nüsxə haqqındakı qanunlarında özünü müxtəlif cür göstərir.

Məlumat mənbələrinin genişlənməsi və çoxalması məcburi nüsxə haqqında qanunların təkmilləşdirilməsini tələb etməklə yanaşı onun, beynəlxalq miqyasda ümumi modelinin işlənməsi zəruriliyini də qarşıya qoyur. Çünki hal-hazırda ayrı-ayrı ölkələrdə cari milli biblioqrfiyanın təkmilləşməsi və bir-birinə yaxınlaşması prosesi getdiyindən məcburi nüsxə probleminin vacibliyi və mürəkkəbliyi onun beynəlxalq səviyyədə həllini tələb edir. Qeyd edək ki, bu problem həmişə diqqət mərkəzində olmuşdur.

Hələ ötən əsrin 70-ci illərində alman biblioqrafı Q.Pomassl dünya ölkələrində cari milli biblioqrafiyanın vəziyyətini açıb göstərən «Sinoptik cədvəllər» tərtib etmişdir. «Sinoptik cədvəllər» bütün dünya ölkələrində cari milli biblioqrafiyanın vəziyyəti haqqında əyani təsəvvür yaratmaqla yanaşı, müqayisəli statistik məlumatların əldə olunmasına imkan vermişdir. Müəllif milli biblioqrafiyanın inkişafındakı xarakterik xüsusiyyətləri açıb göstərmiş və bununla bağlı bir sıra vacib problemlərin gələcəkdə də öyrənilməsini və



nəzəri cəhətdən, işlənməsini irəli sürmüşdür ki, onlardan da biri cari milli biblioqrafiyanın bazası hesab edilən məcburi nüsxə haqqında qanundur. Pomasslın verdiyi məlumata görə 1974-cü ilə kimi dünyanın 100 ölkəsində məcburi nüsxə haqqında qanun qəbul edilmşdir (4,S.10). Eyni zamanda 10 ölkənin məcburi nüsxə haqqında qanunu olmasına baxmayaraq, özlərinin cari milli biblioqrafik nəşrləri yox idi. 90-cı illərin əvvəllərində isə artıq məcburi nüsxə haqqında qanun qəbul etmiş, ölkələrin sayı artıq 139-a çatmışdır (5,S.141).

Məcburi nüsxə haqqında qanun əsasən iki əsas vəzifənin həyata keçirilməsini müəyyənləşdirir: milli çap məhsulunun toplanması və saxlanılması; milli çap məhsuluna daxil edilən bütün materialların etibarlı biblioqrafik qeydinin yaradılması.

Müasir dövrdə məcburi nüsxələr haqqında mövcud qanunların ümumi prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- məlumat əhəmiyyəti olan bütün sənədlərin tam şəkildə qeydə alınması;

- nəşriyyatların, mətbəələrin və bütün müvafiq idarələrin, başqa sözlə, «istehsalçıların» məcburi nüsxələrin çatdırılması üçün məsuliyyət daşıması;

-məcburi nüsxələrin çatdırılması vaxtının maksimum dərəcədə qısaldılması (çapdan buraxıldığı vaxtdan bir aydan artıq keçməmək);

-məcburi nüsxələrin çatdırılmasına nəzarət sisteminə ciddi əməl olunması.

Məcburi nüsxələr haqqında milli qanunlarda bu prinsiplərin həyata keçirilməsi, cari milli biblioqrafiya sisteminin təkmilləşdirilməsinə, deməli, dünya miqyasında biblioqrafik informasiya mübadiləsinin təkmilləşdirilməsinə imkan verəcəkdir.

İFLA-nın 46-cı sessiyasının (Manila, 1980) qərarına əsasən, cari milli biblioqrafiya orqanlarında ədəbiyyatın qeydinin 3 səviyyəsi müəyyənləşdirilmişdir: birincisi (mini-

mum) 1977-ci ildə milli biblioqrafiya üzrə Beynəlxalq konqresdə müəyyənləşdirilmişdir; ikincisi dissenrtasiyaların, xəritələrin, notların, ixtiraların, elmi konfranslarda məruzələrin qeydi; üçüncüsü (maksimum) seriyalı nəşrlərdən məqalələrin qeydi təsviri incəsənət əsərlərindən reproduksiyaların, qramafon vallarının, səs kosetlərinin, qravyuraların, plakatların, kinofilmlərin, mikroformatların, video kasetlərin maşınla oxunan informasiya daşıyıcılarının qeydi. Bu model cari milli biblioqrafiya orqanlarında qeyd olunan sənədlər dairəsinin getdikcə genişlənməsini tələb etməklə yanaşı, məcburi nüsxə haqqında qanunların da təkmilləşdirilməsini vacib məsələyə çevirirdi.

Respublikamızda ilk dəfə məcburi nüsxə haqqında qanunun qəbul edilməsi Azərbaycan Dövlət Kitab Palatasının yaradılması ilə bağlı olmuşdur. 1925-ci il fevral ayının 5-də «Azərbaycan SSR Xalq Maarif komissarlığı yanında Dövlət Kitab Palatasının təşkili və mətbuat nüsxələrinin təqdim edilməsi haqqında» (2,S.7) qərar qəbul edilir. Həmin qərara əsasən respublika ərazisində nəşr edilən çap əsərlərinin hər birindən 50 məcburi nüsxə Kitab Palatasına göndərilməli idi. Məcburi nüsxələrin Kitab Palatasına vaxtlı-vaxtında daxil olmasına nəzarət işini palatanın «Nəzarət şöbəsi» həyata keçirirdi. Sonrakı dövrdə ümumittifaq miqyasında məcburi nüsxə haqqında qəbul edilən bütün qanunlar Azərbaycana da tətbiq edilirdi.

Müstəqil Azərbaycan Respublikasının qəbul etdiyi qanunlardan biri «Kitabxana işi haqqında» Qanundur (19 dekabr 1998-ci il). Həmin qanunun III fəslinin 15-ci maddəsi(1,S.10) kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı məsələlərini əhatə edir. Orada qeyd olunur ki, dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetitinin kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər. Göründü kimi, bu maddə məhz kitabxana fondlarının təkmilləşdirilməsi məqsədilə, onların məcburi nüsxələrlə təmin edilməsini əhatə edir. Eyni zamanda burada yalnız çap məhsulu nəzərdə tutulur.

Bütün bunlar respublikamızda məcburi nüsxə haqqında yeni qanunun qəbul edilməsini və bu əsasda yeni ədəbiyyatın cari dövlət qeydinin qaydaya salınmasını qarşıya qoyur. Yeni qanun yalnız çap məhsulunu deyil, sənədlərin bütün növlərini, o cümlədən müasir texnologiya əsasında hazırlanan bütün informasiya daşıyıcılarını, onları istehsal edənlərin və istehsalçıların bütün kateqoriyalarını, məcburi nüsxələrin çatdırılma müddətini, bu işə nəzarət sistemini və digər bu kimi məsələləri əhatə etməlidir.

## ƏDƏBİYYAT


1. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya.-1999.-№1.-S.3-16*

2. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970): Dərs vəsaiti.-B.,1978.- 78 s.*

3. *Гудовщикова И.В., Лютова К.Б. Общая иностранная библиография.-М.,1978.-224 с.*

4. *Общая иностранная библиография.-М.,1982.-61 с.*

5. *Семеновкер Б.А. Международный справочник по обязательному экземпляру.-//Библиография.-1991.-№2.-С.141.*

6. *Веревкина А.М., Симонова Е.Г. Всемирный информационно-библиографические системы.-М.,1986.-36 с.*

*Гамза Гаджиева*

## ОБЪЯЗАТЕЛЬНЫЙ ЭКЗЕМПЛЯРЬ КАК ОСНОВНАЯ БАЗА ТЕКУЩЕЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОГРАФИИ

### *РЕЗЮМЕ*

*В статье характеризуется роль и значение объязательный экземпляра в развитии ТНБ. А так же проанализированы основные функции, принципы и пути совершенствования этого института. В конце указывается важность принятие нового закона об объязательном экземпляре, который охватить не только произведении печати, а так же все виды информационных носителей.*

**Xuraman VERDİYEVA**
*Laboratoriya müdiri*

# PEDAQOGİKA ÜZRƏ RETROSPEKTİV ELMİ KÖMƏKÇİ VƏSAİTLƏR

Biblioqrafik informasiya vasitələrini funksiya və xronoloji istiqamətinə görə fərqləndirsək onları iki qrupda ümumiləşdirmək olar. Cari və retrospektiv biblioqrafiya. Bu prinsipi pedaqoji sahədə meydana gələn biblioqrafik informasiya mənbələrinə də aid etmək tamamilə yerinə düşər. Retrospektiv biblioqrafik vəsaitlər həm də ümumiliyinə və xüsusiliyinə görə fərqlənir. Məsələn, ümumi xarakterli, çoxaspektli biblioqrafik informasiya mənbələrinə XX əsrin 50-ci illərində təsadüf edilir və bunların işıq üzü görməsi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyəti ilə bağlıdır.

Belə biblioqrafik vəsaitlərdən "Bağça yaşlı uşaqlar üçün kitab kataloqu: "Azərkitab"ın mağazalarında satışda olan kitablar / Tərt. ed.: N.Rzaquliyev (2), "İbtidai məktəb şagirdləri üçün kitab kataloqu: Azərkitab"ın mağazalarında satışda olan kitablar /Tərt. ed.: N. Rzaquliyev, "Orta məktəbin VIII-X sinif şagirdləri üçün kitab kataloqu / Tərt. ed: N.Rzaquliyev biblioqrafik vəsaitlərini göstərmək olar. Belə kataloqlar retrospektiv axtarış üçün əhəmiyyətlidir və XX əsrin 50-ci illərində sahə üzrə nəşr olunmuş kitabların məzmun tərkibi haqqında fikir söyləməyə imkan verir.

Qeyd olunduğu kimi, Azərbaycanın biblioqrafik ehtiyatları içərisində REPK-nın tərtib edib çap etdirdiyi vəsaitlər xüsusi yer tutur. Biblioqrafik vəsaitlərin hazırlanmasında kitabxananın Elmi biblioqrafiya şöbəsinin xüsusi xidmətləri vardır. Kitabxana «Xalq maarifi. Pedaqogika. Pedaqoji elmlər» seriyası ilə ayrı-ayrı illərdə Azərbaycan və rus dillərində müxtəlif həcmli göstəricilər çap etdirmişdir.

Pedaqoji elmlər üzrə kitabxananın hazırlayıb çap etdiyi retrospektiv biblioqrafik göstəriciləri əhatə etdikləri sənədlərin formaları baxımından belə fərqləndirmək olar.

1. Kitablar haqqında məlumat verən vəsaitlər.

2. Jurnal və qəzetlər haqqındainformasiya verən, onların təpkibini açan biblioqrafik vəsaitlər.

Məlumdur ki, retrospektiv biblioqrafiya iki əsas vəzifəni yerinə yetirir: a) müəyyən vaxt ərzində sənəd-informasiya axınının inkişafını yekunlaşdırır; b) biblioqrafik xidmət zamanı toplanmış sənəd kütləsində retrospektiv axtarışı təmin edir. REPK-nın tərtib etdiyi illiklər cari nəşr olsa da, retrospektiv biblioqrafiyanın qarşısına qoyulan tələblərə cavab verdiyinə görə onları retrospektiv biblioqrafik göstərici hesab etmək olar.

REPK-nın illik biblioqrafik məlumat göstəricisi olan "Xalq maarifi. Pedaqogika. Pedaqoji elmlər: İllik məlumat biblioqrafik göstərici. 1983-cü il" (5) adlanan bu vəsaitin tərtibçiləri E.Ə.Əliyeva və R.T.Əliyevadır. Bu illik xarakterli məlumat-biblioqrafik göstərici 1983-cü ildə pedaqoji elmlərə dair fondda olan kitabları, pedaqoji institutların ardıdavam edən nəşrləri, elmi-tədqiqat müəssisələrinin məqalələr məcmuələri, görkəmli pedaqoqların əsərləri, metodik vəsaitləri və həmçinin ayrı-ayrı tədris müəssisələri üçün dərslikləri, dərs vəsaitləri və proqramları əhatə edir.

Biblioqrafik göstəricidə materiallar sistemli qaydadaəks olunur, daxildə isə müəlliflərə və ya kitabların adlarına görə əlifba sırasında düzülmüşdür. Göstəricidə 832 adda materialın biblioqrafik təsviri həm Azərbaycan, həm də rus dillərində 12 bölmə daxilində qruplaşdırılmışdır.

Göstəricinin iki dildə tərtib olunması onun oxucu kontingentini genişləndirir. Göstərici tərtib olunarkən biblioqrafiyalaşdırmanın metodiki əsasları nəzərə alınmışdır. Göstəricinin informasiya-axtarış imkanlarını artırmaq məqsədilə yardımçı vəsait kimi «Müəlliflərin əlifba göstəricisi» və «İxtisarların siyahısı» tərtib olunmuşdur. Göstərici elmi işçilər, pedaqoji məktəb və institutların müəllim və tələbələri, xalq maarifi işçiləri üçün nəzərdə tutulmuşdur. İllik biblioqrafik informasiya bülleteninin 1989-cu ili əhatə edən sayı 1990-cı ildə, 1990-cı ili əhatə edən sayı 1991-ci ildə nəşr olunmuşdur.

«Xalq maarifi. Pedaqoigka. Pedaqoji işlər» (6) adlanan,1985-ci ildə buraxılan qəzet və jurnal məqalələrini əks etdirən illik məlumat biblioqrafik göstərici 1990-cı ildə çap edilmişdir. Biblioqrafik göstəricinin tərtibçiləri C.H.Manafova və T.D.Məmmədovadır. Vəsaitdə 1985-ci ildə respublika mətbuatında dərc olunmuş məqalələrin sistemli qaydada, sistem daxilində isə müəlliflərin və məqalələrin sərlövhəsinə görə əlifba üzrə əvvəlcə Azərbaycan, sonra isə rus dillərində olan məqalələr düzülmüşdür. Birinci göstəricidən fərqli olaraq bu vəsaitdə sistemli qaydada əvvəlcə Azərbaycan, sonra isə rus dilində olan 653 sənədin təsviri verilir.

Biblioqrafik vəsaitə yardımçı göstəricilərin tərtib olunmaması və vəsaitdə təsvirlərin nömrələnməməsi onun axtarış imkanlarını azaldır və biblioqrafiyalaşdırmanın metodiki əsaslarına uyğun deyil. Onu da qeyd etmək lazımdır ki, 1983-1990-cı illəri əhatə edən illik retrospektiv biblioqrafik göstəricilərin müxtəlif illəri əhatə edən, kitabları əks etdirən 3 sayı, qəzet və jurnal məqalələrini əks etdirən 1 sayı çapdan çıxmışdır.

REPK pedaqogika sahəsində çalışan alim və mütəxəsislərin, elmi tədqiqat işi ilə məşğul olan mütəxəssislərin biblioqrafik informasiya təminatında keçmiş SSRİ məkanında müdafiə olunmuş və REPK-nın fonduna daxil olan avtoreferatların mühüm rolunu nəzərə alaraq 1990-cı ildə bu sahəyə dair üç retrospektiv elmi-köməkçi göstərici çap etmişdir. «Biblioqrafiçeskiy ukazatelğ avtoreferatov kandidatskix i doktorskix dissertaüiy» (3;4) adlanan vəsaitlərin hər üçü rus dilində olsa da sahə mütəxəssisləri üçün qiymətli vəsait hesab olunur.

Birinci göstəricinin tərtibçisi R.T.Əliyevadır. Biblioqrafik göstəricidə 1 yanvar 1984-cü ilə qədər olan 16 doktorluq, 204 namizədlik dissertasiyalarının avtoreferatları 5 bölmədə (I.Xalq təhsili. Pedaqoji elmlər; II.Filologiya elmləri; III.İncəsənət; IV.Fəlsəfə elmləri; V.Psixologiya) qruplaşdırılmışdır. Vəsaitə «Adlar göstəricisi» də tərtib olunmuşdur. Biblioqrafik göstərici pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

İkinci göstərici də 1990-cı ildə çap olunmuşdur. Göstəricinin Tərtibçisi M.D.Əliyevadır. Biblioqrafik göstəricidə 1 yanvar 1988-ci ilə qədər kitabxananın fonduna daxil olmuş 574 adda avtoreferat 9 bölmədə qruplaşdırılmışdır və hər bölmənin özünün müvafiq altbölmələri vardır. Birinci göstəricidən fərqli olaraq, ikinci göstəricidə hər bir müəllifə məxsus avtoreferata elm sahələrinə uyğun olaraq şifrə verilmişdir. Bu da vəsaitdən istifadəni asanlaşdırır, pedaqoji elmlərin müxtəlif sahələrinə dair müdafiə olunmuş dissertasiya haqqında biblioqrafik informasiyanın vaxt itkisinə yol vermədən tapılmasına xidmət edir. Vəsaitə «Adlar göstəricisi» də verilmişdir.

Birinci göstəricidən fərqli olaraq doktorluq dissertasiyalarının avtoreferatlarının namizədlik gissertasiyalarının avtoreferatlarından ayrılmaması göstəricidən istifadəni çətinləşdirir. Buna baxmayaraq vəsait pedaqoji sahə üzrə elmi-tədqiqat işləri haqqında informasiya verən vəsaitlər kimi əhəmiyyətlidir.

1990-cı ildə çap olunmuş və 30 dissertasiya və elmi-tədqiqat işləri haqqında dolğun məlumat verən «Ukazatelğ dissertaüiy i nauçno-issledovatelğskix rabot( na mikronasitelğəx) (9) adlı vəsaitin həcmi kiçik olsa da biblioqrafiyalaşdırma baxımından çox qiymətlidir (8). Göstəricinin tərtibçisi Ş.Məmmədovadır. Göstəricidə avtoreferatlar I.Fəlsəfə; II. Kitabxana işi. Kitabxanaşünaslıq; III.Biblioqrafiya. Biblioqrafiyaşünaslıq; IV. Arxiv işi. Arxivşünaslıq. V.Xalq təhsili. Pedaqogika;VI. Sosial psixologiya;VII.Ümumi dilçilik



bölmələri altında qruplaşdırılmışdır. Biblioqrafik vəsaitə «Müəlliflərin əlifba göstəricisi» adlı yardımçı göstərici tərtib olunmuşdur. Belə göstəricilərin əhəmiyyəti ondan ibarətdir ki, onlar elmin inkişafına komək edir, sahə üzrə elmi-tədqiqat işlərinin mənzərəsini yaradır, pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm rol oynayırlar.

Təssüflə qeyd etməliyik ki, bu göstəricilərin nəşri 1992-ci ildən maliyyə çətinliyi ilə əlaqədar dayanmışdır. Bu da sahə mütəxəsislərinin informasiya təminatında ciddi problemlər yarada bilər.

REPK-nın tərtib etdiyi və biblioqrafik fəaliyyət mərkəzi kimi bölgələrə göndərdiyi biblioqrafik vəsaitləri təhlil edərkən belə nəticəyə gəlmək olar ki, həmin vəsaitlər biblioqrafik informasiyanın axtarış, kommunikativ və qiymətləndirmə kimi üç əsas ictimai funksiyasının əməli olaraq həyata keçirilməsində mühüm rol oynayırlar. Belə ki, onların vasitəsilə informasiya istifadəçiləri mövcud kitablar, onların məzmun tərkibi və həm də ünvanları haqqında biblioqrafik informasiya əldə edə bilərlər.

Sahə üzrə elmi-kömıəkçi retrospektiv biblioqrafik vəsaitlərdən biri də «Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu əməkdaşlarının nəşr olunmuş mühüm əsərləri» adlı 1981-ci ildə çap olunmuş biblioqrafik göstəricidir (1). Biblioqrafik göstərici 1931-1981-ci illəri əhatə edir və institut alimlərinin elmi yaradıcılığı haqqında mükəmməl biblioqrafik informasiya verir. Biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir.

1.Pedaqogika, psixologiya və xüsusi metodikalar üzrə mənbələr

2.Dərsliklər və dərs vəsaitləri

3.Didaktik materiallar və əyani vəsaitlər.

Bölmələr daxilində mənbələr əlifba qaydası ilə düzülmüşdür. Biblioqrafik göstərici institutut alimlərinin 50 illik elmi fəaliyyəti haqqında mükəmməl məlumat verən

mənbə kimi pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm yer tutur.

Redaqoji elmlərin retrospektiv biblioqrafiyasından danışarkən F.A.Rüstəmovun «Azərbaycan pedaqoji biblioqrafiyası: Məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990-cı illər)» (1995) biblioqrafik göstəricisinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır (8).

Biblioqrafik vəsaitin elmi redaktoru, akademik H.M.Əhmədov, rəyçiləri p.e.d. Ə.Paşayev, fil.e.n. Y.Babayev, p.e.n.Ş.Azadəliyevadır.

Biblioqrafik göstəriciyə müəllif tərəfindən çox mükəmməl giriş məqaləsi yazılmışdır. Giriş məqaləsi pedaqoji elmlərin inkişaf tarixini əks etdirir, orada biblioqrafiyanın elmi-tədqiqat işlərinin yerinə yetirilməsində mühüm rolu qeyd olunur.

Biblioqrafik vəsaitə 1940-1990-cı illərdə Azərbaycanda məktəb və pedaqogika tarixinə aid aparılmış tədqiqatlar və müdafiə olunmuş dissertasiyalar aid edilmişdir. Biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir:

1.Pedaqogika tarixinin ümumi məsələləri. Bölmə «Pedaqogika tarixindən proqramlar», «Pedaqogika tarixindən dərsliklər», «Pedaqogika tarixindən metodiki göstərişlər» altbölmələrindən ibarətdir. «Pedaqogika tarixinin ümumi məsələləri» bölməsində pedaqogika tarixinin tədrisinə, nəzəri və metodoloji problemlərinə aid əsərlər, pedaqogika tarixindən proqramlar, dərs vəsaitləri, metodik göstərişlər öz əksini tapmışdır. Pedaqogika tarixindən proqramlar əsasən rus dilindən tərcümə edilmişdir. Biblioqrafik göstəricinin elmi tədqiqindən aydın olur ki, yalnız 1961-ci ildə Ə.Seyidov, 1991-ci ildə H.Əhmədov, Ə.Əhmədov, H.Bayramoğlu proqram tərtib etmişlər. Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə aid proqram H.Əhmədovun təşəbbüsü ilə tərtib edilmiş, 1977-ci ildə Azərbaycan və rus dillərində çap olunmuş, 1984, 1992, 1995-ci illərdə təkmilləşdirilmişdir. Biblioqrafik vəsait fikir



söyləməyə imkan verir ki, pedaqogika tarixindən dərs vəsaitini ayrı-ayrı vaxtlarda S.Xəlilov, Ə.Seyidov, Ə.Tağıyev, H.Əhmədov yazmışlar. Azəbaycan pedaqoji tarixindən dərs vəsaitini (I-III hissə) H.Əhmədov yazmışdır.

2. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bölmə «Azərbaycanda məktəb tarixi», «Azərbaycanda pedaqoji fikir tarixi», «Pedaqoji jurnalistika» adlı altbölmələrdən ibarətdir. Bu bölmə biblioqrafik göstəricinin ən iri bölməsidir. Bölmə iki hissədən ibarətdir. Birinci hissəyə Azərbaycan məktəb tarixinə dair 300-ə qədər, ikinci hissəyə pedaqoji fikir tarixinə aid 700-ə qədər əsərin biblioqrafik təsviri daxil edilmişdir. Bölmədən öyrənirik ki, Azərbaycanda məktəb tarixinin öyrənilməsi üç istiqamətdə aparılmışdır: 1) ən qədim zamanlardan Azərbaycanın Rusiya tərəfindən işğalına qədərki dövrdə mövcud olan məktəb tarixinin tədqiqi; 2)Azərbaycanın Rusiya tərəfindən işğalından Azərbaycanda sovetləşməyə qədər mövcud olan məktəb tarixini tədqiqi; 3) Azərbaycanda sovet məktəb tarixinin tədqiqi.

Bölmədən öyrənirik ki, ən qədim zamanlardan Azərbaycanın Rusiya tərəfindən işğalına qədərki dövrdə mövcud olan məktəblərin tarixi ciddi araşdırılmasa da Ə.Yaqubi, C.İbrahimov, N.İshaqi və İ.Mollayevin məqalələri maraq doğurur, XIX əsrdə məktəb təhsilini inkişaf tarixi prof. H.Əhmədovun tədqiqatlarında öz elmi həllini tapmışdır. Ə.Paşayevin, F.Seyidovun, Ə.Tağıyevin, H.Rəfibəylinin əsərlərində XIX əsr və XX əsrin əvvəllərində məktəb təhsilinin ümumi məsələlərinə toxunulmuşdur. M.Mehdizadənin, A.Rzayevin, H.Əhmədovun, Ə.Ağayevin əsərlərində Azərbaycan məktəbinin inkişaf tarixi araşdırılır, təlim-tərbiyə işlərinin təşkili, elmi-pedaqoji aspektdən təhlil olunur.

Gənc nəslin tərbibyəsi vəzifələrini müəyyən etmək məqsədilə müxtəlif dövrlərdə tərbiyənin, pedaqoji fikrin inkişafı tarixi pedaqoji aspektdə araşdırılmışdır. Həmin

tədqiqatlar aşağıdakı istiqamətdə aparılmışdır. a) Azərbaycan xalq pedaqogikası; b) ayrı-ayrı şəxslərin pedaqoji görüşləri; c) təlim-tərbiyənin və maarifin inkişaf tarixi; ç) pedaqoji jurnalistika.

Müəllif qeyd edir ki, Ə.Həşimov xalq yardıcılığını pedaqoji fikrin təməl daşları, ilk etibarlı mənbəyi, xalqın şərəfi, ləyaqəti və zəkası, onun mənəvi simasını formalaşdıran amil kimi xarakterizə etmişdir. Onun «Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri», «Azərbaycan xalq pedaqogikası» monoqrafiyaları, A.İsmayılovun, İ.Bağırovun, A.Kələntərlinin, B.Əliyevin, A.Tağızadənin əsərləri maraq doğurur.

Pedaqoji fikrin inkişaf tarixini öyrənmək üçün birinci mənbə xalq yaradıcılığı nümunələridirsə, ikinci mənbə Azərbaycan ədəbiyyatı klassiklərinin əsərləri və maarifçilərin fəaliyyətidir. Xalq yaradıcılığında gözəl əxlaqi keyfiyyətlər və nəcib davranış normaları ədəbiyyatımızda yüksək pilləyə qaldırılımış, inkişaf etdirilmiş, dərin məzmun almışdır.

İkinci bölmənin «Pedaqoji jurnalistika» altbölməsinə dövrü və pedaqoji mətbuatın araşdırılmasına həsr olunmuş 60-a yaxın əsərin biblioqrafik təsviri daxil edilmişdir. Sahə üzrə H.Əhmədovun, Ə.Ağayevin, Ə.S.Tağıyevin, P. Allahverdi oğlunun, Ə.Məmmədovun, Y.Babayevin, M.Həsənovun məqalələri bu qəbildəndir. Onlar «Molla Nəsrəddin», «Dəbistan», «Məktəb», «Rəhbər», «Xalq müəllimi», «Müəllimə kömək, «Azərbaycan məktəbi» jurnallarında, «Kəşkül», «Yeni yol», «Yeni fikir», «Kaspi», «Şərqi-rus», «Əkinci» qəzetlərində səpələnmiş pedaqoji inciləri saf-çürük etmiş, sistemləşdirmiş, həmin mətbuat orqanlarının pedaqoji istiqamətini müəyyənləşdirmişlər.

Biblioqrafik göstərici vasitəsilə bizə məlum olur ki, Azərbaycanda pedaqoji elmlərin inkişaf tarixinin öyrənilməsi sahəsində də geniş tədqiqatlar aparılmışdır. Problemlə bağlı M.Mehdizadənin, N.Kazımovun, Y.Talıbovun,



Ə.S.Tağıyevin, H.Əhmədovun məqalələri maraq doğurur, sahənin informasiya təminatında mühüm rol oynayır.

3.Xarici ölkələrdə məktəb və pedaqoji fikir. Bölmə «Xarici ölkə pedaqoqlarının əsərləri Azərbaycan dilində» altbölməsindən ibarətdir. Bu bölməyə Azərbaycanda xarici ölkələrin məktəb və pedaqogikasının öyrənilməsinə aid 300-ə qədər tədqiqatlar, bəzi qəzet və jurnal məqalələri daxil edilmişdir. 40-90-cı illərdə dünya pedaqoji fikrinin korifeylərinin (Y.A.Komenski, C. Lokk, J.J.Russo, İ.H. Pestalotsi, R. Ouen və b.), rus pedaqoqlarının (K.D.Uşinski, Q.Belinski, A.S. Makarenko, N.K.Krupskaya və b.) nəzəri irsi ilə bağlı onlarca tədqiqat xarakterli əsərlər yazılmış, onların pedaqoji baxışları təhlil olunmuş, indi də öz əhəmiyyətini saxlayan mütərəqqi fikirlər üzə çıxarılmışdır. Azərbaycanda dünya pedaqoji fikir nümayəndələrinin yubileylərinin geniş miqyasda qeyd edilməsi ənənəyə çevrilmiş, xeyli yubiley materialları çap olunmuşdur. Bütün bunlar pedaqoji elmin yeni və çox mühüm bir istiqamətinin yaranıb uğurla inkişaf etdiyini göstərir.

Biblioqrafik göstəriciyə xarici ölkələrin məktəb və pedaqogikası ilə bağlı Ə.Seyidovun, H.Əhmədovun, N.Kazımovun, Y.Talıbovun, X.Fətəliyevin, Ə.Tağıyevin və b. yubiley və tədqiqat xarakterli əsərləri daxil edilmiş, Y.A.Komenskinin, İ.H.Pestalotsinin, N.A.Dobrolyubovun, A.S.Makarenkonun, V.A.Suxomlinskinin, K.D.Uşinskinin, N.K.Krupskayanın Azərbaycan dilinə tərcümə olunmuş əsərləri verilmişdir.

4.Azərbaycan pedaqoqları haqqında biblioqrafiya.

4-cü bölmə olan Azərbaycan pedaqoqları haqqında biblioqrafiya» bölməsinə görkəmli Azərbaycan pedaqoqları Ə.Seyidov, M.Mehdizadə, H.Əhmədov, Ə.Həşimov, və X.Fətəliyevin elmi-pedaqoji fəaliyyətlərin əks etdirən biblioqrafik göstəricilər daxil edilmişdir.

5.Elmi-praktik konfransların materialları. Pedaqogika tarixini aktual problemlərinin araşdırılmasına, təkmilləşdirilməsinə həsr olunmuş elmi-praktik konfransların materialları 5-ci bölmə olan «Elmi-praktik konfransların materialları» bölməsində öz əksini tapmışdır.

6.Pedaqogika tarixinə dair dissertasiyalar. Bölmə «Doktorluq dissertasiyaları», «Namizədlik dissertasiyaları» altbölmələrindən ibarətdir. Bu bölmədə pedaqogika tarixinin metodoloji problemlərinin araşdırılmasına həsr olunmuş 9 doktorluq (Ə.Seyidov, M.Mehdizadə, A.Rzayev, Ə.Həşimov, H.Əhmədov, A.Kərimov, S.Əliyeva, Ə.Paşayev, İ.Mollayev), 62 namizədlik dissertasiyasılarının avtoreferatlarının biblioqrafik təsviri verilir.

Bbiliogrаfik göstəricidə sənədlərin biblioqrafik təsviri iki dildə-Azərbaycan və rus dillərində verilmişdir. Hər bölmə daxilində əvvəlcə Azərbaycan, sonra isə rus dilində nəşr olunmuş əsərlərin biblioqrafik təsviri verilir.

Biblioqrafik göstərici pedaqogika elmi sahəsində çalışan tədqiqatçılar, müəllim və tərbiyəçilər, metodist və pedaqoqlar üçün dərin biblioqrafik informasiya mənbəyidir. Retrospektiv xarakterli, sahəvi, pedaqoji elm üzrə belə biblioqrafik göstəricinin tərtib olunması çox vacib bir işdir və biblioqrafik göstərici pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat işini yekunlaşdırarkən belə qərara gəlmək olar ki, pedaqoji sahə üzrə sənəd kütləsinin retrospektiv axtarışını təmin etmək və yekunlaşdırmaq məqsədilə bir sıra biblioqrafik vəsaitlər tərtib olunmuşdur və vəsaitlərin tərtib olunmasında Respublika Elmi Pedaqoji Kitabxanası, Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika kafedrası, universitetin Elmi Kitabxanası və başqa müəssisələr çox böyük işlər görmüşlər.



# ƏDƏBİYYAT


1. *Azərbaycan Elmi-Tədqiqat Redaqoji Elmlər İnstitutu əməkdaşlarının nəşr olunmuş mühüm əsərləri (1931-1981). B., 1981.*

2. *Bağça yaşlı uşaqlar üçün kitab kataloqu: " Azərkitab" ın mağazalarında satışda olan kitablar / Tərt. ed.: H.Rzaquliyev; M.F.Axundov ad. Azərb. Resp. Dövlət Kit-sı. B.: Azərkitab, 1951, 16 s.*

3. *Библиографический указатель авторефератов кандидатских и докторских диссертаций. Б., 1990, 36 с.*

4. *Библиографический указатель авторефератов кандидатских и докторских диссертаций. Б.,1990, 100 с.*

5. *Xalq maarifi. Pedaqogika. Pedaqoji elmlər: İllik məlumat biblioqrafik göstərici. 1983-cü il. I bur. / Tərt. ed.: E.Ə.Əliyeva, R.T.Əliyeva; Red.: Z.Ə.Zülalova, X.D.Ağayeva; Burax. məsul: H.A.Musayeva; Resp. Elmi-Pedaqoji Kit-sı . B., 1984, 93 s.*

6. *Xalq maarifi. Pedaqogika. Pedaqoji elmlər: Qəzet və jurnal məqalələri: İllik məlumat biblioqrafik göstərici. 1985-ci il. I bur / Tərt. ed.: S.H.Manafova, T.D.Məmmədova; Red.: S.H.Zeynalova; Resp. Elmi-Pedaqoji Kit-sı. B., 1990, 96 s. 130.*

7. *Rüstəmov F. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən (1961-1980-cı illər): Pedaqoji universitet və institut tələbələri üçün dərs vəsaiti / Elmi red.ru. akad.H.Əhmədov. B.:ADPU,1992,137 s.*

8. *Rüstəmov F. Azərbaycanın pedaqoji biblioqrafiyası: Məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990-cı illər): Azərb. Dövlət Pedaqoji Un-ti. B., 1995, 86 s.*

9. *Указатель диссертаций и научно-исследовательских работ (на микроносителях). Б., 1990, 29 с.*

*Хураман Вердиева*

## НАУЧНО-ВСПОМОГАТЕЛЬНЫЕ ПОСОБИЯ ПО ПЕДАГОГИКЕ

*В статье рассматривается указатели подготовленные и изданные Республиканской Научно-Педагогической Библиотекой- «Народные просвещение. Педагогика. Педагогические науки», «Библиографический указатель авторефератов кондидатских и докторских диссертации», а также ряд других ценных библиографических указателей. В конце статьи приведены некоторие рекомендации.*

*Əminə MƏMMƏDOVA*
*Baş laborant*

# AZƏRBAYCAN TARİXÇİLƏRİNƏ HƏSR OLUNMUŞ ŞƏXSİ BİBLİOQRAFİK GÖSTƏRİCİLƏR

Azərbaycan tarixşünaslığının biblioqrafik informasiya təminatı sistemində şəxsi biblioqrafik göstəricilərin də özünəməxsus yeri və əhəmiyyəti var. Bu tip vəsaitlər tarixçilərin bütün elmi fəaliyyəti, həmçinin onlar haqqında yazılmış sənədlər barəsində biblioqrafik məlumat verməklə yanaşı ümumilikdə tarix elmi üzrə geniş axtarış imkanlarına malik olurlar. Hər bir tarixçi öz sahəsinin elmi potensialıdır və onun qələmindən çıxan əsərlər tarix elmi üzrə informasiya ehtiyacının ödənilməsi üçün lazım olan sənədlərin bir tərkib hissəsidir. Beləliklə bu sahə üzrə çap olunmuş şəxsi biblioqrafik vəsaitlərin məcmusu tarixçilərin, həmçinin bu sahə ilə maraqlanan bütün oxucuların informasiya tələbatının ödənilməsinə müsbət təsir göstərə bilir.

Müxtəlif illərdə Azərbaycanın bir çox tanınmış, görkəmli tarixçiləri haqqında biblioqrafik göstəricilər nəşr etdirilmişdir. Keçmiş Sovet dövründə çap olunmuş Ə.Sumbatzadə (1967,1979), M.Qazıyev (1969), Z.Bünyadova(1988) həsr olunmuş şəxsi biblioqrafik vəsaitləri qeyd edə bilərik.

Müstəqillik illərində də bu cür şəxsi biblioqrafik göstəricilərin əhəmiyyəti nəzərə alınmış və onların nəşri davam etdirilmişdir. Bəhs etdiyimiz bu dövrdə Z.Bünyadov, M.İsmayılov, Y.Mahmudov, C.Quliyev, Q.Bayramov, A.Abbasov haqqında şəxsi biblioqrafik vəsaitlər çap olunmuşdur. Bu məqalədə həmin şəxsi biblioqrafik göstəricilərdən bəhs olunması nəzərdə tutulur.

Azərbaycan tarixşünaslığının inkişafında, xüsusilə bir çox tarixi problemlərin qədim mənbələr əsasında öyrə-

nilməsində müstəsna xidmətləri olan akademik Ziya Musa oğlu Bünyadova iki biblioqrafik vəsait tərtib edilmişdir. Birinci vəsait 1994-cü ildə «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasında AMEA-nın Mərkəzi Elmi kitabxanası tərəfindən çap olunmuşdur (7). Bu biblioqrafik göstərici Z.Bünyadov haqqında 1988-ci ildə nəşr edilmiş ilk biblioqrafik vəsaitin təkmilləşdirilmiş variantıdır. Ç.N.Əhmədova tərəfindən tərtib edilmiş biblioqrafik göstəriciyə alimin 1953-1994-cü illər arasında azərbaycan, rus, özbək, türk və avropa dillərində nəşr olunmuş kitab, məcmuə, elmi konfrans, simpozium materialları, dövri mətbuat məqalələri ilə yanaşı yazdığı və kitabları haqqında dərc edilmiş rəyləri barəsində biblioqrafik məlumat daxil edilmişdir.

347 sənədin biblioqrafik təsvirinin verildiyi bu biblioqrafik göstəricidə materiallar xronoloji qaydada «Əsərlərinin biblioqrafiyası», «Rəyləri», «Əsərləri və özü haqqında» adlı 3 bölmədə qruplaşdırılmışdır. Redaktə etdiyi əsərlər isə əlifba qaydası ilə düzülmüşdür. Bu biblioqrafik göstəricinin 1988-ci il nəşrindən əsas fərqi ondadır ki, burada özünün yazdığı və kitabları haqqında dərc edilmiş rəylər barəsində də biblioqrafik informasiya verilir. İlkin nəşrdən fərqli olaraq burada alimin rəhbərlik etdiyi dissertasiyalar barəsində biblioqrafik məlumatın verilməməsi göstəricinin əsas çatışmayan cəhətidir.

Müasir dövrdə Azərbaycan tarixşünaslığında bir çox problemlər yenidən tədqiq edilir, araşdılır və bu sahə üzrə çoxlu sayda elmi əsərlər yaranır. Tarixi faktların, hadisələrin düzgün, obyektiv şəkildə işıqlandırıldığı bu sənədlər haqqında məhz şəxsi biblioqrafik vəsaitlər vasitəsilə də məlumat almaq mümkündür. Beləki, yuxarıda qeyd etdik ki, bu tip vəsaitlər ümumilikdə tarix elmi sahəsində geniş axtarış imkanı verir. Haqqında bəhs olunan biblioqrafik göstəricidən tariximizə dair qiymətli məlumatlar verən akademikin tərcümə etdiyi T.Salmaninin «Tarixnamə», S.M.Əfəndinin «Tarixi Selaniki» kitabları, «Nərimanov



haqqında naməlum sənəd», «Azərbaycan Demokratik Respublikası», «Xalqımızın tarixi haqqında düşüncələr», «Tarix yenidən yazılma0lıdır» məqalələri barəsində biblioqrafik informasiya almaq olar.

Biblioqrafik göstəricinin sonuna ondan istifadəni asanlaşdırmaq məqsədilə əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəricisi əlavə edilmişdir.

Akademik Z.Bünyadov haqqında daha bir biblioqrafik göstərici 2004-cü ildə «Nurlan» nəşriyyatında çap olunmuşdur (8). AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu tərəfindən hazırlanmış göstəricinin tərtibçisi Z.T.Qurbanovadır. Bu biblioqrafik vəsait alimə həsr olunmuş əvvəlki iki göstəricidən tərtibatı baxımından olduqca fərqlənir. Buraya 2003-cü ilədək nəşr olunmuş 1085 sənəd haqqında biblioqraifk məlumat daxil edilmişdir. Biblioqrafik vəsaitin əvvəlində f.e.d., prof. G.Baxşəliyeva və t.e.n. F.Əsədova tərəfindən yazılmış «Ziya Musa oğlu Bünyadov» başlıqlı məqalədə akademikin həyat və fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır. Biblioqrafik göstərici iki hissədən ibarətdir. «Əsərlərinin biblioqrafiyası» adlı I hissədə 701 sənəd haqqında biblioqrafik məlumat verilir. Burada alimin 1953-1999-cu illərdə çapdan çıxmış əsərlərinin biblioqrafik təsviri xronoloji prinsip üzrə sistemləşdirilmişdir. Eyni zamanda il ərzində çap edilmiş əsərlər , həm də nəşr dilinə uyğun olaraq əlifba sırası ilə azərbaycan, rus, avropa və şərq dillərində əks olunmuşdur. Həmçinin illər daxilində materiallar monoqrafiya, məqalə, tərcümə, elmi redaktələri ardığıllığı ilə verilmişdir. Sənədlərin bu cür sistemləşdirilməsi Z.Bünyadovun yaradıcılıq yolunu, onun həyatının keşməkeşləri ilə əlaqədar izləməyə imkan verir və alimin yaradıcılıq üslubunun, tərzinin inkişafını,onun nə vaxt, hansı mövzuya, janra üstünlük verdiyini nümayiş etdirir. Hər hansı nəşrə rəy isə həsr olunduğu işin adı ilə göstərilmişdir. Əsərlərinin adları onun nəşr edildiyi dildə, ərəb və fars dillərində olanlar isə transkripsiya ilə verilmişdir.

Biblioqafik göstəricinin II hissəsi alimin müasirlərinin onun və əsərlərinin haqqında yazdıqları məqalələri, rəyləri əhatə edir. Burada 1942-2003-cü illərdə çap olunmuş 384 sənədin biblioqrafik təsviri oxucuların nəzərinə çatdırılır. Biblioqrafik vəsaitin sonunda verilmiş köməkçi aparat ondan istifadəni xeyli asanlaşdırır. Əvvəlcə Z.Bünyadovun azərbaycan və rus dillərində olan əsərlərinin, daha sonra «avropa və şərq dillərində» başlığı ilə ərəb, ingilis, tatar, türk, özbək, ukrayna, fransız dillərində olan əsərlərinin əlifba göstəricisi təqdim olunmuşdur. Bu hissədə eyni zamanda alimin məqalələrinin və tərcümələrinin də əlifba göstəricisi ayrıca verilmişdir. Biblioqrafik göstərici Z.Bünyadovun fəaliyyəti ilə maraqlananlar, həmçinin tariximizi tədqiq edən tarixşünaslarımız üçün olduqca əhəmiyyətlidir. Beləki burada barəsində biblioqrafik məlumat verilən akademikin tərcümə etdiyi «İrəvan əyalətinin icmal dəftəri», «Moisey Kalankatuklu. Albaniya tarixi», «Nizaməddin Şami. Zəfərnamə», «Mehmet Solakzade. Tarix» və s. əsərlər bu baxımdan çox maraqlıdır.

«Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasında şəxsi biblioqrafik göstəricilərdən biri tarix elmləri doktoru, professor Mahmud Əlabbas oğlu İsmayılova həsr edilmişdir. Bu biblioqrafik göstərici 1993-cü ildə nəşr olunmuşdur. H.Ə.Zülalovanın hazırladığı bu göstərici tarixçinin 1946-1991-ci illər arasında azərbaycan, rus, dillərində nəşr edilən kitab, məcmuə, elmi sessiya, simpozium, konfrans materialları, həmçinin məqalələrin biblioqrafik təsvirini əks etdirir. Burada t.e.n. H.Həsənov tərəfindən yazılmış oçerkdən M.İsmayılovun elmi, pedaqoji və ictimai fəaliyyəti ilə bağlı geniş məlumat almaq olur. Biblioqrafik vəsaitə daxil edilmiş materialların hamısı – əsərləri, redaktə etdiyi əsərlər, elmi rəhbərlik etdiyi dissertasiyalar, eləcə də haqqında yazılmış sənədlər barəsində biblioqrafik məlumat dil prinsipinə əsaslanaraq xronoloji qaydada daxilən əlifba prinsipinə riayət edilməklə sistemləşdirilmişdir. Bu göstəricidə xronoloji çərçivə 1946-1991-ci illəri əhatə etsə də vəsaitin mətni çapa hazırlanan vaxt -1992-ci ildə alimin nəşr olunmuş əsərlərinin də biblioqrafik təsviri sonda ayrıca əks olunmuşdur (5).



Vəsaitdə «Azərbaycan xalqının yaranması», «Qarabağ tarixini saxtalaşdırmaqda davam edirlər», «Azərbaycan xanlıqları: tariximizin açılmamış səhifələri» və s. alimin bir çox aktual tarixi problemlərə həsr edilmiş məqalələri haqqında biblioqrafik məlumat verilir.

Biblioqrafik göstərici sonda üç yardımçı göstərici – əsərlərinin, müştərək müəlliflərin və haqqında yazan müəlliflərin əlifba göstəricisi ilə tamamlanır.

Digər bir şəxsi biblioqrafik göstərici tarix elmləri doktoru, professor Yaqub Mikayıl oğlu Mahmudova həsr edilmiş və 1998-ci ildə «Altay» nəşriyyatında çap olunmuşdur. Üç hissədən ibarət olan biblioqrafik göstəricinin I hissəsi «Yaqub Mikayıl oğlu Mahmudov» adlanır. Buraya alimin həyat və fəaliyyətinin əsas məqamlarının xronologiyası daxil edilmişdir. «Həyatından sətirlər» adlı məqalədən isə Y.Mahmudovun həyat və fəaliyyəti ilə bağlı geniş informasiya almaq mümkündür. «Əsərlərinin biblioqrafiyası» adlı II hissə bir neçə yarımbölməyə ayrılır. Burada tarixçinin elmi tədqiqat əsərləri; elmi – publisistik məqalələri; dərslikləri, dərs vəsaitləri, tədris-metodiki nəşrləri; məruzə, çıxış, elmi-pedaqoji ezamiyə və səfərləri; rəy, yazı və çıxışları ilə bağlı sənədlərin biblioqrafik təsviri ayrıca yarımbölmələrdə qruplaşdırılmışdır. Ümumilikdə vəsaitə daxil edilmiş 366 adda sənəd haqqında biblioqrafik məlumat xronoloji prinsip əsasında verilmişdir. Kitabın III hissəsi «Əlifba göstəricisi» adlanır ki, burada Y.Mahmudovun əsərləri, iştirak etdiyi elmi konfraslar və beynəlxalq simpoziumlar haqqında materiallar əlifba sırası ilə göstərilmişdir. Biblioqrafik vəsaitdə alimin «Başıbəlalı tariximiz», «Tariximiz, taleyimiz», «Tarix həqiqəti öyrənməlidir» və s. məqalələri barəsində ve-

rilmiş biblioqrafik məlumat onun əhəmiyyətini daha da artırır (6).

Tarix elmləri doktoru, rofessor Cəmil Bahadur oğlu Quliyev haqqında şəxsi biblioqrafik göstərici «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasında 1999-cu ildə çap edilmişdir. Tərtibçiləri Ç.Əhmədova və A.H.Orucova olan biblioqrafik vəsait alimin 1953-1998-ci illərdə azərbaycan və rus dillərində nəşr edilmiş, monoqrafiya, kitab, kitabça, dövri mətbuatda və ayrı-ayrı məcmuələrdə çap olunmuş məqalələrinin biblioqrafik təsvirini əhatə edir. Kitabın əvvəlində tarixçi haqqında azərbaycan dili ilə yanaşı rus və ingilis dillərində qısa oçerkin verilməsi çox diqqətəlayiqdir. Burada həmçinin ayrı-ayrı bölmələrdən alimin əsərləri, redaktə etdiyi kitablar, elmi rəhbəri və məsləhətçisi olduğu dissertasiyaları, həyatı və ictimai fəaliyyəti ilə bağlı sənədlər haqqında biblioqrafik məlumat almaq olur. Biblioqrafik vəsaitin tərtibində əhəmiyyətli cəhətlərdən biri burada «Elmi əsərlərinin biblioqrafiyası» bölməsində «Publisistika» başlığı ilə məqalələrin ayrıca verilməsidir. Məhz bu cəhət oxucuların axtarış prosesini asanlaşdırır. Vəsait sonda alimin əsərlərinin və müştərək müəlliflərin əlifba göstəricisi ilə təmin edilmişdir (2).

Tarixçilərimizə həsr olunmuş daha bir şəxsi biblioqrafik vəsait tarix elmləri doktoru, professor Qurban Məmməd oğlu Bayramov haqqındadır. Bu vəsait 2004-cü ildə «Bakı Universiteti nəşriyyatı»nda nəşr edilmişdir. T.e.n., dos. K.Şükürovun tərtibçisi olduğu göstəricidə ümumilikdə 168 sənədin biblioqraifk təsviri sistemləşdirilmişdir. Alimin həyat və yaradıcılığını əks etdirən məqalədən sonra ayrı-ayrı yarımbölmələrdə onun əsərləri; onlar haqqında rəy; rəhbərlik etdiyi dissertasiyalar; redaktə etdiyi əsərlər; rəsmi opponenti olduğu dissertasiya işləri; rəy verdiyi əsərlər barəsində biblioqrafik məlumat verilir. Sonda əsərlərinin əlifba göstəricisi əks etdirilmişdir ki, burada bir sıra nöqsanlar vardır. Belə ki, alimin əlifba sırası ilə təqdim



olunmuş əsərlərinin qarşısında nə əsərin kitabdakı sıra nömrəsi, nə də əks olunduğu səhifə göstərilməmişdir. Həmçinin azərbaycan və rus dilində olan sənədlərin biblioqrafik təsviri qarışıq göstərilib ki, bu da vəsaitdən istifadəni çətinləşdirir (4).

«Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasında çap olunmuş daha bir şəxsi biblioqrafik vəsait AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Arif Akim oğlu Abbasova həsr edilmişdir. 2005-ci ildə nəşr edilmiş vəsait tarixçinin 1965-2005 - ci illərdə azərbaycan, rus və digər xarici dillərdə nəşr edilmiş monoqrafiya, məcmuə, elmi sessiya materiallarını və dövri mətbuatda dərc edilmiş məqalələri barədə biblioqrafik informasiyanı əhatə edir. Bundan əvvəl haqqında məlumat verdiyimiz biblioqrafik göstəricilərin hamısında olduğu kimi burada da ilk növbədə alimin həyatı, elmi və ictimai fəaliyyətinin əsas tarixlərinin xronologiyası verilmişdir. Daha sonra A.Abbasovun elmi, ictimai, siyasi fəaliyyətini işıqlandıran azərbaycan, rus və ingilis dillərində qısa oçerk təqdim olunmuşdur.

Materiallar dörd bölmədə – «Əsərlərinin biblioqrafiyası», «Redaktə işi», «Dissertantlara elmi rəhbərlik və məsləhətçi», «Həyat, yaradıcılığı və əsərləri haqqında ədəbiyyat» bölmələrində qruplaşdırılmışdır. Vəsaitə daxil edilmiş bütün sənədlər illər üzrə sistemləşdirilmişdir. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün sonda verilmiş «Müştərək müəlliflərin», «Haqqında yazan müəlliflərin » əlifba göstəricisindən sonra bir neçə tanınmış alimin A.Abbasovla bağlı xatirələri də əks etdirilmişdir (1).

Tarixçilərimizə həsr edilmiş şəxsi biblioqrafik göstəricilərin nəşrində göründüyü kimi Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasnın xidmətləri böyükdür. Kitabxananın internetdə olan www.csl-az.com saytında apardığım axtarış nəticəsində məlum oldu ki, kitabxana tarixçi alimlərdən AMEA-nın akademiki Teymur Əmiraslan oğlu Bünyadov və akademiyanın müxbir üzvü

Məşədixanım Sədulla qızı Nemətovanın şəxsi biblioqrafik vəsaitlərini tərtib edib nəşrə vermişdir (9).

Tarixçi alimlərimizə həsr edilmiş biblioqrafik göstəricilərin əhəmiyyətini nəzərə alaraq onların tərtibinə, eyni zamanda dövrün tələblərinə uyğun olaraq bu vəsaitlərin internetdə əks etdirilməsi məsələsinə də xüsusi diqqət yetirmək lazımdır.

## ƏDƏBİYYAT


1. *Arif Abbasov: Biblioqrafiya/AMEA Mərkəzi Elmi kitabxanası.-B.: Nafta-Press, 2005.-88s.*

2. *Cəmil Bahadur oğlu Quliyev: Biblioqrafiya /tərt.ed.: A.H.Orucova.-B.:Elm,1999.-90s.*

3. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: dərs vəsaiti.-B.,2001.-145s.*

4. *Qurban Bayramov: Biblioqrafiya.-B.,2004.-46s.*

5. *M.Ə.İsmayılov:Biblioqrafiya/ tərt. ed.:H.Ə.Zülalova.-B.:Elm,1994.-61s*

6. *Yaqub Mahmudov: Biblioqrafiya/ tərtibçilər: N.B.Məmmədova və b..-B.:Altay,1998.-91ş.*

7. *Ziya Bünyadov: Biblioqrafiya/ tərt. ed.: Ç. N. Əhmədova. -B.: Elm, 1994.-61s.*

8. *Ziya Musa oğlu Bünyadov: Biblioqrafiya.-B.:Nurlan,2004.-124s.*

9. *www.csl-az.com*




***Amina Mamedova***

## ПЕРСОНАЛЬНЫЕ БИБЛИОГРАФИЧЕСКИЕ УКАЗАТЕЛИ ПОСВЯЩЕННЫЕ АЗЕРБАЙДЖАНСКИМ ИСТОРИКАМ

### *РЕЗЮМЕ*


*Персональные библиографические указатели занимают важное место в системе библиографического обеспечения Азербайджанского историографии.*

*В данной статье анализированы ряд библиографических указателей, посвященные известным ученым – историкам, которые изданы в годы независимости республики.*

**Arzu VƏLİYEVA**
*Dissertant*

## M. F. AXUNDOV ADINA MİLLİ KİTABXANADA OXUCULARA BİBLİOQRAFİK İNFORMASİYA XİDMETİ TARİXİNDƏN ( 1970 – 1980)

Keçən əsrin 70-ci illərində kitabxanalarda, o cümlədən Milli kitabxanada biblioqrafik xidmət əsasən 2 istiqamətdə həyata keçirilirdi:

a) Biblioqrafik informasiya xidməti.

b) Soraq-biblioqrafiya xidməti.

Qeyd etmək lazımdır ki, 70-ci illərdə Milli kitabxana artıq Respublika Mədəniyyət və incəsənət sahəsində biblioqrafik informasiya mərkəzi kimi formalaşmağa başlamışdır. Bu məqsədlə 1975-ci ildə kitabxanada «Mədəniyyət və İncəsənət üzrə informasiya şöbəsi» yaradılmış və həmin ildən də şöbə rüblük «Mədəniyyət və incəsənətə dair yeni ədəbiyyat» bülleteninin nəşrinə başlamışdır. Burada hər 2 ay ərzində kitabxanaya Azərbaycan və Rus dillərində mədəniyyət və incəsənətin bütün sahələrinə dair daxil olan ədəbiyyatın siyahısı verilirdi.

Bu biblioqrafik informasiya bülleteninin nəşr edilməsində məqsəd Respublikanın rəhbər təşkilatlarına, elmi işçilərə, yaradıcı insanlara, mütəxəssislərə mədəniyyət və incəsənətin bütün sahələri üzrə Milli kitabxanaya daxil olan yeni kitablar, məcmuə və elmi əsərlərdə, qəzet və jurnallarda dərc olunan materiallar (Azərbaycan və rus dillərində) haqqında məlumat verilməsindən ibarət idi. Bütün materiallar keçmiş SSRİ-nin mədəniyyət və incəsənət üzrə informasiya mərkəzi sayılan Lenin adına Ümumittifaq Dövlət kitabxanasının tərtib etdiyi təsnifat əsasında qruplaşdırılırdı.



1982-ci ilə qədər ildə 6 nömrəsi buraxılan informasiya bülleteninin illik ümumi həcmi 20 çap vərəqi təşkil edirdi.

1982-ci ildə həmin informasiya bülleteninin məzmunu dəqiqləşdirilərək «Azərbaycan mədəniyyəti və incəsənəti üzrə yeni ədəbiyyat» adı ilə nəşr olunmağa başladı.

Bu dövrdə Milli Kitabxana tərəfindən cari biblioqrafik informasiya xidməti sahəsində həyata keçirdiyi tədbirlər sistemində kitabxana tərəfindən nəşr edilib kitabxanalara göndərilən iki vəsaitin adı xüsusi qeyd edilməlidir. Bunlar 1978-ci ildən nəşr edilməyə başlayan «Kənd təsərrüfatına dair yeni kitablar» və «Azərbaycan SSRİ mətbuatında» adlı ildə 2 dəfə nəşr edilən informasiya bülletenləri idi.

Birinci vəsait Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası ilə birlikdə nəşr edilən ölkənin bütün kənd təsərrüfatı və MKS-lərin mərkəzi kitabxanalarına göndərilirdi.

Bülletenin hissəsində Aərbaycanda kənd təsərrüfatına dair Azərbaycan və rus dillərində nəşr edilən kitablar, hissəsində isə SSRİ digər Respublika və vilayətlərində nəşr edilmiş və məcburi nüsxə xətti ilə Milli kitabxanaya və Respublika kənd təsərrüfatı kitabxanasına daxil edilmiş yeni nəşrlər əks etdirilirdi.

Onu da qeyd edək ki, yerlərdən gələn məlumatlara görə bu göstərici ölkənin rayon və kənd kitabxanaları oxucuları tərəfindən, xüsusən kənd təsərrüfatı mütəxəssisləri tərəfindən olduqca səmərəli istifadə edilirdi.

M. F. Axundov adına Milli kitabxananın oxu culara biblioqrafik informasiya xidmətindən danışarkən bir məsələnin üzərində xüsusi dayanmaq lazım gəlir. Məsələ burasındadır ki, 60-70-ci illərdə oxuculara ənənəvi biblioqrafik informasiya xidmətində, o cümlədən biblioqrafik informasiya vəsaitlərinin istifadəsində bir mühüm nöqsan nəzərə çarpırdı. Bu nöqsan biblioqrafik informasiya xidmətini həyata keçirən müəssisə ilə tələbatçılar arasında əks əlaqənin olmaması idi. Belə ki,

oxucuların istifadəsinə verilən müxtəlif tipli biblioqrafik informasiya vasitələrinin (biblioqrafik göstəricilərin, informasiya bülletenlərinin, müxtəlif şifahi materiallarının və s.) tələbatçılar tərəfindən istifadə edilməsi barəsində operativ məlumatların əldə edilməsinin mümkün olmaması, həmin vəsaitlərdə nə qədər uyğun olması haqqında müvafiq sorğu, tələbat və tələblərinə nə qədər uyğun olması haqqında məlumatların əldə edilməsi mexanizmi yox idi.

Doğrudur belə vəziyyəti aradan qaldırmaq üçün kitabxanalar, o cümlədən M.F. Axundov adına Milli kitabxana vaxtaşırı sorğu vərəqləri, onların istifadəsinə dair müxtəlif anketlər, bir sıra hallarda isə xüsusi tədqiqatlar aparırdılar.

Lakin belə üsullar əksər hallarda operativ xarakter daşımır, informasiya vasitələrinin tələbatçılar tərəfindən istifadə səmərəliliyini dəqiq və vaxtında müəyyənləşdirmək üçün o qədər də yararlı olmurdular. Odur ki, 60-cı illərdən başlayaraq ölkə kitabxanalarında tələbatçılara fərqli xidmətin mütərəqqi üsulu kimi özünə vətəndaşlıq hüququ qazanmağa başlamış «İnfor-masiyanın seçilmiş yayılması» xidməti sistemi tətbiq edilməyə başlamışdır.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə informasiya axtarış sistemləri olmadan kitabxanalarda xüsusən M.F. Axundov adına Milli kitabxana kimi zəngin informasiya ehtiyatlarına malik olan universal kitabxanada sənəd kütləsi içərisindən tələbatçılara lazım olan materialları operativ şəkildə müəyyənləşdirmək olduqca çətin prosesdir.

Kitabxana informatikası üzrə tanınmış alim Əli Rüstəmov bu haqda belə yazır: «informasiya axtarışı informatikanın mərkəzi anlayışı olub, insanla informasiya kütləsi arasında yaranan müxtəlif kommunikasiya (əlaqə) proseslərini ifadə edir. İnformasiya axtarışı dedikdə tələbatçının sorğusuna uyğun olan faktların, məlumatların, sənədlərdən toplanmasına imkan verən məntiqi və texniki əməliyyatların məcmusu nəzərdə tutulur.



İnformasiya axtarışının mərkəzi anlayışı «Relevantlıq»dır. Bu anlayış müəyyən informasiya axtarış sistemləri vasitəsi ilə verilən sənədlərin tələbatçı sorğusuna uyğunluq dərəcəsini ifadə edir».

1970-1980-ci illərdə keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda formalaşmış təcrübəyə əsasən informasiyanın seçilmiş yayılması rejimində tələbatçıların daimi sorğularına əsasən onlara cari informasiya verilirdi. Cari informasiya verilişi həftədə, yaxud ayda bir dəfə təşkil edilirdi. Fərdi və kollektiv tələbatçılar əvvəlcə onları maraqlandıran materialları müvafiq kitabxana informasiya müəssəsinə göndərirdilər. Bundan sonra kitabxanada həmin mövzular indeksləşdirilir və axtarış sisteminə daxil edilirdi. Daha sonra mövzuların axtarış əlamətləri sənədlərin axtarış əlamətlərilə müqayisə edilir və onlar uyğun gəldikdə səndlərin şəklin- biblioqrafik-informasiyası şifahi və ya kartoçkalar tələbatçılara əks əlaqə talonları ilə birlikdə göndərilirdi. Əks əlaqə talonlarında sənədlərin qiymətləndirmə şkalası verilir və tələbatçı onu maraqlandıran sənədin altından qiymətləndirmə şkalasına uyğun xətt çəkir və onun surətini və ya orijinalını almaq istədiyini bildirirdi. Beləliklə, informasiyanın seçilmiş yayılması sistemində oxucu ilə kitabxana arasında əks əlaqə mexanikası yaradılırdı. Odur ki, «İnformasiyanın seçilmiş yayılması» sisteminin meydana gəlməsi öz dövrünün ən mütərəqqi fərqli informasiya xidməti üsulu olub həmin xidməti tətbiq edən kitabxana informasiya müəsissələrinə informasiya tələbatçıları ilə gündəlik operativ əlaqə saxlamağa, onların bu və ya digər informasiyaya olan münasibətini müəyyənləşdirməyə başlamış, onradan isə tədricən kitabxanalarda da oxuculara informasiya xidmətinin əsas formasına çevrilmişdir.

M.F. Axundov adına Milli kitabxanada informasiyanın seçilmiş yayılması kitabxananın mədəniyyət və incəsənət üzrə informasiya mərkəzinə uyğun olaraq təbii ki, müvafiq sahələrin oxucularının informasiya təminatına

yönəlmiş xidmət sistemi idi. Bu işə Milli kitabxanada 1978-ci ildən başladı. Elə həmin il kitabxana mədəniyyət və incəsənət sahəsində 30 problem üzrə 40 fərdi və 420 kollektiv abonentə xidmət edirdi. (4)

Fərdi abonentlər içərisində Respublikanın görkəmli teatrşünasları, musiqişunasları, memarlıq, təsviri sənət, kino və s. sahələrdə çalışan yaradıcı adamlar, alimlər və mütəxəssislər, həmçinin Respublika Mədəniyyət Nazirliyinin aparıcı əməkdaşları, kollektiv abonentlərə isə bəstəkarlar, rəssamlar, yazıçılar birlikləri, AMEA-nın incəsənət və memarlıq institutu, akademik teatrlar, Dövlət flarmoniyası, kitabxanalar və s. yaradıcı kollektivlər daxil idi.

Milli kitabxana «İnformasiyanın seçilmiş yayılması» xidmət sistemi aşağıdakı prinsiplərə əsaslanırdı:

– abonentlərə çatdırılan biblioqrafik informasiyanın dolğunluğu;

– informasiyanın operativliyi

– inormasiya tələbatçıları ilə daimi əks əlaqə;

– tələbatçıların sorğuları əsasında ilkin sənədlərlə təmin edilməsi;

Verilən informasiyanın dolğunluğunun təmin edilməsi məqsədilə kitabxananın «Mədəniyyət və İncəsənət üzrə elmi informasiya» şöbəsində müvafiq sahələrlə əlaqədər Azərbaycan və rus dillərində bütün cari informasiya mənbələri diqqətlə öyrənilirdi. Bu məqsədlə bütün referativ jurnallar digər informasiya vasitələri, eləcə də Azərbaycan və rus dillərində kitabxanaya daxil olan salnamələr, siqnal informasiya vasitələri, yeni kitablar, nəşriyyat planları, sifariş blankları və s. materiallar diqqətlə nəzərdən keçirilir, abonentlərinə əvvəlcədən sifariş etdiyi mövzulara uyğun seçilib sistemləşdirilirdi.

Onu da qeyd edək ki, hələ xidmətin ilkin, yəni hazırlıq mərhələsində abonentlərin sifarişləri əsasında onları maraqlandıran problem və mövzular təsnifləşdirilmiş, mövzuların rubrikatorları hazırlanmış və kodlaşdırılmışdır.



Oxucuların müvafiq mövzu və problemlərlə əlaqədar sorğularına müvafiq seçilən sənədlər (kitablar, məqalələr, təsviri sənət materialları, notlar və s.) müvafiq kodlar əsasında sistemləşdirilib ayda bir dəfə oxuculara çatdırılırdı.

Qeyd etmək lazımdır ki, tələbatçılara fərqli informasiya xidmətinin operativliyi onun səmərəliliyinin əsas amillərindən biridir. Çünki, yeni cari informasiyanın vaxtında çatdırılmaması, onun gecikdirilməsi, əksər tələbatçılar tərəfindən elmi tədqiqatların aparılmasına mənfi təsir göstərən, müvafiq informasiyanın köhnəlməsinə səbəb olan hal kimi qiymətləndirilir. (4)

Bu da öz növbəsində informasiya xidmətini səmərəsiz və lazımi fayda verməyən bir fəaliyyət sahəsinə çevirir. İnformasiyanın seçilmiş yayılması xidmətinin səmərəliliyini sübut edən ən mühüm amil onun tələbatçılarla əks əlaqəsini xarakterizə edən kəmiyyət və keyfiyyət göstəriciləridir. Çünki tələbatçılara təqdim edilən informasiya əsasən sənədləri onların nəzərinə çatdırır və bu üsul demək olar ki, bütün biblioqrafik informasiya vasitələrinə xasdır. Lakin informasiyanın seçilmiş yayılması sistemində tətbiq edilən əks əlaqə üsulu tələbatçılarının həmin sənədlərə olan münasibətini müəyyənləşdirməklə yanaşı, onlar tərəfindən bu sənədlərin əldə edilməsi və istifadəsini də təmin edir. Bu məqsədlə fərdi və kollektiv tələbatçılara təqdim edilən informasiya xüsusi qoparma talon-kartoçkalarla təmin edilir ki, bu da Milli Kitabxanada informasiya xidmətinin tələbatçılarla əks əlaqə funksiyasını oynayırdı. Belə ki, talon-kartoçkalarda abonentlərə təqdim edilən materialların əhəmiyyətini göstərən 0-5 bala qədər qiymətləndirmə materialından istifadə edilirdi:

5 – material qiymətlidir – istifadə ediləcəkdir, lazımdır.

4 – əhəmiyyəti var;

3 – məlumdur;

2 – mövzu ilə əlaqədar əhəmiyyət daşımır;

1 – mövzuya və ya problemə uyğun deyil;

Hər bir informasiya kütləsi ilə tələbatçılara təqdim edilən belə əks əlaqə kartoçkalarında abonentin nömrəsi, sənədin nömrəsi, eləcə də yuxarıda göstərilən balla işarə edilirdi.

Beləliklə Milli kitabxananın informasiyanın seçilmiş yayılması xidmətində əks əlaqə mexanizminin tətbiqi alınmış nəticə əsasında bir tərəfdən tələbatçıları ilkin sənədlərlə təmin edir, digər tərəfdən isə informasiya mənbələrinin onların sorğularına uyğun daha dəqiq seçilməsini və bununla da informasiya xidmətinin bütövlükdə səmərəli olmasına həlledici müsbət təsir göstərirdi.

## ƏDƏBİYYAT


*1. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq. Dərs vəsaiti B. 2001-142s.*

*2. 70 il xalqın xidmətində. (M.F. Axundov adına Azərbaycan Dövlət kitabxanasının tarixinə dair materiallar) B. 1993-90 s.*

*3. Rüstəmov Ə. İnformatika. (informatika proseslərinin təşkili və avtomatlaşdırılması). Dərs vəsaiti.- B.,1991.- 27s.*

*4. M.F Axundov adına ADK-nın Mədəniyyət və incəsənət üzrə Elmi informasiya şöbəsinin 1978-1985-ci il hesabatları.*



***Арзу Велиева***


## ИЗ ИСТОРИИ БИБЛИОГРАФИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЬЯМ В НАЦИОНАЛЬНОГО БИБЛИОТЕКЕ ИМ. М.Ф.АХУНДОВА (1970-1980)

## РЕЗЮМЕ


*В статье дается краткый анализ текущих информационных изданий, а также информационного обслуживания по системе ИРИ в 1970-1988-е годе.*

**Şəhla Tahir qızı**
*Müəllim*

# KİTAB TİCARƏTİ ÇEŞİDİNİN TİPOLOJİ MODELİ

Kitab ticarəti çeşidi «Kitab işi», «Kitab sistemi» kimi anlayışların mühüm tərkib hissəsidir. Bu baxımdan, kitab ticarəti çeşidi anlayışının kitab və kitab işi haqqında müasir təsəvvürlər baxımından nəzərdən keçirilməsi məqsədəuyğundur. Həmin təsəvvürlərə əsasən kitab ticarəti çeşidi kitabların ticarət şəbəkəsi daxilində mövcudluğunun, dövriyyəsinin üsuludur. Belə anlayış kitab ticarəti çeşidini təcrid olunmuş vəziyyətdə deyil, ümumi şəkildə, kitab işinin digər sahələrində mövcud olan analoji üsullarla vəhdət halında öyrənməyə imkan verir.

Göstərilən sistem daxilində kitab ticarəti çeşidi nəşriyyat repertuarı (nəşriyyat-redaksiya işində kitabların mövcudluğu, hərəkəti), kitabxana fondları (kitabxana işində kitabların mövcudluğu, hərəkəti) və ümumiyyətlə, kitabların mövcudluğu və dövriyyəsini nəzərdə tutan kitab repertuarı kimi təzahürlərlə sıx əlaqədədir. Kitab ticarəti çeşidinin xarici əlaqələrinin əsas cəhəti ondan ibarətdir ki, o, cəmiyyətin kitaba olan tələbatı sisteminə bilavasitə daxil olur, oxucu tələbatları sistemində reallaşır, kitab ticarətində alıcı tələbi şəklində çıxış edir.

Kitab işində kitab ticarəti çeşidinin yeri və rolu onunla müəyyənləşir ki, məhz çeşid sayəsində ədəbi əsərlərin potensial ictimai dəyəri realizə olunur, nəşrlərin ictimai dəyəri ortaya çıxır, oxucu və alıcı maraqlarını daha yüksək səviyyədə təmin etmək mümkün olur.

Kitab işinin digər hər hansı bir təzahürü kimi kitab ticarəti çeşidinin də daxili strukturu, əsas atributları vardır.

Bunlar: kitab ticarəti çeşidinin predmeti, məqsədi və ünvanıdır.

Kitab ticarəti çeşidinin predmeti nəşriyyat repertuarıdır. Burada həm cari, həm də keçmiş (retrospektiv) və gələcək (perspektiv) nəşriyyat repertuarı nəzərdə tutulur. Kitab ticarəti çeşidinin predmetinin bu cür müəyyən olunması bir qədər məhdud görünə bilər, çünki kitab ticarəti çeşidi təkcə nəşri məhsullar hesabına deyil, habelə istehlak sferasının hesabına, məsələn kitabların təkrar dövriyyəsini təşkil edən bukinist ticarətinin sayəsində formalaşır. Lakin burada söhbət konkret kitab ticarəti çeşidindən deyil, ümumiyyətlə, nəzəri çeşid problemindən gedir. Nəzəri səviyyədə təhlil zamanı kitabların ticarət çeşidinə hansı sferadan: istehsalçıdan və ya istehlakçıdan daxil olmasının əhəmiyyəti yoxdur. Əsas odur ki, konkret nüsxə nə vaxtsa dərc olunmuşdur, işıq üzü görmüşdür və deməli, nəşriyyat repertuarının (bu halda retrospektiv repertuarın) bir ünsürü kimi baxıla bilər.

Bununla belə, kitab ticarəti çeşidinin predmetini ümumi kitab repertuarı, cəmiyyətin «kitab sərvəti» həddinədək genişləndirmək düzgün deyildir. Çünki kitab ticarəti çeşidi özü də bir sıra digər ünsürlər kimi kitab repertuarının tərkib hissəsidir.

Kitab ticarəti çeşidinin məqsədi kitabşünaslıq vasitələrindən istifadə etməklə nəşriyyat repertuarının diferensial bölgüsünə və yayımına, təkrar yayımına nail olmaqdır.

Kitab ticarəti çeşidinin ünvanı cəmiyyətin kitaba olan tələbatının ödənilməsi, kitabxana fondlarının yaradılması, cəmiyyətdə oxucu marağının oyadılması və təmin olunması kimi son nəticələrlə müəyyən olunur.

Kitab ticarəti çeşidinin ardıcıl modelləşdirilməsi (konkret kitab ticarəti müəssisəsinin çeşidindən tutmuş bütövlükdə respublika kitab ticarəti çeşidinədək) zərurəti bu gün həm kitab yazarları və naşirlərini, həm də kitab ticarəti ilə məşğul olan dövlət və özəl qurumları narahat edən problemdir.



Hazırda əsas vəzifələrdən biri nəşr olunacaq kitabların sayını oxucuların real tələbinə və alıcılıq qabiliyyətinə uyğun olaraq dürüst müəyyən etməkdir. Bir tərəfdən, tirajın sayının yüksək olması nüsxənin maya dəyərinin aşağı düşməsinə səbəb olursa, digər tərəfdən, istehsal olunmuş kitabların satılmadan qalması naşirin və ya sifarişçinin zərərə düşməsinə səbəb olur. Buna görə də, kitab naşirləri qarşısında istehsal olunan kitabların optimal sayını müəyyənləşdirmək vəzifəsi dayanır.

Digər hər hansı əmtəə kimi kitabların da satışı təkcə onların oxucu tələbatına uyğunluğundan deyil, habelə və demək olar ki, ilk növbədə satış qiymətindən asılıdır. Məlum olduğu kimi, sovet dövründə inzibati-amirlik iqtisadiyyatı mövcud idi, burada kitablar digər məhsullar kimi dövlət sifarişi əsasında istehsal olunur və dövlətin müəyyən etdiyi qiymətlərlə satılır, fondlara pulsuz verilirdi. Hazırda respublikamız bazar iqtisadiyyatının formalaşmasının başa çatdığı bir mərhələdədir. Bazar bütün əmtəələrin sərbəst dövriyyəsinə, tələb və təklifin azad münasibətinə əsaslanır. İqtisadiyyatın bazar modeli üçün tələb və təklifi, o cümlədən kitablara olan tələb və təklifin tarazlığını yaradan əsas amil qiymətdir. Qiymət nə qədər yüksəkdirsə, deməli, alıcılıq qabiliyyəti bir o qədər aşağı düşür və son nəticədə kitabların satış həcmi azalır.

Göstərilən faktorları nəzərə alaraq dövlətimiz kitab və digər mətbu nəşrlərin istehsalı və yayımını stimullaşdırmaq üçün bir sıra tədbirlər görmüşdür. Məsələn, KİV-ə dövlət yardımının artırılmasına dair Prezidentin 20 iyul 2001-ci il tarixli fərmanı ilə qəzet kağızına tətbiq edilən idxal rüsumu 5 faizdən 0,5 faizə endirilmiş, habelə KİV məhsullarının satışından əldə edilən mənfəətdən tutulmalı vergilərin 3 il ərzində dövlət büdcəsindən ödənilməsi nəzərdə tutulmuşdu. KİV-ə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında 27 dekabr 2001-ci il tarixli sərəncamla isə qəzet kağızına tətbiq edilən əlavə dəyər vergisi (ƏDV) ləğv olun-

muş, KİV-ə uzun müddətli və qısa müddətli kreditlərin verilməsi, mətbuat vasitələrinin çapı və yayımı işinin yaxşılaşdırılması, borcların müddətinin uzadılması və s. tədbirlər müəyyən edilmişdir.

Bununla belə, hazırda respublikada kitab ticarəti çeşidinin zəif templərlə inkişaf etməsi bildirilir. Kitab ticarətinin vəziyyətini tədqiq edən ictimai təşkilatların məlumatlarına əsasən, hazırda Bakı və digər şəhər və rayon mərkəzlərində kitab satışı məntəqələri vasitəsilə realizə olunan kitabların yarıdan çox hissəsi dini və tərifnamə xarakterli kitablardır. Digər yarının əsas hissəsini orta məktəb dərslikləri, ali məktəbə qəbul üçün test nümunələri, bu cür vəsaitlər təşkil edir. Satılan kitabların təqribən 10 faizini rəsmi hüquqi sənədlərin dərc olunduğu kitablar və broşuralar təşkil edir. Elmi və ədəbi nümunələrin həm çeşid sayı, həm də satış səviyyəsi olduqca aşağıdır. Vətəndaşlar elmi, ədəbi kitabları əsasən müstəqil kitab satışı ilə məşğul olan bukinistlərdən əldə edirlər.

Ümumiyyətlə, müstəqil tədqiqat nəticələrinə əsasən, hazırda kitab satışının zəifliyi kitabların satışa yüksək qiymətlə çıxarılmasının nəticəsi deyildir. Biz kitab satışının azalması dedikdə, onun sovet dövrü ilə müqayisədə azalmasını nəzərdə tuturuq. Sovet dövründə həm kitaba böyük ictimai tələbat olmuşdur, həm də kitablar hamı üçün sərfəli qiymətlərlə satılırdı. Hazırda bu şərtlərin heç biri lazımi formada deyildir.

Müasir inkişaf etmiş dövlətlərin praktikasında kitab çeşidi və kitab ticarəti problemləri dövlətin xüsusi qayğısında olan məsələdir, digər tərəfdən, bununla məşğul olan güclü marketinq firmaları fəaliyyət göstərir. Bu ölkələrdə nəşriyyat müəssisələri nəinki sifarişçinin tələbinə uyğun keyfiyyətdə və sayda kitab istehsal etməklə məşğuldur, habelə onun reklamını, satışını təşkil edir. ABŞ, İngiltərə Fransa və s. bu kimi dövlətlərdə hər il ən çox satılan kitabların («best-



seller») statistikası dərc olunur. Qeyd edək ki, bu kitabların böyük əksəriyyəti detektiv romanlardır.

Daha bir cəhətə diqqət yetirmək lazımdır. Bu, müəlliflik hüquqlarının qorunması vəziyyəti ilə bağlıdır. Respublika pratkikasında dəfələrlə belə hallara rast gəlinmişdir ki, yaxşı satılan kitablar hansısa naməlum nəşriyyatlar tərəfindən qanunsuz təkrar nəşr olunmuş və nisbətən ucuz qiymətlərlə gizli satışa çıxarılmışdır, halbuki müəllifin özünün satışa çıxardığı kitablar bu zaman satılmadan yığılıb qalmışdır. Bu cür faktlar müəlliflik stimulunu öldürür, son nəticədə kitab nəşrinin və çeşidinin daralmasına gətirib çıxarır. Baxmayaraq ki, Cinayət Məcəlləsi müəlliflik hüququnun pozulmasına görə cinayət məsuliyyəti müəyyən edir, bununla belə son illərdə müəlliflik hüququnun pozulmasına dair bir dənə də olsun cinayət işinin qaldırılması barədə rəsmi statsistik məlumatlar yoxdur. Sivil dövlətlərdə isə müəlliflik hüququ vətəndaşların həyat və sağlamlığı, əmlakı ilə bir səviyyədə ciddi mühafizə edilir.

Digər amil – rəqabət faktorudur. Azərbaycan kitab ticarəti bazarı Rusiyadan kitab axınının güclü təsiri altındadır. Birincisi, Azərbaycan ziyalılarının xeyli bir qismi rusca təhsil almış olduğu üçün məhz rusdilli kitablara üstünlük verir. İkincisi, azərbaycanlı müəlliflər öz rusiyalı həmkarları ilə müqayisədə aşkar zəiflik nümayiş etdirir, rusdilli kitablarla rəqabət aparmağa səy etmirlər.

Görünlüyü kimi, kitab ticarəti çeşidinin vəziyyəti çoxsaylı faktorların təsiri altındadır. Onları nəzəri olaraq kitab ticarətinin tipoloji modelinin aşağıdakı tərkib hissələri kimi ayırd etmək mümkündür: 1) predmet-sahə tipologiyası, 2) nəşriyyat tipologiyası, 3) xronoloji tipologiya.

*Predmet-sahə* ünsürü kitabın məzmunu ilə bağlıdır. Bu ünsürə əsasən elm, təhsil, tibb, biznes, istehsal və s. fəaliyyət sahələrində hansı kitablara tələbatların mövcud olması proqnozlaşdırılır, bunun əsasında respublikaya kitab idxalı və daxildə kitab istehsalının çeşidi müəyyən edilir. Burada

qısamüddətli və uzunmüddətli marketinq strategiyalarının işlənməsi mümkündür. Qısamüddətli strategiyalar konkret dövr (aylar, il və ya bir neçə il) üçün kitab ticarəti bazarının öyrənilməsi, tələbatların, daha çox satılan kitabların müəyyən olunması və bunlar əsasında cari dövr üçün kitab biznesi planlarının tərtibini nəzərdə tutur. Uzunmüddətli strategiyalar əsasən dövlət tənzimi qurumlarının öhdəsinə düşür. Bunlar əhalinin maariflәndirilməsi ümumdövlət proqramının tərkib hissəsidir və bir neçə onillik dövrü əhatə edə bilər. İnkişaf etmiş dövlətlərin uzunmüddətli kitab işi strategiyalarının öyrənilməsi göstərir ki, hazırda bu ölkələrdə elektron kitab ticarətinə keçid yüksək sürətlə inkişaf edir. Dövlət və özəl kitabxana fondlarında olan nüsxələrin elektron nüsxələri hazırlanır və oxucular kitabxanalara getmədən internet vasitəsilə kitabxana fondlarında olan elektron nüsxələrindən ödənişli istifadə etmək imkanı əldə edirlər.

Qeyd edək ki, hazırda bu prosesin ilk əlamətləri respublikamızda da baş qaldırmaqdadır. Bu gün oxucular internet vasitəsilə Azərbaycan Respublikası qanunvericilik sistemi aktlarının elektron variantlarını əldə etmək imkanına malikdir. Elektron sənəd ticarətinin inkişaf etdirilməsi üçün hüquq sferasında müəyyən addımlar atılmış, xüsusən Elektron imza və elektron sənəd haqqında, Elektron ticarət haqqında qanunlar qəbul edilmişdir. Hesab olunur ki, bu proses kitab işi sferasına da aid edilməli, hazırda dövlət kitabxana fondlarında olan kitabların elektron versiyalarının hazırlanması üçün dövlət səviyyəsində tədbirlər görülməlidir. Bu proses dünya elmi əlaqələr sisteminə inteqrasiyanın vacib mərhələlərindən biridir. Futuroloqların proqnozlarına görə 2020-ci ilədək dünyanın əsas kitabxanaları internet şəbəkəsi vasitəsilə birləşdiriləcək, müxtəlif dillərdə olan kitabların digər dillərə keyfiyyətli tərcüməsi üçün kompüter proqramları inkişaf etdiriləcək, bununla oxucular dünyanın istənilən ölkəsində olan kitabxana fondlarının məhsullarını öz dilində istifadə etmək imkanı əldə edəcəkdir.



*Nəşriyyat-tipoloji ünsür* nəşriyyat repertuarının bütün növ müxtəlifliyini əks etdirir. Buraya həm məzmun, həm çap keyfiyyət baxımından çeşidləmə daxildir. Məsələn, məzmununa görə bütün kitablar: elmi, elmi-kütləvi, sorğu, kütləvi-siyasi, tədris, rəsmi və s. çeşidlərə bölünür. Çap keyfiyyətinə və üsuluna görə kitablar: üz qabığının keyfiyyəti, kağızın növü, kitabın formatı, səhifələrin birləşdirilmə üsulu və s. göstəricilərə görə fərqlənirlər.

*Xronoloji ünsür* keçmiş və müasir dövrün əlaqələndirilməsinə xidmət edir. Kitab istehsalı bir çox digər əmtəələrdən, məsələn, ərzaq və geyim məhsullarından o cəhətilə fərqlənir ki, ərzaq məhsulu birdəfəlik istifadə üçündür, onun gündəlik tələbat həcmi təkrar istehsal olunmalıdır. Kitab istehsalında isə vəziyyət başqa cürdür. Müəyyən kitablar istehsal olunur, satılır, oxunur və bundan sonra ya şəxsi kitabxana fondlarında tərpənməz mülkiyyət kimi qalır, ya da müxtəlif üsullarla dövriyyəyə qayıdaraq, məsələn, bukinistlər vasitəsilə, oxucu tələbatlarını ödəməkdə davam edir. Bu mənada, kitab çeşidi işinin retrospektiv cəhətinə xüsusi diqqət yetirilməli, ötən illərdə satılmış kitablar illər və aylar üzrə ardıcıllıqla siyahıya alınmalı, onların buraxılış və satış həcmləri təhlil olunmalıdır.

## ƏDƏBİYYAT


*1. Кожевников Г.В. Теория и методика ассортиментной работы: Учебное пособие. М.: Изд. «Мир книги», 1993. - 52 с.*

*2. Сазтина И.А. Ассортиментная деятельность в книжной торговле // Кн. Торговля. Обзор. Информ. М.: 1987. Вып.3.- С. 48.*

*3. Соломенко В.К. Формирование книготоргового ассортимента: Обзор. М.: Книга, 1987. стр. 57.*

*4. Məmmədov M.Ə. Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası (Tədris-metodiki vəsait). B.: Mütərcim, 2005. - 112 s.*

*Шахла Тахир кызы*

# ТИПОЛОГИЧЕСКИЙ МОДЕЛЬ КЛАССИФИКАЦИИ КНИЖНОЙ ТОРГОВЛИ

**РЕЗЮМЕ**

*В статье рассказывается понятии классификация книжной торговли и современном подходе к нему.*

*Автор обстоятельно излагает классификацию книг, ее аналогические соотношения с другими областями книжной работы.*

**Ələmdar BAYRAMOV**
*Müəllim*

# AZƏRBAYCANDA NƏŞRİYYAT VƏ KİTAB TİCARƏTi BİBLİOQRAFİYASININ YARANMASI VƏ İNKİŞAFI

Nəşriyyat və kitab ticarəti biblioqrafiyasının əsas məqsədi çap əsərlərinin nəşri və satışı haqqında oxuculara müntəzəm və məqsədyönlü məlumatlar verməkdən ibarətdir. Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının ilk nümunələri XX əsrin əvvəllərində özünü mətbuat səhifələrində verilən müxtəlif elanlarda, biblioqrafik siyahılarda biruzə vermişdir. Əsrin əvvəllərində fəaliyyət göstərən "Hümmət", "Təkamül", "Molla Nəsrəddin" və s. kimi qəzet və jurnalların səhifələrində vaxtaşırı bu cür informasiyalara rast gəlinirdi. Bəzi nəşrlər daha irəliyə gedərək kitablara annotasiyalar verirdi. Mətbuat səhifələrində dərc edilmiş bu tipli materiallarda mütəşəkkillik deyil, pərakəndəlik daha çox idi. Lakin bu mənbələr nəşriyyat və kitab ticarəti biblioqrafiyasının ilk nümunələri kimi əhəmiyyət daşıyırlar. Dövrün nüfuzlu nəşrlərindən olan "Məktəb" jurnalı da öz səhifələrində bu cür materiallara yer ayırmışdır. Jurnalın 1912-ci ildə nəşr edilmiş 10-cu nömrəsində "Aşağıdakı kitablar çapdan çıxdı" başlığı altında elan verilmiş və 5 adda kitabın biblioqrafik təsviri və qiyməti göstərilmişdir(4.s.49). Bu tipli elan və biblioqrafik siyahılara "Molla Nəsrəddin" jurnalında da rast gəlinir. Jurnalın 1908-ci il 22-ci nömrəsində verilən elanda yazılır: "Təzə açdığımız kitab dükanında aşağıda adları yazılan kitablar satılmaqdadır:

1.Səyahətnameyi-İbrahim bəy.
2.Tərcümeyi Məsnəvi-Şərifi.
3.Mirzə Mülküm xanın kitabı.

Elanın sonunda kitabların satıldığı mağazanın ünvanı və qiyməti göstərilmişdir(7.s.8). Jurnalın 1909-cu il 9-cu nömrəsində "İdarəmizdə satılan kitablar" başlığı altında verilən elanda isə 30-a yaxın ədəbiyyatın siyahısı verilmişdir. Burada təsvir olunmuş kitablar qiraət və dərs kitabları olmaqla 2 hissəyə ayrılmışdır(4.s.48). Jurnal kitabları təbliğ etmək üçün o qədər cəlbedici məlumatlar verirdi ki, hər bir kitab həvəskarı, kitab müştərisi həmin kitabları əldə etməyə tələsirdi. Məsələn jurnalın 1908-ci il 29-cu nömrəsindən oxuyuruq: "Şkollarda, məktəblərdə və külfətdə təlim etmək üçün Bakı müəllimlərindən 6 nəfəri türk dilində "İkinci il " adlı qiraət kitabı tərtib ediblər. Bu kitab "Qeyrət" mətbəəsində çap olunub. Kitabın tərtibi: 113 hekayə, 50-yə qədər şəkil ki, bəzisi Qafqaz müsəlmanlarının həyatından götürülüb; imla və inşanı öyrətmək üçün 50-yə qədər yazı dərsləri; kitabın sonunda çətin sözlərin lüğəti və bir çox üsuli-tədrisə dair məsələlər. Müəllimlərə və kitab satanlara fərq qoyulacaq"(6.s.8). Göründüyü kimi bu elanda müştəriləri kitabı əldə etməyə həvəsləndirən informasiyalar, o cümlədən kitabın məzmununu açmağa yönəlmiş məlumatlar verilmiş, kitab haqqında ilkin təsəvvürlər yaradılmışdır.

Mətbuat səhifələrində verilən bu tipli yazılar nəşriyyat və kitab ticarəti biblioqrafiyasının ilk nümunələri olsalar da əsaslı nümunələri deyil. Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının əsaslı şəkildə yaranması Orucov qardaşlarının fəaliyyəti dövrünə, inkişaf və formalaşması isə Sovet dövrünə aid edilir.

Nəşr etdikləri kitabları yaymaq, həmin kitablar haqqında oxucuda dolğun informasiya yaratmaq məqsədilə Orucov qardaşları tərəfindən 1912-ci ildə "Bəradərani Orucov kütubxanəsinin əsamül-kütubu" adlı kitab ticarəti kataloqu nəşr edildi. Bu kataloq Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının ilk əsaslı nümunəsidir. Kataloqun I buraxılışı 1912-ci ildə 40 səhifədə, II buraxılışı



1913-cü ildə 48 səhifədə, III buraxılışı isə 1914-cü ildə 58 səhifədə çap edilmişdir.

1912-ci ildə nəşr edilmiş ilk kataloqun girişində onun məqsəd və vəzifələri izah olunmuş, onun məzmununu açmağa yönəlmiş yazı verilmişdir. Yazı "Bir- iki söz" başlığı altında verilmişdi. Yazıda deyilir: "Möhtərəm camaatın oxumağa və mütaliəyə olan həvəslərini görüb açmış olduğumuz kütubxanənin üzərinə bu il bir çox yeni kitablar əlavə etməklə "Əsamül-kütubu" təb və nəşr edirik"(3.s.3). Daha sonra isə ticarətin şərtləri izah edilir, kitabları necə əldə etməyin yolları göstərilir.

Kataloqda kitablar ayrı-ayrı sahələr üzrə qruplaşdırılaraq cədvəl şəklində tərtib edilib. Cədvəl 3 bölmədən ibarətdir. Birinci bölmədə kitabın adı, ikinci bölmədə müəllifin və ya tərcümə edənin adı, üçüncü bölmədə isə kitabların qiyməti göstərilib. Kitablara müəyyən qədər biblioqrafik təsvirlər verilib, lakin biblioqrafik təsvirlərin tərtibində vahid qayda gözlənilməyib, təsvirlər pərakəndə şəkildə aparılıb. Kataloqun çatışmayan cəhətlərindən biri də xarici ədəbiyyatdan tərcümə edilmiş əsərlərin təsvirində olan qüsurlardır. Tərcümə olunmuş əsərlərin müəllifləri və orijinalın dili haqqında çox hallarda məlumat verilməyib. Kataloqda birinci olaraq "Dini kitablar" başlığı altında kitablar təsvir edilib. Bu bölmədən olan kitabların biblioqrafik təsvirinə nümunə olaraq aşağıdakı kitabın təsvirinə baxaq:

"17 Ramazan-İslam tarixinə mənsub olan bir kitabdır. Bu kitab "İslam tarixi" silsiləsinin 4-cü hissəsidir. Burada İmam Əlinin xilafəti zamanı vaqe olan hadisələr, İmam Əlinin qətli əhatə olunub. 374 səhifədən ibarət olub, qiyməti 1 manat 75 qəpikdir"(3.s.7).

Göründüyü kimi burada kitaba annotasiya verilib, lakin biz bunu bütün kitabların təsviri haqqında söyləyə bilmərik. Kataloqun növbəti bölməsi "Roman və hekayə kitabları" adlanır. Bölmədə Azərbaycan və xarici ədəbiyyatdan olan kitabların təsviri verilmişdir. Digər

başlıqlar "Teatro kitabları", "Qiraət kitabları", "Təlim kitabları", "Əşar kitabları", "Lüğətlər" və s. adlanır. "Teatro kitabları" adlanan bölmədə verilmiş əsərlərin adı, müəllifi və qiyməti ilə bərabər əsərin neçə pərdədən, məclisdən və şəkildən ibarət olduğu da göstərilib. "Qiraət kitabları" adlanan bölmədə kitabın hansı sinif şagirdləri üçün nəzərdə tutulması göstərilib. "Əşar kitabları" bölməsində müxtəlif şeir kitabları ilə yanaşı bu gün artıq biblioqrafik göstəricinin bir növü kimi qəbul edilən təzkirələr haqqında da məlumatlar var. Kataloqun son səhifəsində yenicə çapdan çıxması göstərilən Ü.Hacıbəyovun "Arşın mal alan" və "Əsli və Kərəm" əsərləri haqqında məlumatlar verilmişdir.

Kataloqda köməkçi göstəricilərin verilməsi isə müsbət hal kimi qiymətləndirməlidir. Vəsaitdə aşağıdakı köməkçi göstəricilər verilib:

- Sərlövhələrin əlifba göstəricisi;
- Tərcüməçilərin əlifba göstəricisi;
- Naşirlərin əlifba göstəricisi;
- Müştərək müəlliflərin əlifba göstəricisi.

Bu kataloqu həmin dövrdə nəşr edilən digər kataloqlardan, göstəricilərdən fərqləndirən xüsusiyyət yalnız onun kitab ticarəti xarakterli olması deyil. Bu fərq özünü dil baxımından da göstərir. Həmin dövrdə nəşr edilmiş bütün kataloqlar rus dilində olmuşdur. Bu kataloq isə Azərbaycan dilindədir və bilavasitə Azərbaycandilli oxuculara istiqamətlənmişdir. Kataloq eyni adla 1913 və 1914 -cü illərdə də nəşr edilmişdir. Kataloq getdikcə təkmilləşdirilmişdir. Əvvəlki kitablar saxlanılmaqla bərabər yeni çıxan kitablar da kataloqa əlavə edilmiş, təsvirlərdə olan natamamlıq aradan qaldırılmışdır. Kataloqda bəzi kitabların məzmununa uyğun illüstürasiyalar da yerləşdirilmişdir.

Bəhs olunan dövrdə çap edilən daha bir kitab ticarəti xarakterli kataloq "Gəncə Mədrəsə Kitabxanasının kataloqu" adlanır. 1912-ci ildə nəşr edilmiş vəsaitdə kitablar "Dini



kitablar", "Ədəbiyyata dair mənzum əsərlər", " Romanlar və kiçik hekayələr", "Lüğətlər" və s. başlıqlarda qruplaşdırılmışdır (5). Kataloq tərtibat baxımından Orucov qardaşlarının kataloqundan geridə qalır. Vəsaitdə heç bir kitaba annotasiya verilməyib, təsvirlər natamamdır. Baxmayaraq ki, kataloq kitab ticarəti xarakteri daşıyır, amma, bir çox kitabların qiyməti göstərilməyib.

Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının inkişafının ikinci mərhələsi sovet dövrünə aiddir. Əgər Sovet dövründən əvvəl bu işlə ayrı-ayrı şəxslər pərakəndə şəkildə məşğul olurdusa, sovet dövründə bu iş mütəşəkkil şəkildə dövlət tərəfindən həyata keçirilmişdir. Sovet Azərbaycanında bu işin həyata keçirilməsinə Azərnəşr rəhbərlik edirdi. Azərnəşr tərəfindən ilk belə kataloq 1924-cü ildə buraxılmışdır. Vəsait "Azərnəşrin ticarət qismi əxbari" adlanır. Həmin kataloqda kitablar ayrı-ayrı elm sahələri üzrə qruplaşdırılaraq cədvəl şəklində verilmişdir. Materialların biblioqrafik təsviri mükəmməldir. Kataloqun əsas nöqsanı köməkçi aparatla təchiz olunmamasıdır. Vəsaitdə kitablar aşağıdakı başlıqlar altında qruplaşdırılıb:

1. Qiraət və teatro kitabları;
2. Ali-siyasi, maarif işlərinə dair kitablar;
3. Cocuq ədəbiyyatına aid kitablar;
4. Plakatlar və afişalar;
5. Məcmuələr;
6. Bu yaxınlarda çapdan çıxacaq kitablar(1).

Azərnəşr tərəfindən tərtib edilən digər bir kitab ticarəti xarakterli kataloq isə 1926-cı ildə "Azərbaycan Dövlət Nəşriyyatı" adı altında buraxılmışdır. Vəsaitdə əsasən tədris ədəbiyyatına dair, müəyyən qədər isə ictimai-siyasi, elmi, texniki, bədii və s. sahələrə dair kitablar təsvir edilmişdir. Kitabların təsviri onların adından, müəllifindən, nəşr ilindən,qiymətindən və s. məlumatlardan ibarətdir. Vəsaitdə tədris ədəbiyyatı aid olduğu məktəbin tipinə görə üç bölmədə qruplaşdırılmışdır.

Azərnəşrin birinci kataloqu ilə müqayisədə bu kataloqun həcmi xeyli böyükdür. Kataloqun həcminin böyük olması Azərnəşrin çap məhsullarının ildən-ilə çoxalması ilə izah oluna bilər. Bu vəsaitdə 217 adda kitabın biblioqrafik təsviri verilmişdir. Azərnəşrin bu cür vəsaitlər buraxması ənənə halını almışdır və uzun bir dövrü əhatə etmişdir.

Sovet dövründə kitab ticarəti xarakterli vəsaitlərin buraxılması ilə yalnız Azərnəşr məşğul olmurdu. 1926-cı ildə "Bakı fəhləsi" nəşriyyatı tərəfindən eyni adlı kataloq nəşr edilmişdir. Kataloq 24 səhifədən ibarətdir və 1200 tirajla rus və Azərbaycan dillərində nəşr edilmişdir. Kataloq 1922-ci il oktyabr ayının 1-dən 1926-cı il mart ayının 1-nə qədər olan dövrdə nəşr edilmiş kitabları əhatə edir. Vəsaitdə kitablar 4 başlıq altında qruplaşdırılmışdır (2). 1926-cı ildə daha bir kitab ticarəti xarakterli kataloq Dövlət Nəşriyyat Komitəsi tərəfindən buraxılmışdır. Vəsait "Yeni türk əlifbası ilə çıxan kitabların kataloqu" adlanır. Kataloqda kitabların təsviri mükəmməl verilmişdir.

Bəhs olunan dövrdə Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının inkişaf etdirilməsi üçün dövrü mətbuatın da rolu müəyyən dərəcədə olmuşdur. "Bakinskiy raboçi" və "Vışka" qəzetləri öz səhifələrində ardıcıl olaraq bu tipli yazılar dərc edirdi. "Bakinskiy raboçi" qəzetinin birbaşa kitabların təbliği ilə məşğul olan "Kitablar aləmində" adlı rubrikası vardı.

Kataloqların, bülletenlərin nəşrindən sonra 1935-ci ildən başlayaraq nəşriyyatlar tərəfindən illik tematik planlar tərtib olunmağa başlandı və sifarişlər onun əsasında ödənilirdi. 1936-cı ildən isə sifarişlər üçün blanklar tərtib edilməyə başlandı. Həmin blankların iki növü olmuşdur və müvafiq olaraq çoxtirajlı və aztirajlı kitabları əhatə etmişdir. Lakin nə tematik planlar nə də blanklar tələbatı tam ödəmədiyindən 30-cu illərin sonu, 40-cı illərin əvvəllərindən başlayaraq yenidən kataloqların nəşri geniş



vüsət aldı. 1938-ci ildə nəşr edilmiş bu tipli vəsaitlərdən biri "1938-ci il üçün qəzet və jurnalların kataloqu" adlanır. Kataloqun əvvəlində mətbuat orqanlarına abunə qaydaları izah edilir. Azərbaycan və rus dillərində tərtib edilmiş bu kataloqda mətbuat orqanları 3 bölmədə qruplaşdırılıb:

1. Respublika və Bakı qəzetləri;
2. Respublika jurnalları;
3. Rayon mətbuatı

Kataloqda göstərilən nəşrlərin biblioqrafik təsviri onların adı, dili, dövriliyi, abunə qiyməti, xırda satışda tək nüsxə ilə qiymətindən ibarətdir və bütün bunlar cədvəl şəklində göstərilib.

1940-cı ildə nəşr olunmuş "Uşaq ədəbiyyatı" kataloqu da əhəmiyyətli bir nəşrdir. Kataloqda müxtəlif dövrlərdə nəşr olunan 92 adda kitab və kitabçada toplanmış çoxlu sayda nağıl və hekayələrin siyahısı və qısa annotasiyası verilmişdir. Hər bir nağıl və hekayənin hansı sinif şagirdləri üçün uyğun olduğu göstərilib. 1940-cı illərdə Azərkitab tərəfindən də bir neçə kataloq buraxılmışdır. Azərkitabın çap etdiyi ən böyük kataloq "Nizami Gəncəvinin yubileyi üçün nəşr edilmiş kitabların kataloqu" adlanır və 1941-ci ildə nəşr edilmişdir. Kataloqda kitablar 2 başlıq altında qruplaşdırılıb. Birinci başlıqda N.Gəncəvinin öz əsərləri, ikinci başlıqda isə N.Gəncəvi haqqında yazılmış kitablar təsvir edilib.

Nəşriyyat və kitab ticarəti biblioqrafiyasının inkişafının ikinci mərhələsi II Dünya müharibəsindən sonraya aid edilir. Bu mərhələ növbəti məqaləmizdə geniş şəkildə əhatə olunacaqdır.

Bazar iqtisadiyyatına keçdiyimiz müasir dövrdə Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyası dövrün reallıqlarına uyğun şəkildə qurulmalıdır. Ötən dövr ərzində bu sahədə qazanılmış uğurlu təcrübədən istifadə etmək də faydalı nəticələr verə bilər. Eyni zamanda müxtəlif dövrlərdə nəşr edilmiş kitab ticarəti xarakterli vəsaitlərin

qiymətli mənbələr olduğunu nəzərə alaraq onlara diqqət artırılmalıdır. Bu mənada ölkəmizdən kənarda ayrı-ayrı kitabxanalarda saxlanılan həmin vəsaitlərin fotokopiyalarının çıxarılıb gətirilməsi, respublikamızın ayrı-ayrı kitabxana və arxivlərində olan və demək olar ki, çox hissəsi yararsız hala düşən həmin nadir vəsaitlərin yenidən nəşr edilməsi vacib məsələlərdən biridir.

## ƏDƏBİYYAT:


1. *Azərnəşrin ticarət qismi əxbari.-B.:Azərnəşr,1924.-24s.*
2. *Bakı Fəhləsi.-B.:Bakı Fəhləsi,1926.-24s.*
3. *Bəradərani Orucov Kütubxanəsinin Əsamül-Kütubu.-B.:Orucov Qardaşlarının Elektrik Mətbəəsi,1912.-40s.*
4. *Əsədullayev A.M. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda kitab ticarəti biblioqrafiyası//ADU-nun elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-B.:ADU,1974.-№2.-S.46-51.*
5. *Gəncə Mədrəsə Kitabxanasının kataloqu.-B.:Orucov qardaşlarının Elektrik Mətbəəsi,1912.-12s.*
6. *Molla Nəsrəddin.-1908.-№2.*
7. *Molla Nəsrəddin.-1908.-№ 22.*



***Аламдар Байрамов***


## БИБЛИОГРАФИЯ ИЗДАНИЯ И ТОРГОВЛИ КНИГАМИ В АЗЕРБАЙДЖАНЕ: СОЗДАНИЕ И РАЗВИТИЕ.


***РЕЗЮМЕ***

*Первые примеры библиографии издания и торговли книгами появились в конце XIX и в начале XX-их веков на страницах газет и журналов. Эго развитие относится к эпохе деятельности братьев Оруджовых, а формиравение относится к Советской эпохе.*

*Статья посвящена этой проблеме.*

**Xəzər QÜVVƏTOV**
*Magistr*

# MÜASIR AZƏRBAYCAN POEZIYASININ ÜSLUBU MƏSƏLƏLƏRI

Hər dövrdə ədəbiyyatın özünəməxsus mənzərəsi olmalıdır. Elə bir mənzərə ki, nəinki müasir zamanı yaşayan ədəbiyyat adamına, həmçinin gələcək nəslin oxucusuna da aydın olsun. Əlbəttə, ədəbi prosseslər baş verən istənilən dəyişikliyin ədəbiyyat üçün inkişaf, eniş, yaxud durğunluq olduğunu vaxtında dəyərləndirmək çətindir. İstər-istəməz "hadisələri qiymətləndirmək üçün kənardan baxışa ehtiyac var" məntiqə üstünlük verməli olursan. Amma prosesin hansı istiqamətdə dəyişdiyini deyə bilməsən də, ümümi mənzərənin istənilən zaman aydınlaşdırmaq və təsvir etmək mümkündür. Bu mənada deyə bilərik ki, "keçid dövrü" adlandırılan qarışıq zamanda belə, yeni əsərlər, yeni ədəbiyyat nümunələri yaradır. Biz onların ümümi mənzərəsini, xarakterik cizgilərini, keyfiyyət dəyişikliyinə uğrayıb-uğramadığını təsvir etməyə çalışacağıq.

Məlumdur ki, tarixin hər dönəmi özü ilə təzə ədəbi imzalar gətirir. Elə imzalar ki, talelərini təkcə istedadları, qələmlərin gücü müəyyənləşdirmir. Onlardan kimisi özünü təsdiqləyib yaşayır, kimisi meydandan gedir, kimisi də... elə imza olaraq qalır. Yəni cəmiyyətin virtual şəkildə qəbul etdiyi və ədəbi təffəkür sahibi kimi qavradığı bəzi adların arxrasında ədəbiyyat nümunəsinin dayandığı da çıxa bilər. Hər halda, bu cür faktlar məlumdur.

Eyni dövrün meydana çırartdığı (yaxud meydanda olsada da, tanınmadığı üçün tanıtdığı) yeni imzaların ümumi külliyyatını nə cürsə adlandırmaq gərəkdir. Deməli, qarşıya ilk problem çıxır- ədəbi nəsli necə adlandırmaq?

Sözlsüz ki, ədəbiyyat nümünəsi qrup halında yaranmadığı kimi, ədəbiyyat adamları qruplaşma şəklində

öz mövcudluğunu qoruyub saxlaya bilər. Amma ədəbiyyatın özündə də, ədəbi prosesin daxilində də qruplaşmaların varlığı şəksizdir. Bu qruplaşmalar Ədəbiyyat nümünəsi yaratmasa da, Ədəbiyyat adamı imicini formalaşdırır. İstəsək də, istəməsək də, belədir. Bu ədəbi birliklər ədəbi nəslin necə adlandırılması problemində həll rolunu oynaya bilmir. Çünki bu dövrün ədəbiyyatçıları "Pərvanəçi" lər, "Eqo" çular, AYO-çular, "Alatoran"çılar, "Yenisi" çilər yox- məhz nə cürsə adlandırılmalıdır. Bəlkə bu prinsipial iş deyil və ümümilikdə adlandırma ədəbi nəslin təffəkürünü və hansı estetik görüşə malik olduğunu ortaya qoya bilməz. Amma bununla belə,cəhd edək.

"Gənc nəsil" anlayışının bu adlandırma üçün yaranmadığı artıq tədqiqini tapıb. Xüsusilə də bu nəslin arasında "qırx yaşlılar" olduğuna görə (yeri gəlmişkən, bizim bu gün problem kimi ortaya atdığınız qırx yaşdı və ondan böyük ədəbiyyat adamlarımızın "gənc" adlandırılmasını rus ədəbiyyatında belə həll etdilər. "Sorokletnie" (qırxyaşlılar), "Molodıe" (gənclər)- İ.Pankevin "Neizvestnoe pokolenie?"- ("Tanınmayan nəsil?" kitabından). Bizsə "yeni nəsil" adlandıraq. Əsaslandırmamız isə yeni quruluşun, cəmiyyətdə gedən yeni ictimai-siyasi, iqtisadi, hətta psixoloji dəyişikliklərin yeni təffəkürə malik ədəbiyyat adamı ortaya çıxartmasıyla bağlı olacaq.

Müasir Azərbaycan poeziyası yeni imzalar və yeni istedadlar cəhətdən uğurlu adlandırmaq mümkündür. Əvvəlki nəslin nümayəndələri olan Ramiz Rövşən, Rüstəm Bəhrudi, Vaqiş Bayatlı Odər, Vaqif Səmədoğlu dördlüyündən sonra Adil Mirseyid, Salam, Qulu Ağsəs, Əlizadə Nuri, Rasim Qaraca, Murad Köhnəqala, Mahir Mehdi, Elnur Astanbəyli, Əli Əkbər, Aqşin Səlim Babullaoğlu, Nuridə Atəşli, Dəyanət Osmanlı... poeziyanın yeni imzaları idilər. Amma "yeni imzaları idilər. Amma "yeni nəslin" yaratdığı poeziya hansı forma və məzmun dəyişikliyinə uğradı . Ümümi ştirxləri belə sadalaya bilərək: ilk növbədə



"yeni nəslin" yaratdığı poeziyada mövzu dəyişikliyi baş verdi. Tutaq ki, 70-ci illərin diqqətində olan "ölüm" obyekti ilə əvəz edildi. Daha sonra bu, öz yerini "Tanrı" və "dua" ya ötürdu. Həmçinin poeziyanın "qara" notlara köklənməsi prosesi gücləndi. "Söz oyunu" adı altına qəbul etdiyimiz təzad assosiasiyasının yaradılmasına xüsusi marağın meydana gəlməsi müasir poeziyanın ən başlıca xüsusiyyətinə çevrildi. "Zövq vermək" xüsusiyyəti müasir şeirdə "düşündürmək", "məntiqi oynatmaq", "fikri dolaşdırmaq" xüsusiyyətləri ilə əvəz edildi. Poeziyada fəlsəfə ən başlıca keyfiyyət kimi qabardıldı və poetik təfəkkürün "sadə orijinallığı" "orijinal qəlizliklə" əvəz edildi.Həmçinin yeni nəsil poeziyasında poetik təfəkkürü vizual və virtual təsir "uçurumuna" uğratmaq, forma yeniliyi əldə etmək üçün (dünya ədəbiyyatının keçdiyi, amma bizim ədəbiyyatda yeni olan) eksperimentlərin tətbiqinə çalıçmaq , müasir rus və keçmiş sovet məkanında olan çox ölkə ədəbiyyatlarının maraq göstərdiyi "poeziyada pornoqrafiya elementləri"nin az da olsa tətbiqinə çalışmaq kimi meyllər oldu.

Azərbaycan Yazıçılar Birliyinin qurultayqabağı tədbirlərindən birində- son beş ilin poeziyası haqqında "Min illərin ayrıcında" adlı məruzədə tənqidçi Əsəd Cahangirin verdiyi təsnifatdan da belə bir bölgü aparıldı: "1998-ci ildən sonra meydana çıxan poeziya nümünələrini bir neçə ən başlıca yaradıcılıq metodu və istiqaməti üzrə bölmək olar:

1. milli-realist şeir
2. simvolist şeir
3. modernist şeir
4. postmodernist şeir

Burda ən mübahisəli məsələ növbəti bölgülərlə, xüsusilə də son iki bölgü ilə bağlıdır.

Modern şer nədir? Maksimum dərəcədə ənənəlikdən, şerin təzə çalarlarını yaratmaq, yeni ifadə üsulları, obrazlar

və epitetlər gətirmək, dünya, gerçəkliyə münasibətin və reallığı əks etdirmənin yeni poetik formalarını yaratmaq. Modern şerdə gördüyün dünya sanki sənə təzə görünür. Şairin aşıladığı hisslər oxucu üçün təzədir. Təbii ki, həmişə şerin təzəsi, artıq öz ömrünü başa vurmaqda olan,yaxud hələ yaşamaqda davam edən şerin köhnəsiylə mühazədə diqqəti cəlb edir.

Modernist şerin vətəni Avropadır, amma Şərq şairləri bu modernizmi qəbul edərkən çox zaman öz milli stixiyalarından çıxış edirlər. Yəni Avropa modernizmi ilə Şərqli baxışı birləşir. Bu gün modern şer yaradıcılarının ən uğurlusu Zahir Əzəmətdir. Məsələn:

Bu gün şəhərdə
şerimi gördüm-
su içirdi,
siqaret çəkirdi,
ağac sulayırdı,
Körpə bir qızın
ürəyində yellənirdi şerim.

Zahir Əzəmətin "Qəribə gün" şeri belə başlayır və əslində, modernistlərin gerçəkliyə münasibəti çox aydın ifadə edir.

Postmodernizm üslub, metod yox, dünyaya baxış, təfəkkür istiqaməti deməkdir. Onun Avropada fəlsəfi fikrin tənqidin nəticəsi kimi meydana gələn "modernizm"dən sonra yarandığı bildirilir. Üslubdan çox dünyabaxış, yeni təfəkkür, yeni dünya görüşü olan postmodernism olan ağız dolusu danışanlara adını tez-tez çəkdikləri Umberto Eko fikirlərindən də misal gətirə bilərik. O yarızdı ki, "postmodernizm xronoloji fakt yox, ruhi vəziyyətdir. Ona görə də hər bir dövrün öz postmodernizmi var".

Azərbaycan ədəbiyyatında postmodernist şairlərə gəldikdə bura Nuridə Atəşli və Əli Əkbəri aid etmək olar. Birinci bu vaxtda qədər ədəbiyyatımıza gətirilməyən qadın



hisslərinin gətirilməsi ilə yadda qalsa da, Əli Əkbər postmodernist öldürücü satiranın yaradıcısıdır. XX əsrin əvvəlində M.Ə.Sabir hansı təzyiqlərlə üz-üzə qalırdısa bu gün "Mən Əclafam" şerlər kitabından sonra həmin təzyiqlər Əli Əkbərə yönəlib. Şairin "Əclaf" şerinə nəzər salaq.

əclaf olmayanda
heç salam da vermirlər adama
ən çox əclaflığımı duyan isə
məscidimizdəki axunddur
çünki özü də əclafdır
bizim əclaflığımız dostdur
əclaflığımın mayası,
batareyası yoxdur.
vətənimdən
atamdan
anamdan qidalanıb əclaf olmuşam.

Posmodernist şerin ən sərt nümünəsi olan bu əsərdən göründüyü kimi əsrlər boyu yaradılmış vətən sevgisi, ana məhəbbəti və bir çox milli dəyərlər tənqid olunur.

## ƏDƏBIYYAT

*1.* Abdullayev C.M və b. Müasir Azərbaycan *Ədəbiyyatı: Ali məktəblər üçün dərslik: C.2. B., Bakı Universiteti nəşriyyatı, 2007.-564 s.*

*2. Azad Yaşar. Postmoderin Rus Ədəbiyyatı: əsərlər toplusu, B., Adiloğlu, 2006.-144 s.*

*3. Əli Əkbər.Mən Əclafam: 100% qafiyələnmiş şizoizmlər, B., Adiloğlu, 2005.- 190 s.*

*4. Əsəd Cahangir. Minillərin ayrıcında// Ədəbiyyat qurultaydan, qurultaya.-B.,1998.-S.12-45*

*5. Nərgiz Cabbarlı. Yeni nəsil ədəbiyyatı: Ədəbi-tənqidi məqalələr.- B., Elm, 2006.*

*6. Vaqif Yusifli. Yolayrıcı: Ədəbi- tənqidi məqalələr: B., Vektor nəşrlər evi, 2004.-185 s.*

*Хазар Гувватов*

# ВОПРОСЫ СТИЛИСТИКИ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ


## *РЕЗЮМЕ*

*В данной статье освещены проблемы стилистики поэзии, на основе современных примеров Азербайджанской литературы. Автор так же, характеризует основные творческие методы по этому направлению.*

# BİZİM MÜƏLLİFLƏR

***Elçin Yusif oğlu Əhmədov****-BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, Kitabxanaşünaslıq kafedrasının dosenti*

***Əli Musa oğlu Rüstəmov****- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti*

***Nadir İslam oğlu İsmayılov****-BDU-nun Bibilioqrafiyaşünaslıq kafedrasının dosenti*

***Sənubər Mikayıl qızı Mustafayeva****-BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının baş müəllimi*

***Raifə Əsəd qızı Vəzirova****- BDU-nun Bibilioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

***Qəmzə Söhbət qızı Hacıyeva****-BDU-nun Bibilioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

***Şəhla Tahir qızı Quliyeva****- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi*

***Ələmdar Qənbər oğlu Bayramov****- BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi*

***Xuraman Telman qızı Verdiyeva****- BDU-nun Biblioqrafik informasiya axtarış sistemləri laboratoriyasının müdiri*

***Afət Qnyaz qızı Rzayeva*** *-BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının aspirantı*

***Nuriyyə Zakir qızı Mustafayeva*** *-BDU-nun «Kompüter mərkəzi»nin mühəndisi*

***Əminə Vəli qızı Məmmədova*** *-BDU-nun Bibilioqrafiyaşünaslıq kafedrasının baş laborantı*

***Arzu Kazım qızı Vəliyeva****- BDU-nun Bibilioqrafiyaşünaslıq kafedrasının dissertantı*

***Elşən Vahid oğlu Əhmədov*** *-BDU-nun magistri*

***Elvira Əlihüseyn qızı Talıbova****-BDU-nun magistri*

***Xəzər Bəhiyyəddin oğlu Qüvvətov****- BDU-nun magistri*

***Əsmər Rüstəm qızı Hüseynova****- BDU-nun magistrantı*

# BU NÖMRƏDƏ

## KİTABXANAŞÜNASLIQ

**Elçin Əhmədov, Əsmər Hüseynova.** *Qlobal informasiya məkanı və müasir kitabxanaşünaslıqda mütaliənin yeni təzahürləri*..............................................................3
**Əli Rüstəmov, Nuriyyə Mustafayeva.** *Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması*..............................................................15
**Sənubər Mustafayeva.** *Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi (II məqalə)*.............. 29
**Afət Rzayeva.** *Soraq-biblioqrafiya aparatı Oxuculara kitabxana-informasiya xidmətinin əsas bazası kimi*.......................................... 36
**Elşən Əhmədov.** *Müasır şəraitdə oxucu orğularının ödənilməsi sahəsində m.f.axundov adına azərbaycan milli kitabxanasının fəalıyyəti*.......................................... 46
**Elvira Talıbova.** *Kitabxanalarda əmək məhsuldarlığının yüksəldilməsi yolları*.......................................... 54

## BİBLİOQRAFİYAŞÜNASLIQ

**Nadir İsmayılov.** *Təbiətşünaslıq, texnika və kənd təsərrüfatı üzrə ədəbiyyatın biblıoqrafık təhlilinin bəzi məsələləri*..........................................59
**Raifə Vəzirova.** *Elektron biblioqrafik məlumat bazası sbanın əsas tərkib hissəsidir*..........................................76
**Qəmzə Hacıyeva.** *Məcburi nüsxə cari milli biblioqrafiyanın əsas bazası kimi*..........................................87
**Xuraman Verdiyeva.** *Pedaqogika üzrə retrospektiv elmi köməkçi vəsaitlər*..........................................93
**Əminə Məmmədova.** *Azərbaycan tarixçilərinə həsr olunmuş şəxsi biblioqrafik göstəricilər*..........105
**Arzu Vəliyeva.** *M. F. Axundov adına milli kitabxanada Oxuculara biblioqrafik informasiya Xidmeti tarixindən (1970 – 1980)*..........................................114



## KİTABŞÜNASLIQ

**Şəhla Tahir qızı.** *Kitab ticarəti çeşidinin tipoloji modeli*...121
**Ələmdar Bayramov.** *Azərbaycanda nəşriyyat və kitab ticarəti biblioqrafiyasının yaranması və inkişafı*..............129
**Xəzər Qüvvətov.** *Müasir azərbaycan poeziyasının üslubu məsələləri*..........................................137
***Bizim müəlliflər***..........................................143
***Bu nömrədə***..........................................144

*Nəşriyyatın direktoru:* ***İslam ŞİRİNOV***
*Baş redaktor:* ***Məmməd ƏLİZADƏ***
*Mətbəə üzrə direktor müavini:* ***Ələs QASIMOV***
*Kompüter tərtibçisi:* ***Nuriyyə MUSTAFAYEVA***

*Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir: 05.06.2007*
*Çapa imzalanmışdır: 23.07.2007*
*Kağız formatı 60x84 1/16*
*Fiziki ç.v. 9*
*Sayı 200*
*Qiymәti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*